RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 80 (10100) 8 may 2026-cı il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR




# Zəfərin əbədi ünvanı

## Şuşa artıq azadlığının qürurunu yaşayır

Şuşanın 1992-ci ildəki süqutu hərbi məğlubiyyətdən daha çox o dövrdə ölkədə hökm sürən siyasi özbaşınalığın, xaosun və hakimiyyət uğrunda gedən çirkin oyunların nəticəsi idi. Təbii istehkam olan, hər daşı bir qala rolunu oynayan bu müqəddəs şəhər daxili çəkişmələr və antimilli qüvvələrin satqınlığı səbəbindən yiyəsiz buraxılmışdı. O dövrdə Bakıda kreslo davası edənlər Qarabağın taleyini öz ambisiyalarına qurban vermişdilər.

Prezident İlham Əliyev 10 may 2024-cü ildə Şuşada doğma sakinlərlə görüşərkən həmin dövrün acı mənzərəsini belə təsvir edib: "Təsadüfi insanlar hakimiyyətə gəldi. Küçələrdən heç bir təhsil almamış, heç bir dövlət işində təcrübəsi olmayan, heç bir biliyə malik olmayan müdafiə nazirləri, dövlət katibləri, parlament sədrləri, prezident vəzifələrinə yiyələndilər və bunun acı nəticəsini Azərbaycan xalqı çəkdi... AXC-Müsavat cütlüyünün tör-töküntüləri... ...Məhz onların hakimiyyətə can atmaları dövründə və ovaxtkı hakimiyyətin satqın, qorxaq olması səbəbindən Şuşa işğal altına düşdü. Şuşanı müdafiə etmək üçün çox da böyük qüvvə lazım deyildi... ...Şuşanı, sonra Laçını, ondan sonra Kəlbəcəri qurban verdilər".

Bu xəyanət təkcə bir şəhərin itirilməsi ilə nəticələnmədi, bütöv bir xalqın qəlbinin yaralanmasına səbəb oldu, onların taleyində 28 illik böyük bir nisgilin təməlini qoydu. O vaxt Bakıda hakimiyyət davası döyənlər sıldırım qayalar üzərindəki alınmaz qala olan Şuşanı düşmən qarşısında müdafiəsiz qoyaraq tarixin qara səhifələrinə adlarını həkk etdirdilər. Ölkəmizin rəhbərinin vurğuladığı kimi, dövlət işində təcrübəsi olmayan, təsadüfi insanların rəhbərliyə gəlməsinin bədəlini şuşalılar onilliklərlə davam edən məcburi köçkünlük həyatı ilə ödəməli oldular.

Düz bir qərinə boyunca Şuşasız keçən hər günümüz qan yaddaşımıza vurulan dağ oldu. Lakin Azərbaycan xalqı bu işğalla heç vaxt barışmadı, Şuşanı azad edəcəyi andını bir an belə unutmadı.

12

**Azərbaycanın özü qədər əbədi**

## Heydər Əliyev ədəbiyyatın, mədəniyyətin hamisi idi



Hakimiyyətdə olduğu zaman kəsimlərində Heydər Əliyev Azərbaycanın mənəvi reallığı üçün böyük siyasətçi, dövlət adamı olaraq həm də ədəbiyyatlaşan obrazı ilə göz önünə gəlir. Bu obraz ədəbiyyat üçün konkret nəyi ifadə edir? İlk növbədə ədəbiyyata, poeziyaya sevgini. Onun çıxışlarında milli ədəbiyyatımızı gərəyincə bütöv duyub anlamaq səriştəsi vardı, prosesə yanaşma strategiyası düzgün idi, bəhs etdiyi mövzularda problemlərin dərkini səmtləndirə bilirdi. Və ən əsası, Azərbaycan ədəbiyyatı haqqında öz anlayışı, müşahidəsi, elmi qənaətləri olan bir şəxsin prosesə konseptual yanaşmadan hasilə gələn məntiqi ehtiva olunurdu. Heydər Əliyev ədəbiyyatın keçdiyi inkişaf qanunauyğunluğunu bilərək onun üzərində özünəxas konsepsiya qururdu. Bu çıxışlarda ədəbiyyatı həm tarixi inkişaf kontekstində, həm nəzəri prizmadan, həm də real nəticələrində dəyərləndirə, aparıcı ədəbi tendensiyalar işığına tuta bilirdi. Heydər Əliyev eyni zamanda ədəbiyyatda, poeziyada milli ahəng yaratmaqla bahəm ümumbəşəri dəyərləri bir müstəviyə gətirmək kimi siyasi prizmadan çıxış edirdi. Çünki bilirdi ki, dilindən, dinindən, irqindən, təmsil etdiyi ictimai qurumdan asılı olmayaraq, hamını bir yerə toplayan bir ünvan var: Ədəbiyyat!

7

## Xarici ekspertlər Avropanın enerji təchizatında Azərbaycanın artan rolunu etiraf və təqdir edirlər




Prezident İlham Əliyev Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə Avropa İttifaqının Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri, eyni zamanda ölkəmizin enerji təhlükəsizliyinin təmin olunması baxımından həmişə Avropa İttifaqının etibarlı tərəfdaşı olduğunu vurğuladı. Bu xüsusda dövlətimizin başçısı qeyd etdi ki, bu yaxınlarda Azərbaycan qazı Aİ-nin daha iki üzv ölkəsinə - Almaniyaya və Avstriyaya çatıb.

Azərbaycan qazının ixracına aid bu və digər sözlər istər yerli, istərsə də xarici ekspertlərin diqqət mərkəzindədir. Məsələn, alman politoloqu və beynəlxalq münasibətlər üzrə ekspert Klemens Fişer ölkəsi ilə Azərbaycan arasında enerji əməkdaşlığının qlobal enerji problemləri və dayanıqlı enerji mənbələrinə keçid fonunda xüsusi əhəmiyyət kəsb etdiyini deyib. Bildirib ki, Azərbaycan Avropa ölkələrinə neft və təbii qaz da daxil olmaqla enerji resurslarının əsas təchizatçıları sırasındadır. "Cənub qaz dəhlizi" vasitəsilə təchizatlar Avropanın enerji mənbələrinin şaxələndirilməsində mühüm rol oynayır.

13

## Azərbaycanla əlaqələrin inkişafı Avropa üçün strateji zərurətdir



Aİ rəsmilərinin ardıcıl səfərləri bir daha göstərir ki, Azərbaycanla münasibətlərin inkişafı Avropa üçün strateji zərurətə çevrilib. Bu səfərlər həm siyasi dialoqun genişlənməsi, həm iqtisadi əlaqələrin dərinləşməsi, həm də regionda sülh və təhlükəsizlik məsələlərində Azərbaycanın rolunun daha yaxından qiymətləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

12

## Azərbaycandan tranzit keçməklə Rusiyadan Ermənistana növbəti yüklər göndərilib

Dünən Biləcəri stansiyasından Böyük Kəsik istiqamətinə 10 vaqondan ibarət, ümumi çəkisi 700 ton olan taxıl yükləri yola salınıb. Həm də 2 vaqondan ibarət, ümumi çəkisi 133 ton olan alüminium məhsulları da tranzit qaydasında daşınır. Alüminium yükləri bu marşrut üzrə ilk dəfə göndərilir.



2

## Fransa yanlış siyasətindən əl çəkmir



Fransa diplomatiyasının tarixinə nəzər saldıqda, dövlət maraqlarını emosiyalardan üstün tutan və rasional qərarlar verən rəhbərlərin olduğunu görmək mümkündür. Ən azından əvvəlki prezidentlər dönəmində Paris müəyyən diplomatik etika çərçivəsində neytrallıq imitasiyası yarada bilirdi. Makronun dövründə isə bu pərdə tamamilə götürüldü. Bu yanlış siyasət təkcə Azərbaycanla münasibətləri gərginləşdirmədi, həm də Fransanın bütövlükdə Cənubi Qafqazda, ümumiyyətlə, beynəlxalq aləmdə etibarını itirməsinə səbəb oldu. Özünü "tərəfsiz" kimi təqdim edən bir dövlətin bu dərəcədə qərəzli və düşmən mövqe sərgiləməsi Fransanın qlobal oyunçu missiyasını da kölgə altına aldı.

11

## Hayların halına ağlayan gərək

### Revanşistlər erməni xalqını yenidən keçmişə sürükləmək istəyirlər

Revanşistlərin önündə gedən Ermənistanın keçmiş prezidentləri Robert Koçaryan və Serj Sarkisyandır. Cütlük adlandırılan bu revanşistlər "Qarabağ klanı" pərdəsi altında yenidən hakimiyyətə qayıtmaq və işğalçılıq ideyalarını canlandırmaq məqsədilə fəaliyyətlərini genişləndirməyə, seçicilərin səs çoxluğunu qazanmağa çalışırlar. Amma müşahidəçilərin rəylərinə görə, onların seçkilərdə qalib gəlmək şansları xeyli aşağıdır. Çünki əhalinin əksəriyyət hissəsi Ermənistana dinclik, əmin-amanlıq gətirməyə çalışan Paşinyanın partiyasına səs verməyə hazırlaşır. Bu səbəbdən Nikol Paşinyanla sabiq prezidentlər arasında qarşıdurma yeni fazaya daxil olub.



11

# Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 16-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Əmək Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 213 (Cild I); 2024, № 1, maddə 6, № 4, maddə 365, № 7, maddə 744, № 8, maddə 934; 2025,№ 1, maddələr 1, 16, № 2, maddə 96, № 4 (I kitab), maddə 322, № 7, maddələr 606, 608; 2026, № 1, maddələr 8, 16,№ 2, maddə 110; Azərbaycan Respublikasının 2026-cı il 27 fevral tarixli 367-VIIQD nömrəli və 3 mart tarixli 376-VIIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 12-ci maddənin "g" bəndinə "yaratmaq," sözündən sonra "eyni və ya bərabər dəyərli müxtəlif işi yerinə yetirən işçilərə bərabər əməkhaqqının verilməsini təmin etmək," sözləri əlavə edilsin;

1.2. 154-cü maddəyə aşağıdakı məzmunda 3-cü hissə əlavə edilsin:

"3. İşəgötürən cinsindən asılı olmayaraq eyni və ya bərabər dəyərli müxtəlif işi yerinə yetirən işçilərə bərabər əməkhaqqı ödəməyə borcludur. İşin bərabər dəyərli olması əmək şəraiti, əmək funksiyasının xarakteri və qüvvədə olan vahid tarif-ixtisas sorğu kitabçalarında nəzərdə tutulmuş tarif-ixtisas xüsusiyyətləri nəzərə alınmaqla işəgötürən tərəfindən müəyyən edilir.".

**Maddə 2.** "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 11, maddə 920 (Cild I); 2025, № 1, maddə 17; 2026, № 1, maddə 16) 9-cu maddəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. 9.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

"9.1. İşəgötürən tərəfindən cinsindən asılı olmayaraq eyni və ya bərabər dəyərli müxtəlif işi yerinə yetirən işçilərə əməkhaqqı bərabər ödənilməlidir. İşin bərabər dəyərli olması Azərbaycan Respublikası Əmək Məcəlləsinin tələblərinə uyğun olaraq əmək şəraiti, əmək funksiyasının xarakteri və qüvvədə olan vahid tarif-ixtisas sorğu kitabçalarında nəzərdə tutulmuş tarif-ixtisas xüsusiyyətləri nəzərə alınmaqla işəgötürən tərəfindən müəyyən edilir.";

2.2. 9.2-ci maddədən ", mükafatlar və işçini həvəsləndirmək məqsədilə ödənilən digər maddi ödənişlər" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2026-cı il*

# "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin yenidən təşkili və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərman və sərəncamlarında dəyişiklik edilməsi, bəzi sərəncamlarının ləğv edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ictimai nəqliyyat sahəsində idarəetmənin təkmilləşdirilməsi, xidmətlərin qarşılıqlı inteqrasiyasının və fəaliyyətin əlaqələndirilməsinin gücləndirilməsi, habelə əhalinin şəhərdaxili hərəkətinin (mobilliyinin) daha keyfiyyətli təşkiledilməsi məqsədilə **qərara alıram:**

1. "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti (bundan sonra - Cəmiyyət) "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyətinin və "Bakı Taksi Xidməti" Məhdud Məsuliyyətli Cəmiyyətinin ona qoşulması formasında yenidən təşkil edilsin.

2. Müəyyən edilsin ki:

2.1. Cəmiyyət ictimai nəqliyyat sahəsində (metro, avtobus, tramvay, taksi) sərnişindaşıma üzrə xidmətlər göstərilməsini, onların keyfiyyətinin və təhlükəsizliyinin yüksəldilməsini, həmin xidmətlərin təşkili və gedişhaqqının ödənilməsi üzrə innovativ və rəqəmsal həllərin tətbiqini, habelə bu sahədə yeni nəqliyyat infrastrukturu obyektlərinin (metro, tramvay, avtomobil nəqliyyatı üzrə avtovağzalların (avtostansiyaların), terminalların və digər qurğuların, eləcə də taksi və avtobuslara texniki xidmət göstərən texniki-təmir sahələrinin və stansiyalarının) layihələndirilməsini və tikintisini, maddi-texniki bazanın gücləndirilməsini və müasirləşdirilməsini, həmçinin müxtəlif nəqliyyat növləri (metro, avtobus, tramvay, taksi) üzrə xidmətlərin qarşılıqlı inteqrasiyasını, vahid mərkəzdən idarə olunmasını və əlaqələndirilməsini təmin edən kommersiya hüquqi şəxsidir;

2.2. Cəmiyyət "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyətinin və "Bakı Taksi Xidməti" Məhdud Məsuliyyətli Cəmiyyətinin hüquqi varisidir, onların bütün hüquqları və öhdəlikləri, habelə əmlakı Cəmiyyətə keçir;

2.3. Cəmiyyətin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün sədr də daxil olmaqla 5 (beş) üzvdən ibarət Müşahidə Şurası yaradılır;

2.4. Cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi 5 (beş) üzvdən -sədr və onun 4 (dörd) müavinindən ibarət İdarə Heyəti həyata keçirir.

3. Cəmiyyətin ümumi yığıncağının səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

3.1. Azərbaycan Respublikasının Prezidentinə:

3.1.1.Cəmiyyətin yenidən təşkili və ləğvi;

3.1.2.Cəmiyyətin icra orqanının yaradılması;

3.1.3. Cəmiyyətin İdarə Heyəti üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

3.2. Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinə (AZCON-a):

3.2.1.Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar istisna olmaqla Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq ali idarəetmə orqanının müstəsna səlahiyyətinə aid edilmiş digər məsələlərin Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həyata keçirilməsi;

3.2.2. bu Fərmanın 3.1-ci bəndində və 3.2.1-ci yarımbəndində qeyd edilənlər istisna olmaqla, Azərbaycan Respublikasının normativ hüquqi aktları, eləcə də Cəmiyyətin nizamnaməsi ilə ümumi yığıncağa həvalə edilən digər səlahiyyətlərin həyata keçirilməsi.

4. Cəmiyyətin Müşahidə Şurası aşağıdakı səlahiyyətləri həyata keçirir:

4.1. Cəmiyyətin inkişaf strategiyasına və onun icrası ilə bağlı tədbirlər planına, habelə əsas səmərəlilik göstəricilərinin müəyyən edilməsinə və biznes planına dair Ümumi Yığıncağa təkliflər vermək;

4.2. Cəmiyyətin gəlirlər və xərclər smetalarını, o cümlədən büdcə proqnozlarını təsdiq edilməsi üçün Ümumi Yığıncağa təqdim etmək və icrasını təmin etmək;

4.3. Cəmiyyətin xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin),eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılmasına dair Ümumi Yığıncağa təkliflər vermək;

4.4. fəaliyyətinin səmərəliliyini artırmaq üçün etika, strateji planlaşdırma, risklərin idarə edilməsi və s. üzrə yardımçı komitələr yaratmaq və öz səlahiyyətlərinin bir hissəsini onlara həvalə etmək;

4.5. Ümumi Yığıncaqla razılaşdırmaqla Cəmiyyətin maliyyə planlaşdırılmasını təsdiq etmək və icrasını təmin etmək;

4.6. Ümumi Yığıncaqla razılaşdırmaqla Cəmiyyətin idarə, filial və nümayəndəliklərinin əsasnamələrini, habelə təsisçisi (iştirakçısı) olduğu hüquqi şəxslərin nizamnamələrini təsdiq etmək;

4.7. Cəmiyyətin idarə, filial və nümayəndəliklərinin, habelə Cəmiyyət tərəfindən hüquqi şəxslərin yaradılması, eləcə də onların idarəetmə orqanlarının üzvlərinin (rəhbərlərinin) vəzifəyə təyin və vəzifədən azad edilməsi ilə bağlı Ümumi Yığıncağa təkliflər vermək;

4.8. Ümumi Yığıncağın razılığı ilə Cəmiyyətin, onun idarə, filial və nümayəndəliklərinin, habelə təsisçisi (iştirakçısı) olduğu hüquqi şəxslərin strukturunu, işçilərinin say həddini, əməkhaqqı sistemini və əməyin ödənişi fondunu, ştat cədvəlini təsdiq etmək;

4.9. Cəmiyyətin mənfəətinin və zərərinin bölüşdürülməsi ilə bağlı sənədləri, həmçinin illik hesabatları və maliyyə hesabatlarını təsdiq edilməsi üçün Ümumi Yığıncağa təqdim etmək;

4.10. Cəmiyyətin daxili audit bölməsini təşkil etmək və onun əsasnaməsini Ümumi Yığıncaqla razılaşdırmaqla təsdiq etmək, əməkdaşlarını vəzifəyə təyin və vəzifədən azad etmək;

4.11. bu Fərmanın 3-cü hissəsi nəzərə alınmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Azərbaycan Respublikasının bu sahədə münasibətləri tənzimləyən digər normativ hüquqi aktları və Cəmiyyətin nizamnaməsi ilə Müşahidə Şurasının səlahiyyətlərinə aid edilmiş digər məsələləri həll etmək.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

6. Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON):

6.1. Cəmiyyətin yeni nizamnaməsini və strukturunu üç ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

6.2. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

7. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 7 noyabr tarixli 226 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 11, maddə 1196; 2025, № 8, maddə 749) ilə təsdiq edilmiş "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxsin idarəetməsinə veriləcək dövlət müəssisələrinin, habelə dövlət payı olan təsərrüfat cəmiyyətlərinin və publik hüquqi şəxslərin siyahısı"nın 6-cı hissəsi və 8.5-ci bəndi ləğv edilsin.

8. "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 27 fevral tarixli 289 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 177 (Cild I) 3-cü və 4-cü hissələri ləğv edilsin.

9. "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyətinin idarə edilməsinin təkmilləşdirilməsinə dair tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 mart tarixli 2550 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 3, maddə 255 (Cild I); 2024, № 2, maddə 172) 1-ci və 2-ci hissələri ləğv edilsin.

10. "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 mart tarixli 2553 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 3, maddə 258 (Cild I); 2024, № 7, maddə 880) ləğv edilsin.

11. "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 mart tarixli 2554 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 3, maddə 259 (Cild I) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 may 2026-cı il*

# Azərbaycan mədəniyyət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Abbasov Adil Möhsün oğlu
Bağırova Sənubər Yusufovna
Həkimova Svetlana Calal qızı
Hüseynov Rövşən Maqsud oğlu
Mehdiyev Cahangir Yaqub oğlu
Məlik-Aslanov Ramiz Lütfəli oğlu
Məmmədov Alim Tahir oğlu
Məmmədova Rimma Şahbabayevna
Mustafayev Mustafa Şura oğlu
Nəsirova Hicran Fətəli qızı
Rəhimova Adilə Teymurovna.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 may 2026-cı il*

# İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "İncəsənət xadimləri üçün Azərbaycan Respublikası Prezidentinin mükafatlarının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 28 may tarixli 707 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Səhnə fəaliyyəti ilə bağlı aşağıdakı aparıcı incəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatları verilsin:

Abbasova Mətanət Nizami qızı
Abbasova-Budaqova Afaq Nurəhməd qızı
Abdullayev Mətləb Fətəli oğlu
Abdullayeva Xurşid Lütfəli qızı
Abdurahmanov Yusif Fikrət oğlu
Adıgözəlov Yalçın Vasif oğlu
Ağaverdiyeva Məsməxanım Aslan qızı
Axundov Əbülfəz Dadaş oğlu
Allahverdiyeva Naibə Siyavuş qızı
Aşurov Mustafa Əhməd oğlu
Atakişiyeva Mətanət Ağazair qızı
Babayeva İnarə Əhməd qızı
Bayramov Təyyar Allahverdi oğlu
Behbudov Əşrəf Məhərrəm oğlu
Canbaxşiyev Səməd Canbağış oğlu
Cəbrayılov Elşən Şahin oğlu
Cəfərov Rasim Valeh oğlu
Cəfərov Samir Qadir oğlu
Cəfərzadə Fatimə Üzeyir qızı
Dubovitskaya Mariya Aleksandrovna
Eres Mətanət İslam qızı
Eyvazova Ayan Fuad qızı
Əfəndi Elçin Fərahim oğlu
Əhmədov Çingiz Əli Əşrəf oğlu
Əhmədov Elşad Eldar oğlu
Əhmədov İbrahim Çingiz oğlu
Əhmədov İlyas Əhməd oğlu
Əkbərov Mir Qabil Qafil oğlu
Əliyev Abdulqəni Zəhmət oğlu
Əliyev Fərid Fərhad oğlu
Əliyeva Arzu Qurban qızı
Əliyeva Münəvvər Sabir qızı
Əliyeva Ülviyyə Fərhad qızı
Əlizadə Əkbər Müzəffər oğlu
Əlizadə Əli Oqtay oğlu
Əlizadə Şəhla Seidşah qızı
Əmiraslanlı Rəvanə Bahadur qızı
Əsədov İlham Əsəd oğlu
Əsədova Məleykə Əlifağa qızı
Əsgərov Əsgər Əkbər oğlu
Əskərov Emil Firuzəddin oğlu
Əzizov Əzizağa Ağayar oğlu
Ferştandt Anton Sergeyeviç
Fətullayev Aslan Miri oğlu
Gözəlova Maytab Valeh qızı
Hacıbabayev Elşən Atababa oğlu
Hacıyev Əli Yusif oğlu
Hacıyev Fuad Əhəd oğlu
Hacıyev Hacı Şamil oğlu
Hacıyev İlqar Xəlil oğlu
Hacıyev Vüqar Aydın oğlu
Hacıyeva Fidan Hacıağa qızı
Hacıyeva Sevil İnşalla qızı
Heybətov Anar Mithət oğlu
Heydərova Elnarə Rafiq qızı
Həsənquliyev Kazım Feyruz oğlu
Həsənov Kərim Abbas oğlu
Həsənov Nicat Yusif oğlu
Həsənov Zaman Hüseyn oğlu
Hüseynli Anar Vaqif oğlu
Hüseynli Rauf Eyyub oğlu
Hüseynov Fizuli İsmət oğlu
Hüseynov Şövqi Ərəstun oğlu
Hüseynova Fəridə Malik qızı
Hüseynova Kəmalə Müzəffər qızı
Xanəhmədov Səməd Budaq oğlu
Xanlarov Habil Tehran oğlu
Xəlilov Səbuhi Ağababa oğlu
Xəlilzadə Rüfət Eldar oğlu
İbrahimov Cavid Zəfər oğlu
İbrahimov Fuad Natiq oğlu
İbrahimova Nigar Rəfael qızı
İbrahimova Şəhla İbrahim qızı
İsmayılov Vilayət Hidayət oğlu
Kazımov Nicat Mirəziz oğlu
Kərimduxt Rövşən Ramazan oğlu
Kərimova Nərgiz Faiq qızı
Klimaşeva Bella Vladislavovna
Kuxmazova Yulizana Şəfiyevna
Qarayev Elnar Cəfər oğlu
Qədiyev Seymur Ağaddin oğlu
Qəhrəmanov Abbas Əhməd oğlu
Qəribova Nargilə Dursun qızı
Qubadov Ceyhun Şahbala oğlu
Qulamov Samir Ceyhun oğlu
Quliyev Cəmil Elşad oğlu
Quliyev Əyyub Ramiz oğlu
Quliyev Hafiz Məhərrəm oğlu
Quliyev Kamran Yusif oğlu
Quliyeva Şəlalə Şahvələt qızı
Qurbanova Gülzar Qurban qızı
Qurbanova Pərvanə Yaqub qızı
Mansurov Elxan Bəhram oğlu
Mansurova Səriyyə Mansur qızı
Mehdiyev İlkin İsgəndər oğlu
Mehdiyeva İrina Yurmiz qızı
Mehdiyeva Şarud Mehdi qızı
Məhərrəmov Firudin Əliməmməd oğlu
Məmmədov Anar Vaqif oğlu
Məmmədov Asim Fərman oğlu
Məmmədov Ayşad Kamal oğlu
Məmmədov Emil Əfrasiyab oğlu
Məmmədov Məmməd Əvəz oğlu
Məmmədov Murad Məmməd oğlu
Məmmədova Dinara Bəxtiyar qızı
Məmmədova Lalə Mirzəli qızı
Mikayılov Anar Şamil oğlu
Mikayılov Mikayıl Şamil oğlu
Miltıx Aleksey Leonidoviç
Mir-Qasım Ayan Oqtay qızı
Mirzəyev Gülağası Ağa Hüseynoviç
Mirzəzadə Nicat Qərib oğlu
Musabəyli Nuridə Musa qızı
Mustafayev Arzu Əhməd oğlu
Nəbiyev Cəbrayıl Fərrux oğlu
Novruzov Əfsər Dilavər oğlu
Nuriyeva Sədaqət Məmmədağa qızı
Orucova Almaz Ədil qızı
Orucova Naidə Mülük qızı
Orucova Sevda Nəbi qızı
Osmanov Fuad Tacəddin oğlu
Osmanova Ayla Bəhram qızı
Ömərov Gümrah Rza oğlu
Poladov Əkram Nicad oğlu
Rəcəbli Məmməd Qüdrət oğlu
Rəcəbli Vidadi Həsən oğlu
Rəhimov Teymur Əsgər oğlu
Rüstəmov Elşən Mərdan oğlu
Rzayev Ramin Sultan oğlu
Rzayeva Sevinc Əziz ağa qızı
Rzayeva Vəfa Əliseyran qızı
Salahov Əbülfət Yusif oğlu
Salamov İqrar Zakir oğlu
Seyidova Ceyla Uran qızı
Səfərova Kəmalə Mazanovna
Səlimli Mirbala Seyidəsgər oğlu
Səlimov Ruslan Xanbala oğlu
Səmədov Şükür Hacıbala oğlu
Səttərova Günay Nazim qızı
Süleymanova Ulduz İbrahim qızı
Şioşvili Leri Qiorqiyeviç
Şirinov Aslan Adil oğlu
Vəliyev Ramiz Hidayət oğlu
Vəliyeva Ləman Vəli qızı
Yahyayev Taleh Saleh oğlu
Yəhyayev Elgün Hafiz oğlu
Yusifova Təranə Əbülfəz qızı
Zeynalov Azər Zeynalabdın oğlu
Zeynalov Cümşüd Nəriman oğlu
Zəki Mehriban Mürvət qızı.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. "İncəsənət xadimlərinə Azərbaycan Respublikası Prezidentinin mükafatlarının verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 8 may tarixli 589 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 5, maddə 475) 1-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 may 2026-cı il*

# Azərbaycan və Finlandiya XİN-ləri arasında siyasi məsləhətləşmələrin növbəti raundu keçirilib

Bakı şəhərində Azərbaycan Respublikası və Finlandiya Respublikası Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti raundu keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, Azərbaycan nümayəndə heyətinə xarici işlər nazirinin müavini Fariz Rzayev, Finlandiya nümayəndə heyətinə isə bu ölkənin Xarici İşlər Nazirliyinin Avro-Atlantik departamentinin baş direktoru Sari Rautio rəhbərlik ediblər.

Məsləhətləşmələr zamanı iki ölkə arasında siyasi sahədə əlaqələr müzakirə olunub, davamlı dialoqun saxlanılması üçün qarşılıqlı səfərlərin və beynəlxalq tədbirlər çərçivəsində görüşlərin əhəmiyyəti vurğulanıb.

Daha sonra iqtisadi, humanitar və təhsil sahələrində, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf perspektivləri, ölkəmizin təşəbbüsü və iştirakı ilə həyata keçirilən strateji enerji və nəqliyyat layihələri ilə bağlı müzakirələr aparılıb.

Görüşlərdə regionda mövcud vəziyyət, Azərbaycan-Ermənistan normallaşma prosesi, işğaldan azad edilən ərazilərimizdə aparılan genişmiqyaslı bərpa, yenidənqurma və minatəmizləmə işləri barədə ətraflı məlumat verilib.

Bununla yanaşı, qarşılıqlı maraq kəsb edən digər regional və beynəlxalq mövzular ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycandan tranzit keçməklə Rusiyadan Ermənistana növbəti yüklər göndərilib

AZƏRTAC xəbər verir ki, dünən Biləcəri stansiyasından Böyük Kəsik istiqamətinə 10 vaqondan ibarət, ümumi çəkisi 700 ton olan taxıl yükləri yola salınıb. Həm də 2 vaqondan ibarət, ümumi çəkisi 133 ton olan alüminium məhsulları da tranzit qaydasında daşınır. Alüminium yükləri bu marşrut üzrə ilk dəfə göndərilir.



Qeyd edək ki, indiyədək Rusiyadan Ermənistana Azərbaycan ərazisi vasitəsilə tranzit olaraq 26 min tondan çox taxıl, 3 min 800 tondan artıq gübrə və 68 ton qarabaşaq daşınıb. Bu göstəricilər regionda nəqliyyat-logistika imkanlarının genişlənməsini və tranzit marşrutlarının səmərəli fəaliyyətini nümayiş etdirir. Bununla yanaşı, Azərbaycandan Ermənistana neft məhsullarının ixracı da davam etdirilir. İndiyədək Ermənistana 8 min 500 tondan çox dizel yanacağı, 979 ton Aİ-92 markalı benzin və 2 min 955 ton Aİ-95 markalı benzin ixrac olunub.

# Parlament diplomatiyası

## Milli Məclisin Sədri Sahibə Qafarova Monteneqroya işgüzar səfərə gedib



Milli Məclisin Sədri Sahibə Qafarova Aralıq Dənizi Parlament Assambleyasının Parlament Sədrlərinin 1-ci Sammitində iştirak etmək üçün Monteneqroya işgüzar səfərə gedib.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Tivat Beynəlxalq Hava Limanında spiker Sahibə Qafarovanı Azərbaycanın Monteneqrodakı səfiri Kamil Xasiyev və digər rəsmi şəxslər qarşılayıblar.

*"Azərbaycan"*

## Milli Məclisin Sədri Sahibə Qafarova Monteneqro parlamentinin Sədri ilə görüşüb



Milli Məclisin Sədri Sahibə Qafarova Aralıq Dənizi Parlament Assambleyasına üzv və tərəfdaş ölkələrin Parlament Sədrlərinin 1-ci Sammiti çərçivəsində Monteneqro parlamentinin Sədri Andrija Mandiç ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, spiker Sahibə Qafarova Parlament Assambleyasının parlamentlərarası əməkdaşlığın inkişaf etdirilməsi baxımından mühüm platforma olduğunu və 1-ci sammitin dost ölkə Monteneqroda uğurla təşkil edildiyini bildirib.

Tərəflər Azərbaycan-Monteneqro münasibətlərinin inkişafında qarşılıqlı səfərlərin, siyasi dialoqun və parlamentlərarası təmasların mühüm rolundan danışaraq, əməkdaşlığın həm ikitərəfli əsasda, həm də beynəlxalq təşkilatlar çərçivəsində bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə ediblər.

Görüş zamanı Milli Məclisin Sədri Azərbaycan-Ermənistan sülh prosesi barədə də qarşı tərəfi məlumatlandırıb. Öz növbəsində, Monteneqro tərəfi regionda sülhün bərqərar olunmasını hər iki ölkə üçün siyasi qələbə kimi qiymətləndirdiklərini və bu prosesi dəstəklədiklərini bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

## Azərbaycan Milli Məclisi parlament platformaları çərçivəsində əməkdaşlığa xüsusi önəm verir

### Milli Məclisin Sədri Sahibə Qafarova Aralıq Dənizi Parlament Assambleyasına üzv və tərəfdaş ölkələrin parlament sədrlərinin 1-ci Sammitində çıxış edib

Mayın 7-də Aralıq Dənizi Parlament Assambleyasına üzv və tərəfdaş ölkələrin parlament sədrlərinin 1-ci Sammiti keçirilib. Milli Məclisin Sədri Sahibə Qafarova sammitdə iştirak edib.






Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycan parlamentinin spikeri Sahibə Qafarova sammitdə çıxış edərək bildirib ki, son 20 il ərzində Aralıq Dənizi Parlament Assambleyası parlamentlərarası əməkdaşlığın inkişaf etdirilməsi, strateji əhəmiyyətə malik regionda dialoqun, qarşılıqlı anlaşmanın, sülh və sabitlik naminə ortaq məsuliyyətin təşviqi baxımından mühüm platforma kimi özünü təsdiq edib.

Azərbaycanın coğrafi baxımdan Aralıq dənizi regionunun bir hissəsi olmasa da, Aralıq dənizi hövzəsi və Körfəz ölkələri ilə uzunmüddətli əlaqələrə və konstruktiv münasibətlərə malik olduğunu bildirən Milli Məclisin Sədri deyib ki, Azərbaycan enerji marşrutlarının və təchizatının şaxələndirilməsi vasitəsilə regional və beynəlxalq enerji təhlükəsizliyinə töhfə verir. Bununla yanaşı, qeyd olunub ki, ölkəmiz Şərqlə Qərb arasında nəqliyyat bağlantılarının inkişafında, xüsusilə Orta dəhliz çərçivəsində fəal rol oynayır. Bu səylər əməkdaşlığın gücləndirilməsinə və ortaq iqtisadi dayanıqlılığın təşviqinə töhfə verir.

Spiker Sahibə Qafarova, parlamentlərin beynəlxalq münasibətlərdə getdikcə daha mühüm rol oynadığını və parlament diplomatiyasının dialoqun təşviq edilməsi, şəffaflığın artırılması və dövlətlər arasında etimadın möhkəmləndirilməsi vasitəsilə ənənəvi diplomatik kanalları tamamladığını söyləyib. Milli Məclisin Sədri parlament diplomatiyasının etibarlı, inklüziv olmasının və beynəlxalq hüquqa, demokratik prinsiplərə, eləcə də qarşılıqlı anlaşmaya əsaslanmasının vacibliyini vurğulayıb. O deyib ki, parlament diplomatiyası fikir ayrılıqlarının olduğu hallarda belə konstruktiv əməkdaşlıq üçün platforma təqdim etməlidir. Azərbaycan Milli Məclisi bu yanaşmanı dəstəkləyir və çoxtərəfli parlament platformaları çərçivəsində əməkdaşlığa xüsusi önəm verir. Bu kontekstdə assambleyanın həm Azərbaycanın, həm də Ermənistanın parlamentlərinə müşahidəçi statusu verməsi qərarını müsbət qiymətləndirən spiker Sahibə Qafarova deyib ki, bu ölkələr, Prezident İlham Əliyevin bildirdiyi kimi, onilliklərlə davam edən münaqişədən sonra sülh şəraitində yaşamağı öyrənirlər. Bu addım sülh və normallaşma istiqamətində davam edən səylərə uyğun olaraq iki ölkə



arasında dialoqun və etimad quruculuğunun inkişafına töhfə verə bilər. Parlamentlərimizin də iki xalq arasında etimadın qurulması istiqamətində çalışdığını söyləyən Sahibə Qafarova qeyd edib ki, Aralıq Dənizi Parlament Assambleyası konstruktiv əməkdaşlıq üçün daha bir mühüm platformaya çevrilə bilər. Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycanın beynəlxalq parlament fəaliyyətlərində fəal iştirak etdiyini xatırladaraq deyib ki, ölkəmiz parlamentlərarası əməkdaşlığı ortaq çağırışların həlli üçün mühüm vasitə hesab edir. Spiker xatırladıb ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış və hazırda Milli Məclisin sədrlik etdiyi Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi də ölkəmizin qlobal səviyyədə parlament əməkdaşlığının gücləndirilməsinə sadiqliyini əks etdirir. Bu baxımdan, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi ilə Aralıq Dənizi Parlament Assambleyası arasında Anlaşma Memorandumunun imzalanmasının əhəmiyyəti qeyd olunub. Bildirilib ki, bu mühüm addım parlament diplomatiyasının beynəlxalq əməkdaşlığın vacib sütunu kimi gücləndirilməsinə dair ortaq öhdəliyimizi əks etdirir və bu çərçivə daha institusional qarşılıqlı fəaliyyəti və parlamentlərarası əlaqələrin daha da genişlənməsini təşviq edəcək.

Çıxışının sonunda spiker Sahibə Qafarova bir daha diqqətə çatdırıb ki, səmərəli parlament diplomatiyası davamlı öhdəlik və əlaqələndirilmiş fəaliyyət tələb edir. Parlamentlərimiz arasında əməkdaşlığın gücləndirilməsi sülhə, sabitliyə və davamlı inkişafa xidmət edəcək.

*"Azərbaycan"*

## Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi ilə Aralıq Dənizi Parlament Assambleyası arasında Anlaşma Memorandumu imzalanıb




Milli Məclisin Sədri Sahibə Qafarovanın Monteneqroya işgüzar səfəri çərçivəsində Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi ilə Aralıq Dənizi Parlament Assambleyası arasında Anlaşma Memorandumu imzalanıb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, memorandumu Milli Məclisin və Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin Sədri Sahibə Qafarova və Aralıq Dənizi Parlament Assambleyasının prezidenti Culio Çentemero imzalayıblar.

Qeyd olunub ki, bu sənəd tərəflər arasında daha geniş əməkdaşlıq əlaqələrinin qurulmasına xidmət edəcəkdir.

*"Azərbaycan"*

## Azərbaycan Respublikasının Milli Məclisinə Aralıq Dənizi Parlament Assambleyasında müşahidəçi statusu verilib







Azərbaycan Respublikasının Milli Məclisinə Aralıq Dənizi Parlament Assambleyasında müşahidəçi statusu verilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, bununla bağlı Aralıq Dənizi Parlament Assambleyasının üzv və tərəfdaş olan parlamentlərin sədrlərinin mayın 7-də keçirilən 1-ci sammiti çərçivəsində mərasim təşkil olunub.

Sammitdə çıxış edən spiker Sahibə Qafarova Milli Məclisə təşkilatda müşahidəçi statusunun verilməsi ilə bağlı qərara görə təşəkkür edib və onu yüksək qiymətləndirib. O deyib ki, assambleyada iştirak üzv parlamentlərlə əlaqələrin daha da gücləndirilməsi və inkişaf etdirilməsi üçün yeni geniş imkanlar yaradır.

*"Azərbaycan"*

# WUF13-ün təşkili ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin iclası keçirilib

Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasının (WUF13) təşkili ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin mayın 7-də iclası keçirilib.




AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev iclası açaraq, WUF13-ün başlanmasına az vaxt qaldığını və mayın 17-dən 22-dək Bakı şəhərinin dünyanın şəhərsalma və dayanıqlı inkişaf gündəliyi üzrə ən mötəbər beynəlxalq platformalarından birinə evsahibliyi edəcəyini diqqətə çatdırıb.

Təşkilat Komitəsinin sədri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə qlobal miqyaslı tədbirlərin ölkəmizdə keçirilməsinin artıq ənənə halını aldığını bildirib. Samir Nuriyev WUF13-ün Azərbaycanın müasir şəhərsalma baxışının, dayanıqlı inkişaf gündəliyinə verdiyi töhfələrin, həmçinin işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq modelinin beynəlxalq miqyasda təqdimatı baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

Cari 2026-cı ilin ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan edilməsinin WUF13-ün əhəmiyyətini daha da artırdığı qeyd olunub. Belə ki, forumun bu çərçivədə il ərzində həyata keçirilən tədbirlərin məntiqi davamı və əsas beynəlxalq mərhələsi kimi çıxış etdiyi diqqətə çatdırılıb.

Samir Nuriyev forumda iştirak üçün bu günədək 177 ölkədən 28 mindən çox şəxsin qeydiyyatdan keçdiyini, onların təxminən yarısını xarici nümayəndələr təşkil etdiyini bildirərək, bunun WUF13-ə beynəlxalq marağın yüksək göstəricisi olduğunu qeyd edib.

Təşkilat Komitəsinin sədri Azərbaycanın təşəbbüsü ilə WUF tarixində ilk dəfə keçiriləcək Liderlərin Bəyanatları seqmentinin forumun siyasi və substantiv baxımdan əsas yeniliklərindən biri olduğunu, bu toplantının şəhərsalma və dayanıqlı məskunlaşma məsələlərini ali səviyyəli qlobal müzakirə predmetinə çevirəcəyini diqqətə çatdırıb. Liderlər seqmentinə, həmçinin Azərbaycanın sədrliyi ilə keçiriləcək WUF13 Nazirlər Görüşünə, Azərbaycan tərəfindən təşkil olunacaq Xüsusi Sessiyaya, Azərbaycan pavilyonunda nəzərdə tutulan tədbirlərə və işğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa-quruculuq işlərinin təqdimatına hazırlığın xüsusi diqqətdə saxlanılmasının vacibliyi vurğulanıb.

Daha sonra ümumi hazırlıq prosesinin gedişatı, substantiv, kommunikasiya, protokol, nəqliyyat və təşkilati-logistika sahələrində görülmüş işlər, habelə gündəlikdə duran digər məsələlər üzrə Təşkilat Komitəsinin üzvlərinin məruzələri dinlənilib. İclasın sonunda Təşkilat Komitəsinin sədri Azərbaycan Respublikası Prezidentinin bu mötəbər tədbirin yüksək səviyyədə təşkili və keçirilməsi ilə bağlı qarşıya qoyduğu vəzifələrə uyğun olaraq, WUF13-ün Azərbaycanın beynəlxalq tədbirlərə evsahibliyi sahəsində formalaşmış müsbət təcrübəsinin növbəti uğurlu nümunəsinə çevriləcəyinə əminliyini bildirib.

Samir Nuriyev WUF13-ə hazırlıq prosesinin yekun mərhələsində aidiyyəti qurumlar tərəfindən müvafiq məsələlərin operativ və uzlaşdırılmış qaydada həll edilməsi, həmçinin bütün istiqamətlər üzrə işlərin daha da intensivləşdirilməsi və başa çatdırılması barədə tapşırıqlar verib.

# ADA Universitetində tələbələrin sosial məsuliyyət və sənaye əməkdaşlığı layihələri mükafatlandırılıb

ADA Universitetində tələbələrin sosial məsuliyyət təşəbbüslərini, sənaye ilə birgə tətbiqi layihələrini və dərsdənkənar fəaliyyətlərini dəyərləndirən illik mükafatlandırma tədbiri keçirilib.







Bu barədə AZƏRTAC-a universitetdən məlumat verilib.

Tələbələrdə məsuliyyətli vətəndaşlıq hissini formalaşdıran Hacı Zeynalabdin Tağıyev Mükafatı universitetin təməl dəyərlərini özündə əks etdirir və tələbələrin sosialyönümlü təşəbbüslərini dəstəkləyir. Layihələr cəmiyyətin müxtəlif təbəqələrinə yönələrək, xüsusilə təhsilin əlçatanlığının artırılması, maliyyə savadlılığının təşviqi, autizm spektrli uşaqlarla iş və əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiyasının dəstəklənməsi kimi sahələri əhatə edir.

Cari ildə yüzdən çox ADA tələbəsi təkcə paytaxt Bakıda deyil, həmçinin ölkənin müxtəlif regionlarındakı məktəblərdə, uşaq evlərində və ictimai məkanlarda innovativ layihələr icra ediblər. Tədbirdə böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin nəslinin davamçılarının iştirak etməsi tədbirə xüsusi rəmzi məna qatıb.

Eyni zamanda universitetin nəzdində fəaliyyət göstərən 43 tələbə klubu arasından fəallığı ilə seçilən on klub xüsusi olaraq elan edilib.

ADA Universitetinin rektoru səfir Hafiz Paşayev tədbirdəki çıxışında gənclərin tədrislə yanaşı, cəmiyyətin real məsələləri ilə yaxından maraqlanmasının vacibliyini qeyd edib. Rektor vurğulayıb ki, tələbələrin hələ gənc yaşlarından Hacı Zeynalabdin Tağıyev ənənələrini yaşatması və öz sosial təşəbbüsləri ilə ölkəmizə fayda verməyə çalışması olduqca qürurvericidir. Bu cür sosial təşəbbüslərin və sənaye ilə qurulan sıx əlaqələrin tələbələrə birbaşa həyatın özündən öyrənmək imkanı yaratdığını deyən rektor bu təcrübənin onların həm şəxsi, həm də peşəkar inkişafında böyük rol oynadığını bildirib.

Həmçinin tədbir çərçivəsində ADA Universiteti və "PAŞA Real Estate Qrupu"nun birgə təşəbbüsü ilə həyata keçirilən tələbə layihələrinin qalibləri mükafatlandırılıb. Bu layihə tələbələrin ölkənin aparıcı developer şirkətləri ilə işləyərək praktiki təcrübə qazanmasına şərait yaratmağı hədəfləyib.

Bu əməkdaşlıq çərçivəsində müxtəlif fakültələrin tələbələri şəhər mərkəzində yerləşən yeraltı keçidin yeni dizaynı ilə bağlı öz təkliflərini hazırlayıblar. Ümumilikdə 36 tələbənin iştirak etdiyi layihədə 4 akademik heyət üzvü və 6 sənaye mütəxəssisi mentor qismində çıxış edərək gənclərə istiqamət verib.

Gələcəyin istedadlarına investisiya etməyi öz missiyasının əsas istiqamətlərindən biri kimi müəyyənləşdirən "PAŞA Real Estate Qrupu" bu kimi təşəbbüslərlə tələbələri dəstəkləyir və onların peşəkar inkişafına töhfə verir.

Layihə qaliblərinə şirkət tərəfindən illik təqaüd və yay təcrübə proqramında iştirak imkanı təqdim olunub.

# Azərbaycanın və Monqolustanın baş prokurorları Milli Aviasiya Akademiyasında olublar

Milli Aviasiya Akademiyasında Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev və Monqolustan Xalq Respublikasının baş prokuroru Jarqalsayxan Banzraqçın iştirakı ilə İqtisadiyyat və hüquq fakültəsində təhsil alan tələbələrlə görüş keçirilib.





AZƏRTAC xəbər verir ki, əvvəlcə qonaqlar tədris hissəsində texniki təchizat, o cümlədən uçuş simulyatorları, trenajorlar və tələbələr üçün yaradılan şəraitlə tanış olublar.

Tədbirdə çıxış edən Milli Aviasiya Akademiyasının birinci prorektoru, professor Ədalət Səmədov aviasiya barədə məlumat verib, akademiyada İqtisadiyyat və hüquq fakültəsinin də fəaliyyət göstərdiyini deyib. Onun sözlərinə görə, akademiyanın hüquqşünas məzunları ən çox arzuolunan mütəxəssislər sırasındadırlar. Məzunlar bir çox dövlət qurumunda təcrübə keçirlər və həmin qurumlar onları hər zaman böyük məmnuniyyətlə qəbul edir. Prorektor vurğulayıb ki, Baş Prokurorluq peşəkar mütəxəssislərin hazırlanmasında akademiyaya yaxından dəstək olur.

Baş prokuror Kamran Əliyev Monqolustanın baş prokuroru ilə keçirilən görüşdə iki ölkə arasında hüquqi əməkdaşlığın yeni mərhələsinə qədəm qoyduğunu diqqətə çatdırıb. O, Azərbaycan Prokurorluğunun dövlətimizin başçısının tapşırıq və tövsiyələrinə uyğun olaraq, dünya ölkələrinin hüquq-mühafizə orqanları ilə intensiv əlaqələr qurduğunu qeyd edib. Vurğulayıb ki, bu əməkdaşlıq həm ikitərəfli formatda, həm də Türk Dövlətləri Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, Avropa İttifaqı və Beynəlxalq Prokurorlar Assosiasiyası kimi nüfuzlu platformalar çərçivəsində uğurla davam etdirilir.

Konkret cinayət işləri üzrə istintaq hərəkətlərinin aparılması zamanı hüquqi yardıma olan ehtiyacın, vaxtın və operativliyin beynəlxalq tərəfdaşlığı zəruri etdiyini vurğulayan baş prokuror cinayətkarların müxtəlif ölkələrdə gizlənməsi və qlobal əlaqələri ilə mübarizədə prokurorluq orqanlarının güclərini birləşdirməsinin əsas hədəf kimi müəyyən olunduğunu deyib.

Kamran Əliyev xatırladıb ki, monqolustanlı həmkarı ilk dəfə 2024-cü ildə Bakıda keçirilən konfransda iştirak edib. 2025-ci ilin mayında Ulan-Bator şəhərində təşkil olunan regional tədbirdə Azərbaycan Prokurorluğunun nümayəndə heyəti təmsil olunub. Bu qarşılıqlı təmasların məntiqi nəticəsi kimi, 2026-cı il mayın 6-da iki ölkənin prokurorluq orqanları arasında əməkdaşlıq memorandumu imzalanıb. "Sənədin imzalanmasında əsas amillərdən biri hər iki ölkənin hüquq sistemlərinin, prokurorluğun dövlət idarəçiliyindəki rolunun və funksiyalarının bir-birinə yaxın olmasıdır. Əminəm ki, imzalanan bu memorandum və qarşılıqlı təcrübə mübadiləsi hər iki dövlətin hüquq sisteminin inkişafına müsbət təsir göstərəcək", - deyə baş prokuror vurğulayıb.

Milli Aviasiya Akademiyasının İqtisadiyyat və hüquq fakültəsinin dekanı, professor Ayxan Rüstəmzadə fakültə barədə məlumat verib. O, fakültənin əsas hədəfinin Azərbaycan iqtisadiyyatının sürətli inkişaf dinamikasına və gələcək perspektivlərinə uyğun kadr potensialını formalaşdırmaq olduğunu deyib. Qeyd edilib ki, fakültənin məzunları ölkənin müxtəlif dövlət qurumlarında, hüquq-mühafizə orqanlarında, eləcə də nüfuzlu yerli və xarici şirkətlərdə çalışırlar.

Sonra tələbələri maraqlandıran suallar cavablandırılıb.

# Nazir Vilayət Eyvazov İmişlidə növbəti vətəndaş qəbulu və sıra baxışı keçirib



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələr üzrə vətəndaş qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov mayın 6-da və 7-də İmişli rayonunda növbəti vətəndaş qəbulu keçirib.



Nazir əvvəlcə İmişli rayonunda Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini dərin hörmət və ehtiramla yad edib.

Daha sonra polis şöbəsinin inzibati binasında İmişli, Füzuli, Beyləqan, Xocavənd, Saatlı, Sabirabad və Kürdəmir rayonlarından, eləcə də digər bölgələrdən qəbula gələn 264 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Qəbula gələn vətəndaşların müraciətlərinin operativ və qanunvericiliyin tələblərinə uyğun həlli, habelə vətəndaş məmnunluğunun təmin olunması məqsədilə nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə müvafiq tapşırıqlar verilib. Müraciətlərin böyük əksəriyyəti yerindəcə həll olunub, digərləri nəzarətə götürülüb.

Səfər çərçivəsində general-polkovnik Vilayət Eyvazov polis və Daxili Qoşunlarda xidmət etmək arzusunda olan gənclərin sıra baxışını da keçirib.

Sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 216 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

*"Azərbaycan"*

# Azərbaycan və Monqolustan arasında məhkəmə-hüquq sahəsində təcrübə mübadiləsinin genişləndirilməsi diqqətdədir

Mayın 7-də Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev Azərbaycanda səfərdə olan Monqolustanın baş prokuroru Jarqalsayxan Banzraqçın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirib.

Bu barədə AZƏRTAC-a Konstitusiya Məhkəməsindən məlumat verilib.

Sədr Fərhad Abdullayev qeyd edib ki, Azərbaycan və Monqolustan arasında formalaşmış sıx əməkdaşlıq əlaqələri qarşılıqlı etimad və anlaşmaya əsaslanır, eyni zamanda hər iki dövlət arasındakı münasibətlərin bütün sahələrdə möhkəmlənməsinə mühüm zəmin yaradır.

Daha sonra sədr ölkəmizdə məhkəmə-hüquq sahəsində aparılan islahatlar və yeniliklər, Konstitusiya Məhkəməsinin fəaliyyəti və qərar qəbuletmə proseduru, həmçinin məhkəmənin bir sıra hüquqi mövqeləri barədə ətraflı məlumat verib. Səmimi görüşə görə minnətdarlığını bildirən baş prokuror Jarqalsayxan Banzraqç ölkələrimiz arasında ikitərəfli əlaqələri yüksək qiymətləndirərək, əməkdaşlığın mövcud səviyyəsindən məmnunluğunu ifadə edib və bu münasibətlərin daha da möhkəmlənəcəyinə əminliyini vurğulayıb. Görüşdə tərəflər məhkəmə-hüquq sahəsində qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsinin əhəmiyyətini diqqətə çatdıraraq, gələcəkdə bu istiqamətdə əməkdaşlığın daha da dərinləşdirilməsi üçün birgə təşəbbüslərin həyata keçirilməsinin vacibliyini qeyd ediblər.



Daha sonra ikitərəfli əlaqələrin inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər üzrə fikir mübadiləsi aparılıb.

Görüşün sonunda qonaqlar Konstitusiya Məhkəməsinin binası ilə tanış olublar.

## “Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 113-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2025-ci il 10 oktyabr tarixli 265-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 28 noyabr tarixli 537 nömrəli və “Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 113-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 28 noyabr tarixli 538 nömrəli fərmanlarının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 132** **Bakı şəhəri, 6 may 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 113-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 10 oktyabr tarixli 265-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 28 noyabr tarixli 537 nömrəli və "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 113-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 28 noyabr tarixli 538 nömrəli fərmanlarının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 39 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 195 (Cild I); 2024, № 2, maddə 210, № 9, maddə 1090; 2025, № 2, maddə 180, № 9, maddə 858) ilə təsdiq edilmiş "Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamə"nin 2.1-ci bəndinin ikinci cümləsinə "qəyyumluq və himayəçilik orqanının" sözlərindən sonra "(himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, digər hallarda isə uşaq hüquqlarının müdafiəsi üzrə komissiyaların)" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 11 sentyabr tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 9, maddə 693 (Cild I); 2024, № 1, maddələr 110, 111, № 3, maddə 359, № 5 (II kitab), maddələr 597, 606, № 9, maddə 1067; 2025, № 2, maddə 193, № 7, maddə 698; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 17 mart tarixli 83 nömrəli və 19 mart tarixli 87 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"a aşağıdakı məzmunda 1-2-ci hissə əlavə edilsin:

"1-2. Bu Təlimatda nəzərdə tutulan qəyyumluq və himayəçilik orqanının və ya qəyyumluq və himayə orqanının funksiyalarını qəyyum və himayəçi təyin edilənədək himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, digər hallarda isə uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar həyata keçirirlər.".

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 9 noyabr tarixli 203 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 11, maddə 1063 (Cild I) ilə təsdiq edilmiş "İnsan alveri qurbanları üçün xüsusi müəssisələrin yaradılması, maliyyələşdirilməsi, fəaliyyəti, habelə onların fəaliyyətinə nəzarət Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. aşağıdakı məzmunda 1.4-cü bənd əlavə edilsin:

"1.4. Bu Qaydalarda nəzərdə tutulan qəyyumluq və himayə orqanının funksiyalarını himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, digər hallarda isə uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar həyata keçirirlər.";

3.2. 3.1.5-ci yarımbənddə və 3.4-cü bəndin birinci və ikinci cümlələrində "Yetkinlik yaşına çatmayanların işləri və" sözləri "Uşaq" sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 18 aprel tarixli 91 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 4, maddə 311 (Cild I); 2025, № 9, maddə 870) ilə təsdiq edilmiş "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin manevr fondu yaşayış sahəsi ilə təmin olunma qaydası və həmin manevr fondu yaşayış sahələrində yaşamaq müddətinin artırılmasının müstəsna halları"nın 3.2-ci bəndinə "qəyyumluq və himayə orqanının" sözlərindən sonra "(himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, digər hallarda isə uşaq hüquqlarının müdafiəsi üzrə komissiyaların)" sözləri əlavə edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 3 sentyabr tarixli 131 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 735 (Cild I); 2024, № 2, maddə 209; 2025, № 12 (II kitab), maddə 1233) ilə təsdiq edilmiş "İnsan alveri qurbanlarının müəyyən edilməsi Qaydaları (indikatorları)"nın 6.2-ci bəndinin üçüncü cümləsinə "qəyyumluq və ya himayə orqanının" sözlərindən sonra "(himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, digər hallarda isə uşaq hüquqlarının müdafiəsi üzrə komissiyaların)" sözləri əlavə edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 19 noyabr tarixli 180 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 11, maddə 939 (Cild I) ilə təsdiq edilmiş "İnsan alverinin qurbanı olmuş uşaqların sığınacaqda yerləşdirilməsi və saxlanılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. "1. ÜMUMİ MÜDDƏA" hissəsinin birinci abzası 1.1-ci bənd hesab edilsin və aşağıdakı məzmunda 1.2-ci bənd əlavə edilsin:

"1.2. Bu Qaydalarda nəzərdə tutulmuş qəyyumluq və himayə orqanının funksiyalarını himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, digər hallarda isə uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar həyata keçirirlər.";

6.2. 3.2-ci bənddə, 4.1-ci bəndin ikinci cümləsində, 5.1-ci və 5.4-cü bəndlərdə "Yetkinlik yaşına çatmayanların işləri və" sözləri "Uşaq" sözü ilə əvəz edilsin;

6.3. 5-ci hissənin adında "YETKİNLİK YAŞINA ÇATMAYANLARIN İŞLƏRİ VƏ" sözləri "UŞAQ" sözü ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 10 sentyabr tarixli 252 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 9, maddə 1132 (Cild I) ilə təsdiq edilmiş "İnsan alveri qurbanlarının repatriasiya Qaydaları"nın 5.1.2-ci yarımbəndinə "qəyyumluq və himayə orqanları" sözlərindən sonra "(himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, digər hallarda isə uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalar)" sözləri əlavə edilsin və həmin yarımbənddə "yetkinlik yaşına çatmayanların işləri və" sözləri "uşaq" sözü ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 5 sentyabr tarixli 385 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 9, maddə 1539 (Cild I); 2024, № 4, maddə 481; 2026, № 1, maddə 77) ilə təsdiq edilmiş "Mediasiya prosesinin həyata keçirilməsi Qaydası"nın 11.3-1-ci bəndində "yerli icra hakimiyyətlərinin qəyyumluq və himayə orqanlarına" sözləri "qəyyumluq və himayəçilik orqanına (himayədar ailəyə verilmiş uşaqlara, habelə Azərbaycan Respublikasının Ailə Məcəlləsinə uyğun olaraq yerləşdirilənədək - valideyn himayəsindən məhrum olmuş uşaqlara münasibətdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, digər hallarda isə uşaq hüquqlarının müdafiəsi üzrə komissiyalara)" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## “Müayinə və texniki xidmətlə bağlı tələblərə riayət olunmasına monitorinqin keçirilməsi Qaydası”nın təsdiq edilməsi və “Müayinənin və texniki xidmətin həyata keçirilməsinə monitorinqin keçirilməsi qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 214 nömrəli Qərarının ləğv edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 133** **Bakı şəhəri, 7 may 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 233-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 avqust tarixli 487 nömrəli Fərmanının 2.1.2.7-ci abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Müayinə və texniki xidmətlə bağlı tələblərə riayət olunmasına monitorinqin keçirilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur).*

2. "Müayinənin və texniki xidmətin həyata keçirilməsinə monitorinqin keçirilməsi qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 214 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 874 (Cild I); 2024, № 3, maddə 305) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə*
*www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## “İxtisas attestatının forması, attestatın verilməsi, qüvvədəolma müddətinin dayandırılması və ya onun ləğv edilməsi və ixtisaslaşmış podratçıların fəaliyyətinə nəzarətin həyata keçirilməsi Qaydası”nın təsdiq edilməsi və “İxtisaslaşmış podratçılara verilən ixtisas attestatının forması, onun verilməsi, qüvvədəolma müddətinin dayandırılması və ya ləğv edilməsi, eləcə də ixtisaslaşmış podratçıların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi qaydası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 217 nömrəli Qərarının ləğv edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 134** **Bakı şəhəri, 7 may 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 233-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 avqust tarixli 487 nömrəli Fərmanının 2.1.2.8-ci abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "İxtisas attestatının forması, attestatın verilməsi, qüvvədəolma müddətinin dayandırılması və ya onun ləğv edilməsi və ixtisaslaşmış podratçıların fəaliyyətinə nəzarətin həyata keçirilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur).*

2. "İxtisaslaşmış podratçılara verilən ixtisas attestatının forması, onun verilməsi, qüvvədəolma müddətinin dayandırılması və ya ləğv edilməsi, eləcə də ixtisaslaşmış podratçıların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 217 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 877 (Cild I); 2024, № 3, maddə 305; 2025, № 5, maddə 507) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə*
*www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## “Xüsusi icra məmurları haqqında” Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 248-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 13 avqust tarixli 478 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 135** **Bakı şəhəri, 7 may 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 248-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 13 avqust tarixli 478 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 18 aprel tarixli 69 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 4 (II kitab), maddə 211 (Cild I); 2024, № 5 (II kitab), maddə 606, № 9, maddə 1106) ilə təsdiq edilmiş "Müsadirə edilmiş, sahibsiz qalmış, vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən əmlakın və dəfinələrin uçotu, qiymətləndirilməsi, saxlanılması, istifadəsi və satışı barədə Əsasnamə"nin 2.1-ci bəndinin ikinci abzasında və 2.2-ci bəndinin üçüncü abzasında hər iki halda ismin müvafiq hallarında "icra məmuru" sözləri ismin müvafiq hallarında "dövlət icra məmuru" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 6 sentyabr tarixli 143 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 9, maddə 573 (Cild I); 2025, № 8, maddə 800; № 12 (II kitab), maddə 1231) ilə təsdiq edilmiş "Üzərinə həbs qoyulmuş əmlakın saxlanması Qaydası və şərtləri"ndə aşağıdakı dəyişikliklər edilsin:

2.1. 4-cü hissədə və 5-ci hissənin ikinci cümləsində "icra xidmətinin" sözləri "müvafiq olaraq icra xidmətinin və ya xüsusi icra məmurunun" sözləri ilə əvəz edilsin;

2.2. 16-cı hissəyə "yalnız icra qurumu rəhbərinin" sözlərindən sonra "(dövlət icra məmuruna münasibətdə)" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 26 yanvar tarixli 20 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 1, maddə 50 (Cild I) ilə təsdiq edilmiş "İxtisaslaşdırılmış tibb müəssisələrində məcburi müalicənin Şərtləri və Qaydaları"nın 1.3-1-ci bəndində "icra məmuru" sözləri "dövlət icra məmuru" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 avqust tarixli 137 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 862 (Cild I) ilə təsdiq edilmiş "İnzibati aktın icrasının cərimə vasitəsi ilə təmin edilməsi Qaydası"nın 15-ci hissəsində " icra məmuru" sözləri "dövlət icra məmuru" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 dekabr tarixli 516 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1617 (Cild I); 2024, № 5 (II kitab), maddə 606, № 9, maddə 1106) ilə təsdiq edilmiş "Xüsusi müsadirə edilmiş əmlakın dövlət nəfinə verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.1-ci bəndin birinci və ikinci cümlələrində "icra məmuruna" sözləri "dövlət icra məmuruna" sözləri ilə əvəz edilsin;

5.2. 2.2-ci bəndin birinci cümləsində "İcra məmuru" sözləri "Dövlət icra məmuru (bundan sonra - icra məmuru)" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## “Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 30 yanvar tarixli 31 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 136** **Bakı şəhəri, 7 may 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 30 yanvar tarixli 31 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2026, № 1, maddə 101) aşağıdakı məzmunda 4-cü hissə əlavə edilsin:

"4. Bu Qərar 2026-cı il mayın 1-dən qüvvəyə minir.".

2. Bu Qərar 2026-cı il fevralın 2-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Rusiya XİN Bakının Avropa Parlamenti ilə əlaqələri kəsməsini şərh edib

Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova bəyan edib ki, Avropa Parlamentinin suveren dövlətlərə münasibətdə siyasəti fonunda Azərbaycanın bu struktur ilə əməkdaşlığı dayandırması qərarı təəccüb doğurmur.

AZƏRTAC xəbər verir ki, Mariya Zaxarova Moskvada keçirilən brifinqdə Bakının qərarını şərh edib. O vurğulayıb ki, Azərbaycan Avropa Parlamentinin "kobudluğu, hörmətsizliyi və ölkənin daxili işlərinə birbaşa müdaxiləsi" ilə qarşılaşan yeganə dövlət deyil. Bu, Azərbaycanın suveren hüququdur.

O bildirib: "Bu, Bakının qondarma Avropa Parlamenti ilə əlaqəni dayandırmaq barədə suveren qərarıdır. Həmin qərar təəccüb doğurmur".



Rusiya XİN-in rəsmi nümayəndəsi Avropa Parlamentinin qəbul etdiyi qətnamələri kəskin tənqid edərək onları "təkcə siyasiləşdirilmiş deyil, həm də feyk" adlandırıb. O əlavə edib ki, "bu qurum nasaz printer kimi bu cür sənədləri sonsuza qədər çap edir". M. Zaxarova həmçinin bildirib ki, Avropa Parlamentinin üçüncü ölkələrlə bağlı qətnamələrinin ritorikası "təkəbbürlü mentor tonuna malikdir. Sanki hər hansı metropoliya öz müstəmləkələri ilə danışır". Diplomatın sözlərinə görə, Avropa Parlamenti "çoxdandır ki, Brüsselin yeni ultraliberal siyasətinin ruporuna çevrilib və demokratiya ilə heç bir əlaqəsi yoxdur". O həmçinin qurumu feyk xəbərlər yaymaqda, söz azadlığını boğmaqda və tarixin manipulyasiyasında ittiham edib.

Eyni zamanda Zaxarova qeyd edib ki, Azərbaycan Avropanın başqa strukturları ilə qarşılıqlı fəaliyyətini davam etdirir. "Bakı Avropanın digər strukturları ilə dialoqunu davam etdirir, amma yenə də bu məsələdə suveren hüquqa malikdir", - deyə o vurğulayıb.

# Yeni Azərbaycan Partiyasının nümayəndələri Ulu Öndər Heydər Əliyevin xatirəsini yad ediblər





Mayın 7-də müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının nümayəndələri Fəxri xiyabanda Ulu Öndərin xatirəsini yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

# Bakıda klassik musiqi konserti keçirilib

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 103 illiyi ilə əlaqədar metronun "Gənclik" stansiyasının yaxınlığındakı istirahət parkında açıq havada Ulu Öndərin əziz xatirəsinə həsr edilən "Bir ömrün simfoniyası" adlı klassik musiqi konserti keçirilib.






Paytaxt sakinləri və qonaqların iştirakı ilə keçirilən konsertdə Mustafa Mehmandarovun rəhbəri və baş dirijoru olduğu "Archi" kamera orkestrinin ifasında musiqi əsərləri səsləndirilib.

Konsert zamanı səhnədə Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən video və fotomateriallar nümayiş etdirilib, onun sevdiyi klassik mahnılar səsləndirilib.

Qeyd edilib ki, son illərdə dövlət başçısı cənab İlham Əliyevin ölkəmizin və o cümlədən, paytaxtın inkişafı istiqamətində gördüyü işlər və həyata keçirilən böyük layihələr Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirib. İstifadəyə verilən müasir istirahət parkları və bağlar paytaxtımızı yaşıllıqlar şəhəri edib.

Konsertdə Üzeyir bəy Hacıbəyli, Qara Qarayev, Aqşin Əlizadə, Arif Məlikov, Müslüm Maqomayev kimi dahi Azərbaycan bəstəkarlarının unudulmaz bəstələri ilə yanaşı, dünyaşöhrətli Yohannes Brams və Astor Piazzollanın də əsərləri ifa edilib, Ulu Öndərin sevdiyi "Küçələrə su səpmişəm" xalq mahnısı səsləndirilib.

Azərbaycanın mədəniyyət xadimlərinin bir-birindən maraqlı ifaları ilə keçən təntənəli konsert iştirakçıların böyük marağına səbəb olub, incəsənət xadimlərinin çıxışları sürəkli alqışlarla qarşılanıb.

Konsertə Müslüm Maqomayevin "Azərbaycan" mahnısının sədaları altında möhtəşəm atəşfəşanlıqla yekun vurulub.

***Təhminə VERDİYEVA, "Azərbaycan"***

# Adjaratv.ge televiziyasında və eyniadlı portalda Ulu Öndər Heydər Əliyevə həsr olunmuş material yayımlanıb

Acarıstan Muxtar Respublikası ərazisində yayımlanan adjaratv.ge televiziyası və eyniadlı portal Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü ilə əlaqədar material yayımlayıb.



AZƏRTAC xəbər verir ki, materialda Ümummilli Liderin həyat və fəaliyyəti barədə məlumat verilir.

Eyni zamanda yazıda Azərbaycanın Batumidəki baş konsulluğunun təşkilatçılığı ilə Nobel Qardaşları Batumi Texnoloji Muzeyində Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş tədbir barədə məlumat yer alıb.

Həmçinin adjaratv.ge televiziyasında Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu "Əsrin müqaviləsi"nin regional əməkdaşlıq və enerji təhlükəsizliyi baxımından əhəmiyyətini əks etdirən "Dörddə bir əsr: Əsrin müqaviləsi" adlı qısametrajlı sənədli film nümayiş etdirilib. Filmdə Nobel qardaşlarının fəaliyyətini və regionda neft sənayesinin inkişafındakı texnoloji yenilikləri əks etdirən materiallar da təqdim olunub.

# *Heydər Əliyevin dövlətçilik fəlsəfəsi:* tarixi dəyərlər əsasında gələcəyə baxış





Mayın 7-də Yeni Azərbaycan Partiyası (YAP) və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş "Heydər Əliyevin dövlətçilik fəlsəfəsi: tarixi dəyərlər əsasında gələcəyə baxış" mövzusunda tədbir keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qeyd edib ki, bu gün müstəqil Azərbaycanın qazandığı çoxsaylı nailiyyətlərin və möhtəşəm qələbələrin qürurunu yaşamaqla müdrik dövlət xadimi Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətlərini sonsuz minnətdarlıqla xatırlayırıq: "Ulu Öndər siyasi və ideoloji nöqteyi-nəzərdən bir-birindən fərqli iki dövrdə - istər SSRİ dönəmində, istərsə də dövlət müstəqilliyinin bərpasından sonra respublikamıza uğurla rəhbərlik edərək dövlətimiz üçün taleyüklü məsələlərin həllinə nail olmaqla millətimizin parlaq gələcəyini təmin etmişdir. Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan olduqca mürəkkəb sınaqlardan keçmişdir. Onun güclü siyasi iradəsi, sarsılmaz qətiyyəti və dərin strateji baxışı sayəsində ölkəmiz xaosdan və parçalanma təhlükəsindən xilas olaraq sabitlik və inkişaf yoluna qədəm qoymuşdur. Ulu Öndər qeyd edirdi ki, müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə dövlət müstəqilliyinin möhkəmləndirilməsi üçün qanunun aliliyi, ictimai-siyasi institutların səmərəli fəaliyyəti təmin edilmiş, azərbaycançılıq ideologiyasına əsaslanan mütərəqqi siyasətlə cəmiyyətin bütün təbəqələri vahid amal ətrafında birləşdirilərək milli həmrəylik gücləndirilmişdir. Dövrün çağırışlarına uyğun həyata keçirilən balanslaşdırılmış və çoxvektorlu xarici siyasət kursu ölkəmizin beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi layiqli yer tutmasına, milli maraqlarını, o cümlədən işğala məruz qalmış bir dövlət kimi haqlı mövqeyini qətiyyətlə müdafiə etməsinə imkan yaratmışdır. Müasir dövlətçilik tariximizin ən qürurverici məqamı - Azərbaycanın şanlı Zəfər zirvəsinə yüksəlməsi də Ulu Öndərimizin tükənməz siyasi irsi ilə bağlıdır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Heydər Əliyev dühası bugünkü Azərbaycanın uğurlu inkişafının təməlində dayanan amildir".

Tahir Budaqov vurğulayıb ki, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin milli maraqlara əsaslanan siyasəti ölkəmizin keyfiyyətcə yeni inkişaf mərhələsinə yüksəlməsini şərtləndirmişdir: "Qlobal proseslərə geniş təsir imkanına malik regional güc mərkəzinə çevrilən Azərbaycan öz ərazi bütövlüyü və mütləq suverenliyini təmin etdikdən sonra Cənubi Qafqazda faktiki sülh şəraitində qarşılıqlı etimad mühiti yaratmışdır. Hazırda işğaldan azad edilmiş ərazilərdə nəhəng bərpa-quruculuq işləri aparılır və Böyük qayıdış uğurla davam etdirilir ki, bu da Azərbaycanın iqtisadi gücünü, siyasi iradəsini və gələcəyə inamını aydın şəkildə nümayiş etdirir. Bu gün qalib Azərbaycan xalqının iradəsini ifadə edən Yeni Azərbaycan Partiyası cəmiyyətin aparıcı siyasi qüvvəsi kimi Heydər Əliyev ideyalarına sadiq qalaraq öz fəaliyyətini dövrün çağırışlarına uyğun qurmaqla strateji hədəflərin gerçəkləşməsinə mühüm töhfələr verir".

YAP Sədrinin müavini bildirib ki, milli məqsədlərini ardıcıl şəkildə həyata keçirən müstəqil dövlətimiz möhkəm təməl üzərində gələcəyə doğru inamla irəliləyir: "Belə bir tarixi mərhələdə Heydər Əliyev irsini, Ulu Öndərin müəyyən etdiyi ideoloji xətti yaşatmaq, dövlətçiliyimizi daha da möhkəmləndirmək və Prezident İlham Əliyevin qarşımıza qoyduğu bütün vəzifələri yerinə yetirmək üçün hər birimiz milli maraqları daim qorumalı, dövlətə sədaqətlə xidmət etməliyik. Heydər Əliyev ideyaları yaşadıqca müstəqil Azərbaycan daha da güclənəcək və yeni uğurlara imza atacaqdır".

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, Əməkdar incəsənət xadimi Ceyran Mahmudova çıxışında bildirib ki, Ulu Öndər Heydər Əliyev Azərbaycan tarixində yalnız qüdrətli dövlət xadimi, uzaqgörən siyasətçi kimi deyil, həm də milli-mənəvi dəyərlərimizin qoruyucusu, mədəniyyətimizin və incəsənətimizin əsl hamisi kimi əbədi yaşayır: "Onun adı çəkiləndə göz önündə təkcə siyasi uğurlar deyil, eyni zamanda zəngin mədəni mühit, inkişaf edən incəsənət, qorunan milli kimlik canlanır. Heydər Əliyev fəaliyyətinin bütün mərhələlərində mədəniyyətə xüsusi diqqət yetirib. O, hələ sovet dövründə Azərbaycana rəhbərlik etdiyi illərdə milli mədəniyyətin inkişafı üçün böyük işlər görüb. Onun sonsuz qayğısı və diqqəti nəticəsində teatrlarımızın fəaliyyəti genişlənib, muzeylər zənginləşdirilib, kitabxanalar yenilənib. O dövrdə Azərbaycan incəsənəti təkcə ittifaq daxilində deyil, beynəlxalq səviyyədə də öz sözünü deməyə başlamışdı".

Rektor əlavə edib ki, Ulu Öndər Heydər Əliyev sənət adamlarını, sadəcə, yaradıcı insanlar kimi deyil, xalqın mənəvi sərvəti kimi dəyərləndirir, incəsənət xadimlərinə böyük ehtiram göstərir, onların yaradıcılığını yüksək qiymətləndirirdi: "Bəstəkarlar, yazıçılar, aktyorlar, rejissorlar, rəssamlar, bir sözlə, bütün yaradıcı insanlar onun diqqət və qayğısını hiss edirdi".

Ceyran Mahmudova qeyd edib ki, müstəqillik illərində Heydər Əliyevin mədəniyyət sahəsində gördüyü işlər müstəsna əhəmiyyət kəsb edir: "Bu dövrdə tarixi abidələrin qorunması, milli irsin bərpası, folklorun, musiqinin, ədəbiyyatın inkişafı istiqamətində mühüm addımlar atıldı. Azərbaycan mədəniyyəti yeni bir mərhələyə qədəm qoydu. Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi bu strateji xətt uğurla davam etdirilir. Prezident İlham Əliyev mədəniyyət və incəsənət sahəsini daim diqqətdə saxlayır".

Onun sözlərinə görə, Azərbaycanın müasir tarixində mühüm və şərəfli yer tutan 44 günlük Vətən müharibəsi dövlətimizin qüdrətini, xalqımızın sarsılmaz birliyini və Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi strateji inkişaf xəttinin uğurla davam etdirildiyini bir daha bütün dünyaya nümayiş etdirdi. "Qarabağda mədəni həyatın dirçəldilməsi istiqamətində mühüm addımlar atılır, Şuşa və digər şəhərlərimizdə beynəlxalq musiqi festivalları, mədəniyyət günləri, incəsənət tədbirləri təşkil olunur, Azərbaycan mədəniyyətinin zənginliyi artıq öz doğma məkanında yenidən səslənir", - deyən Ceyran Mahmudova əlavə edib ki, bu gün gənc nəslin inkişafı da dövlət siyasətinin prioritet məsələləri sırasındadır.

Rektor bildirib ki, gənc istedadların üzə çıxarılması, onların yaradıcılıq imkanlarının genişləndirilməsi daim dövlətin diqqət mərkəzindədir: "Bu kontekstdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin fəaliyyəti xüsusi əhəmiyyət daşıyır. Universitetimiz uzun illərdir ki, ölkəmizin mədəni həyatına töhfə verən peşəkar kadrlar yetişdirir. Çalışırıq ki, tələbələrimiz yalnız peşəkar sənətkar deyil, eyni zamanda milli dəyərlərə bağlı vətəndaşlar kimi yetişsinlər. Çünki incəsənət həm də bir missiyadır. Bu missiya xalqın ruhunu yaşatmaq, onun tarixini, mədəniyyətini gələcəyə daşımaqdır".

Çıxış edən YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Mübariz Qurbanlı bildirib ki, Azərbaycan dövlətinin söykəndiyi ideoloji və dövlətçilik prinsiplərinin əsasları Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyən edilib: "Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni dövrün çağırışlarına uyğun olaraq yenilənmiş həmin prinsiplər Yeni Azərbaycan Partiyasının proqramında öz əksini tapıb. Bunlar Heydər Əliyev yolu, müstəqillik, azərbaycançılıq, dövlətçilik, qanunun aliliyi, varislik və təkamül, konstruktiv əməkdaşlıq və dialoq, sosial ədalət və insan amili, multikultural cəmiyyət və demokratik ənənələrin inkişafıdır. Bu prinsiplərin hər biri Heydər Əliyevin siyasi irsinin əsasını təşkil edən ideoloji məsələlərdir".

Mübariz Qurbanlı qeyd edib ki, müasir Azərbaycan dövlətinin formalaşması, möhkəmlənməsi və inkişafı Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi strateji-siyasi kursun uğurla həyata keçirilməsinin nəticəsidir: "Odur ki, Heydər Əliyevin zəngin dövlətçilik fəaliyyəti Azərbaycanın bu günü və gələcəyi üçün mükəmməl siyasi irs kimi özünü göstərir. Bu siyasi irs Azərbaycan xalqının müstəqilliyi, güclü dövlətçilik, iqtisadi inkişaf, sosial rifah və xalqımızın milli birliyi kimi fundamental istiqamətləri əhatə edir".

Heydər Əliyevin siyasi irsinin Azərbaycanın inkişaf modelinin əsasını təşkil edən kompleks bir sistem olduğunu deyən YAP İdarə Heyətinin üzvü əlavə edib ki, bu, sabitlik, milli ideologiya, iqtisadi strategiya və institusional quruculuğun vəhdəti üzərində qurulub: "Bu strateji kurs Azərbaycanın uzunmüddətli inkişaf modelinin əsasını təşkil edir. Regionda və dünyada söz sahibi olan güclü və qalib Azərbaycan dövləti Heydər Əliyev irsinin və bu irsi layiqincə davam etdirən, dövrün çağırışlarına uyğun zənginləşdirən Prezident İlham Əliyev siyasi kursunun təntənəsidir" , - deyə M.Qurbanlı vurğulayıb.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova çıxışında bildirib ki, Ulu Öndər Heydər Əliyev dahi şəxsiyyət, uzaqgörən lider, cəsarətli insan idi: "Onun adı yalnız siyasi iradə ilə deyil, həm də dövlətçilik təfəkkürü, milli ruh, strateji zəka və sabaha olan inamla bağlıdır. Ulu Öndərin dövlətçilik fəlsəfəsi təkcə idarəetmə modeli deyil, həm də azərbaycançılıq ideologiyasına söykənən strateji xətdir. Məhz bu fəlsəfə sayəsində Azərbaycan müstəqilliyini qorudu, dövlətçiliyini möhkəmləndirdi və gələcəyə inamla addımladı".

Hicran Hüseynova qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin tarixi missiyası ölkəmizin müstəqilliyini bərpa etməsində və sonrakı dövrdə özünü daha qabarıq şəkildə göstərib: "Onun üçün hər şeydən əziz xalqı, Vətəni və torpağı idi. Dəfələrlə özü, ailəsi təhlükəyə məruz qalsa da, bu inam və sevgidən bir an belə çəkinmədi. O, 20 Yanvar faciəsindən sonra dərhal sovet hökumətinin Azərbaycan xalqına qarşı törətdiyi cinayəti pislədi, Kommunist Partiyasını tərk etdi və Azərbaycan xalqı onun simasında yenidən öz liderini gördü. Onun Naxçıvan Muxtar Respublikasında fəaliyyəti isə xüsusilə diqqətəlayiq idi. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağının məhz Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanın Ali Məclisinin iclasında rəsmi Dövlət bayrağı kimi tanınması tarixi hadisə idi. Milli dövlətçiliyin mürəkkəb böhranı fonunda 1992-ci ilin noyabr ayında yaradılan Yeni Azərbaycan Partiyası Azərbaycanın gələcək demokratik və suveren inkişafı uğrunda mübarizənin flaqmanına çevrildi".

Ümummilli Liderin ailə dəyərlərinə olan münasibətindən bəhs edən Milli Məclisin komitə sədri Heydər Əliyevin "Ailə dəyərləri xalqımız üçün həmişə doğma olub, çox əziz olub və deyə bilərəm ki, ailə dəyərləri bizim milli dəyərlərimizdir" fikrini xatırladıb: "Fəxrlə demək olar ki, biz Heydər Əliyev irsinin Zəfər mərhələsini yaşayırıq. Prezident, Ali Baş Komandan, partiyamızın Sədri İlham Əliyev və respublikanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Ulu Öndərin siyasi kursunu uğurla davam etdirirlər. Azərbaycan müstəqil dövlət olaraq daha da güclənib, dünya miqyasında söz sahibi olan ölkəyə çevrilib. Qarabağ Zəfəri, Böyük qayıdış, regionun lider dövləti kimi irəli sürülən qlobal təşəbbüslər bir daha göstərir ki, Heydər Əliyevin dövlətçilik fəlsəfəsi bu gün yeni mərhələyə qədəm qoyub. Bu, Zəfər mərhələsidir. Ulu Öndər Heydər Əliyevin irsi Azərbaycan xalqı üçün dövlətçilik məktəbi, inkişaf modeli və sabitliyin rəmzidir. Onun mirası təkcə tarix deyil, həm də gələcəyə uzanan yol xəritəsidir" ,- deyə Hicran Hüseynova vurğulayıb.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilmiş Ədalət Fərəcova orden təqdim edilib.

Göstərilən diqqətə və fəaliyyətinə verilən yüksək qiymətə görə dövlət başçısına təşəkkürünü bildirən Ədalət Fərəcov Ümummilli Lider Heydər Əliyevin əbədiyaşar ideyalarının, Prezident İlham Əliyevin məqsədyönlü siyasətinin və Yeni Azərbaycan Partiyasının uğurlu fəaliyyətinin Azərbaycana möhtəşəm nailiyyətlər qazandırdığını, ölkəmizin tərəqqi və Zəfər zirvəsinə yüksələrək keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyduğunu vurğulayıb.

Tədbirin rəsmi hissəsi Yeni Azərbaycan Partiyasının himninin səsləndirilməsi ilə başa çatıb.

Sonra tədbirdə Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş konsert proqramı təqdim olunub.

***"Azərbaycan"***

**1923** *Azərbaycanın özü qədər əbədi* **2026**

# Heydər Əliyev ədəbiyyatın, mədəniyyətin hamisi idi



**Heydər Əliyevin ədəbiyyatda obrazı hakimiyyətdə olduğu iki fərqli mərhələdə fərqli statuslarda dövriyyəyə gətirilir. Birinci mərhələdə Heydər Əliyev daha çox siyasi xadim olaraq quruculuq lideri, ədəbiyyatın, mədəniyyət və incəsənətin hamisi olaraq irəli çəkilir. Birinci dövrdə Heydər Əliyevin obrazı ondan daha çox xalqın itirilmiş intellekt və emosiya potensialının geri qayıdışında, ondakı milli müəyyənlik və özünüifadə imkanlarının bərpa olunmasında siyasi iradə nümayiş etdirən lider olaraq danışmağa imkan verir.**

1970-ci illərdə Moskva siyasi dairələrində kifayət qədər nüfuz sahibi olan Heydər Əliyev bundan xalqının milli kimliyinin və müəyyənliyinin dərki üçün yararlandı. Bütün siyasi fəaliyyəti boyu əsas diqqətini xalqın tarixi şəxsiyyətlərinin yaradıcılığının poetik dövriyyəyə gətirilməsinə, yaddaş faktına çevrilməsinə, milli genofondun varlıq göstəriciləri olmaları işinə yönəltdi. N.Gəncəvinin, İ.Nəsiminin, M.P.Vaqifin, M.Ş.Vazehin, N.Nərimanovun heykəllərinin qoyulması, onların irsini dirçəltmək imkanları sovet epoxası daxilində ağlasığmaz əzmkarlıqdan irəli gəlirdi və siyasi lider olaraq Heydər Əliyevin bütün fəaliyyətinin prioritet istiqamətini təşkil edirdi. O dövrdə mədəniyyətin, elmin və ədəbiyyatın yenidən qurulması prosesi başlanmışdı. Əbəs deyil ki, Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəldiyi 1990-cı illərdə ondan bəhs edilən məqamlar məhz Ümummilli Liderin hakimiyyət dövrünün birinci mərhələsindəki quruculuq proseslərinə dayaqlanırdı.

Hakimiyyətdə olduğu zaman kəsimlərində Heydər Əliyev Azərbaycanın mənəvi reallığı üçün böyük siyasətçi, dövlət adamı olaraq həm də ədəbiyyatlaşan obrazı ilə göz önünə gəlir. Bu obraz ədəbiyyat üçün konkret nəyi ifadə edir? İlk növbədə ədəbiyyata, poeziyaya sevgini. Onun çıxışlarında milli ədəbiyyatımızı gərəyincə bütöv duyub anlamaq səriştəsi vardı, prosesə yanaşma strategiyası düzgün idi, bəhs etdiyi mövzularda problemlərin dərkini səmtləndirə bilirdi. Və ən əsası, Azərbaycan ədəbiyyatı haqqında öz anlayışı, müşahidəsi, elmi qənaətləri olan bir şəxsin prosesə konseptual yanaşmadan hasilə gələn məntiqi ehtiva olunurdu. Heydər Əliyev ədəbiyyatın keçdiyi inkişaf qanunauyğunluğunu bilərək onun üzərində özünəxas konsepsiya qururdu. Bu çıxışlarda ədəbiyyatı həm tarixi inkişaf kontekstində, həm nəzəri prizmadan, həm də real nəticələrində dəyərləndirə, aparıcı ədəbi tendensiyalar işığına tuta bilirdi. Heydər Əliyev eyni zamanda ədəbiyyatda, poeziyada milli ahəng yaratmaqla bahəm ümumbəşəri dəyərləri bir müstəviyə gətirmək kimi siyasi prizmadan çıxış edirdi. Çünki bilirdi ki, dilindən, dinindən, irqindən, təmsil etdiyi ictimai qurumdan asılı olmayaraq, hamını bir yerə toplayan bir ünvan var: Ədəbiyyat!

Bu mənada 1980-ci ilin 27-31 oktyabrında "Ədəbiyyatların dostluğu - xalqların dostluğudur" adı ilə keçirilən yazıçıların Ümumittifaq konfransında Heydər Əliyevin bütün dünyanı Bakıya cəm etməsi, onu hamı üçün Vətənə - ədəbi-bədii fikir məbədinə çevirməsi daha bir ali niyyətin göstəricisi idi. İmamverdi Əbilovun "Dünənin… sabahın… çağdaş dahisi" kitabında oxuyuruq: "Məhz həmin konfransdakı nitqi ilə Heydər Əliyev etnos-millət-bəşəriyyət bağlılığının harmoniyasına yeni istiqamətdə aydınlıq gətirdi. O, sadəcə, nitq söyləmədi, Şərq-Azərbaycan mədəniyyətinin mədəni dünya üçün nadir sərvət olduğunu, mənəvi missiya daşıdığını qonaqlara məharətlə aşıladı. M.F.Axundzadənin "Şərq poeması"ndan, Səməd Vurğunun "Zamanın bayraqdarı" əsərindən parçalar söylədi - həm azərbaycanca, həm də rusca. Vyaçeslav Sukaçev, Aleksandr Smerdov, Vasili Bıkov, Aqniya Barto, Zoya Kedrina, kubalı və hindistanlı qonaqlar salondakı təntənəli sükutdan, tükənməz alqışlardan heyrətə gəlmişdilər. Yanaşı əyləşdiyim hindistanlı yazıçı Prakaş Bharti çətin danışdığı rus dilində mənə qəribə sual verdi:

- Vaş rukovoditel poet ili prozaik?

Qonaq ölkə rəhbərinin yazıçı olduğuna tam inanmışdı, indi isə onun hansı janrda yazıb-yaratdığını bilmək istəyirdi.

Heydər Əliyevdən sonra çıxış edən SSRİ Yazıçılar İttifaqının sədri Georgi Markov, daha sonra Rəsul Həmzətov, David Kuqultinov Heydər Əliyevin düşüncə, ümumiləşdirmə və natiqlik mədəniyyətindən fövqəladə məhəbbətlə danışdılar".

Bu konfrans Azərbaycanın beynəlxalq aləmə çıxışında, dünyaya tanıdılmasında, onunla başqa dövlətlərin arasında çoxcəhətli elmi-ədəbi, mədəni əlaqələrin inkişafında böyük önəm daşıyırdı. Söhbət dünya ilə qurulan ünsiyyət və təmas körpüsündən, Bakını cari ədəbi-mənəvi məkana çevirmək amacının gerçəkləşməsindən gedirdi. Onun baş tutması, gerçəkləşməsi birbaşa Heydər Əliyevin ədəbiyyat sevgisinin gücü idi. Ədəbiyyata, poeziyaya bəslədiyi dərin münasibət, onu xalqın və dövlətin inkişafında əsas oriyentir hesab etməsi nəticə olaraq bu sahələrin də təşəkkülünə böyük stimul verirdi. Ədəbiyyatda əbədiləşən etnik kodun və psixoloji arxetiplərin üzə çıxarılması, dəyərləndirilməsi davamını çağdaş əxlaqa, mənəviyyata xidmət edən sənətdə tapır, dövrün qələm sahiblərinə ruhsal-mənəvi enerji aşılayırdı. Ona görə Heydər Əliyev epoxasında yaşayıb-yaradan şair və yazıçılar birmənalı şəkildə böyük lideri ədəbiyyatın hamisi sayır, Heydər Əliyevin siyasətdən başqa bir də ədəbiyyatlaşan obrazını fakt olaraq etiraf edirdilər: "Respublikada elə ab-hava yarandı ki, sənətə sənət meyarlarıyla qiymət verilməyə başlandı və bizdən yaşlı nəsil artıq müəyyən dərəcədə özünü təsdiq edib qoruya bilirdisə, bizim nəslin - 1960-cı illər nəslinin də ədəbiyyata, kinoya, teatra, sənətimizin başqa sahələrinə gəlib öz sözünü demək imkanı yaranmışdı. Bu imkanı bizə Heydər Əliyev yaratmışdı və onun dəstəyini, yardımını başqa nəsildaşlarım kimi, mən də daim hiss eləmişəm". Bu sözləri Anar 18 may 1998-ci ildə "Ədəbiyyat qəzeti"ndə çap etdirdiyi "Şəxsiyyətin miqyası" adlı məqaləsində, sonradan 2009-cu ildə çap etdirdiyi "Unudulmaz görüşlər" kitabında yazır.

Elçinin 1995-ci ildə qələmə aldığı "Tarixlə üz-üzə dayanmış adam" məqaləsində oxuyuruq: "...Altmışıncı illərdə ədəbiyyata gəlmiş ədəbi nəslin bir qələm sahibi kimi formalaşması yetmişinci illərə təsadüf etdi və bütün bu illərdə Azərbaycan ədəbiyyatı və ümumiyyətlə, Azərbaycan mədəniyyəti ilə bilavasitə Heydər Əliyev arasında mənəvi və mən deyərdim ki, məhrəmanə bir körpü yarandı".

Şair Nəriman Həsənzadənin xatirələrində dönə-dönə vurğulanır: "Heydər Əliyevin adı bizim üçün ilk növbədə ədəbiyyata sevgini, qayğını ifadə edir. Onun ədəbiyyatdakı xidmətini saymaqla qurtaran deyil. Yazıçılar, şairlər onun həmişə diqqət mərkəzində, himayəsində idilər".

İsmayıl Şıxlının çıxışlarında Heydər Əliyevin ədəbiyyat sevgisinə heyrəti yer alır: "Heydər Əliyev yoldaşın bizə, Azərbaycan yazıçılarına, klassik irsimizə xüsusi qayğı ilə yanaşması, Nizami, Mirzə Şəfi irsinin öyrənilməsinə, Nəsimi, S.Vurğun kimi sənət ustalarımızın geniş yubileylərinin keçirilməsinə xüsusi əhəmiyyət verməsi bizi sevindirməyə bilməz".

Nəbi Xəzri poeziyanın üfüqlərini Heydər Əliyevin qayğı və himayəsində aradığını bəyan edir: "H.Əliyev yoldaşın sadəliyi və müdrikliyi, dözümü və səbri, valehedici yaddaşı, ürəklərdən keçənləri mahir bir sənətkar duyğusuyla oxumaq məharəti hamımızı qanadlandırır və ruhlandırır".

Heydər Əliyev bu qayğı və diqqətini elə sovet imperiyasının daxilində - ən yüksək postda əyləşərək, ən əzəmətli kürsüləri bölüşərək, ən mötəbər tribunalardan səslənərək gerçəkləşdirirdi. Bu ideologiyanın müdaxilə etdiyi, incə bir siyasətlə həyata keçirdiyi məsələlərin - xalqı öz soykökündən, milli müəyyənliyindən, inancından qoparılması kimi gerçəklərin mahiyyətinə enirdi. Və bir daha unutmayaq. Sovet qanunlarının hələ işlək olduğu, tüğyan etdiyi bir dönəmdən gedir söhbət.

1970-ci illərdə ümumən respublikamızda klassik mədəni irsimizin öyrənilməsi baxımından tamamilə yeni mərhələ başladı. Həmin mərhələ bilavasitə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Şərqin ən böyük dastanı olan "Kitabi-Dədə Qorqud" dastanının xalqa qaytarılmasında Heydər Əliyev böyük işlər gördü. Eləcə də böyük Azərbaycan şairləri Nizami Gəncəvi, İmadəddin Nəsimi ilə bağlı Heydər Əliyevin gerçəkləşdirdiyi işlər bu şairlərin irsinin yeni təfəkkür qatına, milli şüur və yaddaşa bədii-estetik çalar qatmasını izləməyə imkan verir. Yaxud 1982-ci il yanvarın 15-də Şuşada M.P.Vaqif məqbərəsinin açılışı Heydər Əliyev üçün əbədiləşən tarixi yaddaş baxımından əhəmiyyətli idi.

Heydər Əliyevin üzərinə düşən missiya çətin idi. O, fəaliyyətinə qırılmış xəttin, güdaza verilmiş dəyərlərin, itirilən meyarların bərpası kontekstində başladı. Böyük liderin ədəbiyyatda gerçəkləşdirdiyi işlər, klassiklərə qayıdış, milli ədəbiyyata güvənc hissinin qabarıqlığı sistemin yaratdığı mif anlayışını yazıçı düşüncəsində heçə endirir, onun tənəzzülünü labüdləşdirirdi. İslahatlar ədəbi-mədəni həyatımızın bütün sferalarına sirayət etdikcə milli mənlik şüuru önə keçir, milli məfkurə işığı dalğalanmağa başlayırdı. Bu mənada 1990-cı illərin əvvəllərində insanların öz azadlığını qazanması üçün meydana axışması, haqqını geri almaq təşnəsi birmənalı təfsirə gəlmir, onun kökləri bir qədər dərinlərə işləyib mövcudluğunu iki onillik əvvəldə, Heydər Əliyev dühasının imkan verdiyi azad söz zamanında, sovet ədəbiyyatı daxilində yaranmağa cəsarət etmiş hürr duyğulu, millət problematikalı poeziya mətnlərində tapır. Bunu meydanda olan faktlar deyir: Nəriman Həsənzadə "Heydər Əliyevin şəxsində mən "Bütün Şərq bilsin" pyesinin qəhrəmanını, Nəriman Nərimanovun prototipini görürdüm" yazır, Qabil qeydlərinin birində "Ömür həbləri" romanında Heydər Əliyevin də obrazını düşündüyünü bildirir. Mövlud Süleymanlı "Dəyirman" povestinin 70-ci illərin sağlam, duru, doğma ab-havanın məhsulu kimi meydana çıxdığını və üstəlik əsərlə bağlı "Azərbaycanı bürüyən" hücumdan onu Heydər Əliyevin qoruduğunu dilə gətirir. "Yaxud "İdeal"ın müəllifi İsa Hüseynov onu yazanda Heydər Əliyevi düşündüyünü söyləyir. Bu məqam Bəxtiyar Vahabzadənin şair mövqeyində dönədönə səslənir, habelə Məmməd Arazın etirafında var, Xəlil Rza şeirinin odlu nəfəsi bu məqama toxunur... Bütöv bir epoxa Azərbaycan ədibləri bunu deyir, etiraf, mətn, ədəbiyyat və əbədiyyətə israr məqamlarında Ümummilli Liderin əzəmətli kimliyinə istinad edirlər.

Bu məqamda bir məsələni də vurğulamağa ehtiyac var. Heydər Əliyev yalnız qorumurdu, yalnız himayə etmirdi, yalnız cəsarət aşılamırdı. O həm də sahib çıxmağı bacarırdı. Bu barədə əlbəttə, kifayət qədər təcrübə və bacarıq sahibi idi, amma onlarla bahəm (və daha əsas!) millətinə və xalqına can yanğısı vardı. Böyük şairimiz Məhəmməd Füzuli ilə bağlı Heydər Əliyevin qatlaşdığı çətinliklər və onun bu istiqamətdə əzmkar fəaliyyəti fikirlərimizə əyani sübutdur. 1977-1981-ci illərdə böyük Azərbaycan şairi Məhəmməd Füzulinin qəbrinin qorunması və məqbərəsinin tikilməsi ilə bağlı gördüyü çoxyönlü işlər yorulmaz, inadlı və əzmkar mübarizələri bu siyasi liderdən hər cür yüksək məzmunda danışmağa əsas verir.

Heydər Əliyev siyasətinin dissident ruhu 1982-ci ildə daha bir misilsiz hadisə ilə nəhayətsiz miqyas aldı. Böyük Azərbaycan şairi Hüseyn Cavidin nəşinin Sibir çöllərindən vətənə gətirilməsi haqda sərəncam verdi Heydər Əliyev. Bu hadisəni Heydər Əliyevin siyasi fəaliyyətinin şah əsəri saymaq olar. Axı söhbət 1937-ci ilin repressiya dalğasının güdaza verdiyi faciə qəhrəmanından gedirdi. 1982-ci il sovet dövrü hələ bitməmişdi, heç buna işarələr belə yox idi. Rəsmi sənədlər üzərində bəraətlər verilib, amma düşüncədə hələ də repressiya havası, qorxusu, ürpərtisi, həyəcanı davam edirdi. Heydər Əliyev bu addımı ilə gerçəyi qorxulardan önə çıxartdı, Cavidin nəşini vətənə qaytarmaqla elə ilk növbədə qorxunun üzərindəki örtüyü götürüb atmağa müvəffəq oldu.

Cavidlə bağlı missiya bununla yekunlaşmır. Həmin vaxt Heydər Əliyevin göstərişi ilə Naxçıvanda Hüseyn Cavidə məqbərə tikilməsi qərara alınır. Lakin 1982-ci ildə respublikadan gedəndən sonra bu yöndə heç bir iş görülmür. Liderin 1993-cü ildə ölkəyə rəhbər kimi qayıdışından sonra işlərə yenidən təkan verilir. Naxçıvanda Hüseyn Cavidin əzəmətli məqbərəsi tikilir. Hazırda məqbərədə Cavidlər ailəsi - Cavidin, həyat yoldaşı Mişkinazın, oğlu Ərtoğrulun və qızı Turan Cavidin məzarları yan-yana uyuyur.

Heydər Əliyev milli ədəbiyyatımızın şərəfli tarixidir, faktıdır, əhəmiyyətli və gərəkli məxəzidir. Bu məxəz bütün estetik ruh halı ilə fərqli duyumun, fərqli yaşamın şəklidir. Heydər Əliyev ruhunun ədəbiyyatda gerçəkləşən şəkli... Və siyasətdə göründüyü qədər həm də ədəbiyyatın obrazıdır!

*1980-ci illər... Heydər Əliyev hakimiyyətdən uzaqlaşdırıldı. Təbii ki, dissident siyasəti yürütdüyünə görə. Meydanda isə 1970-1980-ci illərin - Heydər Əliyev zamanının reallaşdırdığı gerçəklər sırası vardı. Ölkə və xalq adına görülən əməllərin özülünün qoyulduğu mərhələ vardı. Danılmaz həqiqətdir ki, 1970-1980-ci illər Azərbaycan ədəbiyyatı Heydər Əliyevin müəyyənləşdirdiyi əxlaqi-milli-mədəni aktın ilhamçısı və icraçısıdır. Cari prosesin, yazılan əsərlərin, bütöv ədəbi hərəkatın ideya zəmini rolunda çıxış edən aparıcı simadır Heydər Əliyev. Sovet epoxası daxilində bütün ölkə miqyasında sosial-tarixi, ədəbi-estetik qanunauyğunluqlarla müasir ədəbiyyatın özünün bədii-fəlsəfi ənənəsi arasında əlaqə, körpü rolunu məhz Heydər Əliyev icra etdi. Ədəbiyyatın uzun illərin mənəvi təmassızlığından sonra yeni bir bədii-fəlsəfi zirvədən keçmişə, özünə qayıtma dövrü məhz Heydər Əliyevin sayəsində gerçəkləşdi. Hamının və hər kəsin vurğulayacağı bu gerçəyin üzərinə tarix yenidən qayıdacaqdı. Qayıtdı da. Bu dəfə əbədi!*

***Elnarə AKİMOVA,***
***Milli Məclisin deputatı,***
***YAP İdarə Heyətinin üzvü,***
***filologiya elmləri doktoru***

# Güclü və qalib Azərbaycanın reallığı

**Tarixdə elə şəxsiyyətlər olur ki, onların fəaliyyəti yalnız müəyyən bir dövrü deyil, bütöv bir xalqın gələcəyini müəyyən edir. Heydər Əliyev məhz belə dövlət xadimi idi. Danılmaz faktdır ki, Azərbaycanın müasir dövlətçiliyi məhz Heydər Əliyevin adı ilə qırılmaz şəkildə bağlıdır.**

Heydər Əliyev hələ sovetlər dönəmində SSRİ kimi nəhəng bir dövlətin ali rəhbərliyində, Siyasi Büro üzvü və Nazirlər Soveti sədrinin birinci müavini kimi yüksək post tutmaqla həm Azərbaycan Respublikasının potensialını ittifaq miqyasında reallaşdırmış, həm də respublikanın irəliyə doğru inkişaf etməsi üçün əlindən gələni əsirgəməmişdir.

Tarixi faktlar göstərir ki, Heydər Əliyevin siyasi nüfuzu həm də regionda sabitliyin ən böyük qarantı olub. Heydər Əliyev hakimiyyətdə olduğu dövrdə erməni separatizmi baş qaldıra bilmirdi, belə təhdidlərin qarşısı qətiyyətlə alınırdı. Onun gedişi isə regionda geosiyasi boşluğun yaranmasına və mürəkkəb münaqişələrin başlanmasına rəvac verdi.

1993-cü ildə Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanı dövlət kimi süqut etmək təhlükəsindən xilas etdi. Ölkəmiz xaos və vətəndaş qarşıdurması təhlükəsi ilə üz-üzə qaldığı bir zamanda məhz Heydər Əliyevin qətiyyəti, siyasi iradəsi və müdrikliyi Azərbaycan dövlətini məhv olmaqdan xilas etdi. Onun rəhbərliyi altında qısa müddətdə ölkədə sabitlik bərpa olundu, dövlət institutları möhkəmləndirildi, dövlət quruculuğunda yeni mərhələnin əsası qoyuldu, qanunsuz silahlı birləşmələr zərərsizləşdirildi və paralel olaraq Azərbaycanın gələcək inkişaf strategiyası müəyyənləşdirildi.

1995-ci ildə qəbul edilmiş ilk milli Konstitusiya ilə hakimiyyət bölgüsü və mərkəzləşmiş prezident idarəetmə modeli təsbit olundu, cəmiyyət üçün hüquqi idarəçilik müəyyən edildi. Azərbaycanı iqtisadi qüdrətə yüksəldən "Əsrin müqaviləsi"nin imzalanması ilə isə ölkə qlobal iqtisadi sistemə inteqrasiya olundu. Bununla Azərbaycanın həm maliyyə müstəqilliyi, həm də beynəlxalq təhlükəsizlik təminatı gücləndirildi.

Xarici siyasətdə "geosiyasi balanslaşdırma" kursu seçilərək, Azərbaycan böyük güclərin rəqabət meydanı olaraq deyil, bərabərhüquqlu tərəfdaş kimi təqdim edildi. Beləliklə, Heydər Əliyevin uzaqgörən siyasəti XXI əsrin qüdrətli və suveren Azərbaycan dövlətinin fundamental bazasının yaradılması strategiyasının əsasını qoydu. Mövcud tarixi gerçəkliklər sübut edir ki, Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı dövlətçiliyimizin xilası idi.

Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Heydər Əliyevin siyasi kursu uğurla davam etdirilir. Güclü dövlət, qüdrətli ordu, qalib Azərbaycan reallığı Heydər Əliyev ideyalarının təntənəsidir. Xüsusilə də ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunması Heydər Əliyevin xalqımıza miras qoyduğu dövlətçilik fəlsəfəsinin ən böyük zəfərlərindən biridir.

*Heydər Əliyev yalnız böyük siyasətçi deyildi, həm də milli-mənəvi dəyərlərimizin qoruyucusu idi. O, azərbaycançılıq məfkurəsini dövlət ideologiyası səviyyəsinə yüksəldərək milli birliyimizin əsas sütununu formalaşdırdı. Təsadüfi deyil ki, Heydər Əliyevin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" kəlamı hər bir vətəndaş üçün qürur və vətənpərvərlik nümunəsinə çevrilib.*

***Arzuxan ƏLİZADƏ,***
***Milli Məclisin deputatı,***
***Azərbaycan Milli İstiqlal Partiyasının sədri***



# Ulu Öndərin ideyaları işığında şəhər ekosistemlərinin dayanıqlı inkişafı və "yaşıl transformasiya" paradiqması

**Müasir Azərbaycanın qurucusu Ümummilli Lider Heydər Əliyevin dövlətçilik siyasətinin əsas istiqamətlərindən biri də təbiətin qorunub saxlanılması və onun sərvətlərindən gələcək nəsillərin rifahı naminə səmərəli istifadə edilməsindən ibarət olmuşdur. Böyük dövlət xadiminin uzaqgörən ideyaları bu gün həyatın digər istiqamətləri ilə yanaşı, şəhər ekosistemlərinin "yaşıl transformasiya"sı, antropogen təzyiq altında olan biomüxtəlifliyin qorunub saxlanılması və dayanıqlı inkişaf prinsiplərinin tətbiqində öz əksini tapır. Şəhər landşaftlarında "yaşıl gələcəy"ə aparan yol məhz bu strateji baxışların davamı və inkişafı kimi formalaşır.**

## Müasir şəhər ekologiyası nədən soraq verir

XXI əsr urbanizasiya prosesinin qlobal inkişafın əsas göstəricilərindən birinə çevrilməsi ilə xarakterizə olunur. Hazırda Yer kürəsi əhalisinin 56-57 faizi şəhərlərdə yaşayır. Birləşmiş Millətlər Təşkilatı tərəfindən yayımlanan "Dünya üzrə urbanizasiyanın perspektivləri" hesabatına əsasən, 2050-ci ilə qədər həmin rəqəm 68-70 faiz təşkil edəcək. Bu isə o deməkdir ki, şəhərlər planetin ekoloji balansına real təsir etmək gücünə malik bir sistem rolunu oynayır.

BMT-nin planlaşdırmada ekosistem yanaşmanın tətbiqini, inklüziv və yaşıl şəhər modellərinin qurulmasını önə çəkən "Yeni Şəhər Gündəliyi"ndəki (2016) qeydlərə görə, qlobal ümumi daxili məhsulun təxminən 80 faizi şəhərlərin payına düşür, enerjinin 75 faizi şəhərlərdə istehlak olunur, karbon emissiyalarının 70 faizindən çoxunun mənbəyi də məhz iri aqlomerasiyalar və meqapolislərdir. Bu baxımdan şəhərlərin dayanıqlı inkişaf modelinə keçidinin strateji prioritet olması tamamilə normaldır.

Müasir şəhər ekologiyası anlayışı təbiətin qorunması məsələləri ilə məhdudlaşmır. Bu yanaşma şəhərlərin kompleks sosial-ekoloji sistemlər kimi qiymətləndirilməsinə əsaslanır. IPBES (Biomüxtəliflik və Ekosistem Xidmətləri üzrə Hökumətlərarası Elm-Siyasət Platforması) tərəfindən təqdim edilən ekosistem xidmətləri konsepsiyasına əsasən, şəhərlərdə təbiətin rolu dörd əsas istiqamətdə təzahür edir: təminedici xidmətlər (qida, su, xammal), tənzimləyici xidmətlər (iqlim, su dövranı, havanın keyfiyyəti), mədəni xidmətlər (rekreasiya, estetik dəyər), dəstəkləyici xidmətlər (torpaq formalaşması, fotosintez).

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) tövsiyələrinə görə, şəhər ərazilərində hər nəfərə ən azı 9 $m^2$ yaşıl sahə düşməsi sağlamlıq üçün minimum standart hesab olunur. Lakin bir çox şəhərdə bu göstərici 1-5 $m^2$ təşkil edir ki, bu da müvafiq ekosistemlərdə insan sağlamlığı üçün potensial təhlükəyə yol açır.

## Milli siyasət və institusional təşəbbüslər

Son illər Azərbaycanda ekoloji siyasət dövlət idarəetməsinin sistemli və strateji istiqamətlərindən birinə çevrilmişdir. Prezident İlham Əliyev tərəfindən irəli sürülən "yaşıl enerji" zonaları konsepsiyası, xüsusilə Qarabağın "yaşıl enerji" regionu kimi inkişaf etdirilməsi təşəbbüsü ölkənin bərpaolunan enerji növlərinə keçidini və iqlim gündəliyinə inteqrasiyasını təmin edən əsas siyasi alətlərdəndir. Müvafiq dövlət proqramları əsasında genişmiqyaslı meşəsalma və yaşıllaşdırma təşəbbüsləri, o cümlədən milyonlarla ağacın əkilməsi proqramları həyata keçirilir, günəş və külək enerjisi üzrə generasiya gücləri mərhələli şəkildə artırılır, şəhər mühitində elektrik nəqliyyatının tətbiqi və müvafiq infrastrukturun qurulması prioritetləşdirilir.

Dövlət siyasəti ilə paralel olaraq, qeyri-hökumət və ictimai institutlar da ekoloji fəaliyyətlərin genişləndirilməsində mühüm rol oynayırlar. Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən layihələr şəhər mühitində yaşıllıq örtüyünün artırılması, yeni park və rekreasiya zonalarının yaradılması, həmçinin ekoloji maarifləndirmənin gücləndirilməsi baxımından əhəmiyyətli nəticələr vermişdir. Eyni zamanda IDEA İctimai Birliyinin biomüxtəlifliyin qorunması sahəsində beynəlxalq təcrübəyə əsaslanan layihələri də qeyd edilməlidir. Bu fəaliyyətlər çərçivəsində nadir və nəsli kəsilmək təhlükəsi altında olan flora və fauna növlərinin reintroduksiyası proqramları icra olunur, Xəzər suitisi kimi endemik növlərin mühafizəsinə yönəldilmiş uzunmüddətli layihələr həyata keçirilir, ekoloji təhsil və ictimai məlumatlandırma kampaniyaları təşkil edilir.

## Azərbaycan şəhərləri ekoloji transformasiya mərhələsində

Mürəkkəb relyef və torpaq-iqlim xüsusiyyətləri ilə seçilən Azərbaycan ərazisi dünyanın ən zəngin biomüxtəliflik məkanlarından biri hesab edilən Qafqaz ekoregionunun ayrılmaz hissəsidir və bu status onun qlobal miqyasda ekoloji əhəmiyyətini müəyyənləşdirir. Ölkənin şəhərlərində, məsələn, Bakı, Gəncə, Şəki, Ordubad və s. kimi yaşayış məntəqələrində təbii landşaft elementləri ilə şəhər mühiti arasında qarşılıqlı əlaqə aydın şəkildə müşahidə olunur. Bu xüsusiyyət Azərbaycan şəhərlərini klassik sənayeləşmiş urban məkanlardan fərqləndirərək, onları təbii-ekoloji sistemlərlə sıx inteqrasiya olunmuş yaşayış mühitinə çevirir.

Bakı tarixən quru yarımsəhra iqlim şəraiti, güclü küləklər və yüksək buxarlanma ilə səciyyələnən, yaşıllaşdırma baxımından problemli şəhər olmuşdur. Burada bir ağac əkib ərsəyə gətirmək üçün uzun illərin zəhməti və elmi əsaslı qulluq, müvafiq resurslar tələb olunur. 100-150 il əvvəl buraları ziyarət etmiş səyyahların xatirə yazılarında Bakı boz rəngdə, bitkisiz bir səhraya bənzər şəkildə təsvir edilmişdir.

Şübhəsiz ki, memarlıqla yanaşı, yaşıllıqlar, təmiz hava və gələcəyə hesablanmış ekoloji düşüncənin mövcudluğu hər hansı şəhəri fərqləndirən və gözəlləşdirən əsas amillərdəndir. Azərbaycan reallığında bu yanaşmanın dövlət səviyyəsində sistemli məzmun qazanması məhz Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi dövrünə təsadüf edir. Böyük azərbaycanlının başçılığı ilə 1969-1982-ci illərdə ölkədə ilk dəfə ümumxalq miqyaslı yaşıllaşdırma siyasəti həyata keçirilmiş, paytaxtın ekoloji taleyi dəyişdirilmişdir. Rəsmi və elmi mənbələrdə göstərilir ki, 1970-ci ildə Bakıda adambaşına cəmi 6,5 $m^2$ yaşıllıq sahəsi düşürdüsə, 1971-ci il 7 sentyabr tarixli müvafiq qərarın icrası nəticəsində bu göstərici 1975-ci ildə 17,5 $m^2$ təşkil etmişdir. Həmçinin eyni dövrdə respublikanın dövlət meşə fondu torpaqlarında 51 min hektar sahədə yeni meşəliklər salınmış, eroziyaya məruz qalmış və kənd təsərrüfatı dövriyyəsindən çıxarılmış ərazilərdə, o cümlədən Xəzərsahili qumluqlarda 68,1 min hektar qoruyucu meşə zolaqları yaradılmışdır.

Ulu Öndərin şəhərsalma məsələlərinə baxışında yaşıllaşdırma sosial rifah, sağlamlıq və ekoloji sabitlik aləti kimi dəyərləndirilmişdir. Heydər Əliyevin təşəbbüsü və dəstəyi ilə Bakıda yeni parklar, xiyabanlar və yaşıllıq zolaqları salınmış, paytaxtın su təchizatı və abadlaşdırılması ilə bağlı görülən işlər yaşıl örtüyün genişləndirilməsi üçün real zəmin yaratmışdır. Mənbələrdə ayrıca vurğulanır ki, Bakı və ətraf ərazilərdə su infrastrukturunun yaxşılaşdırılması, mərkəzi su anbarlarının tikilməsi, yeni supaylayıcı şəbəkələrin qurulması, habelə "Bakını yaşıllıqlar diyarına çevirək" şüarı ilə aparılan tədbirlər paytaxtın ekoloji simasını köklü şəkildə dəyişmişdir. Bu prosesin ən parlaq nümunələrindən biri Dənizkənarı bulvarın inkişaf tarixidir: 1970-ci illərdə dövlət səviyyəsində geniş yaşıllaşdırma və abadlaşdırma işləri nəticəsində bulvarın yenidən qurulması həyata keçirilmiş, şərq və qərb istiqamətlərində genişləndirilməklə uzunluğu 3,7 kilometrə çatdırılan bulvar şəhərin mikroiqlimini tənzimləyən, rekreasiya ehtiyacını ödəyən mühüm yaşıl infrastruktur obyektinə çevrilmişdir.

Qeyd olunan işlərin dəyəri sonradan hüquqi və institusional müstəvidə də öz əksini tapmışdır. Azərbaycan Prezidentinin 1998-ci il 29 dekabr tarixli fərmanı ilə Bakı şəhərindəki Dənizkənarı bulvara Milli Park statusu verilmiş, 2019-cu il tarixli Əsasnamədə isə bu zonanın respublika əhəmiyyətli xüsusi mühafizə olunan təbiət ərazilərinə aid olduğu bir daha rəsmiləşdirilmişdir. Sənəddə parkın yaradılma məqsədləri arasında ətraf mühitin mühafizəsi, Bakı şəhərinin estetik gözəlliyinin və tarixi simasının qorunması, şəhər sakinləri və turistlər üçün əlverişli istirahətin təşkili, nadir bitki növlərinin mühafizəsi məsələləri xüsusi yer tutur. Bütün bunlar Heydər Əliyev dövründə başlanılmış xəttin dövlətçilik məntiqi çərçivəsində reallaşdırılan ekoloji siyasət olduğunu göstərir. Bulvarın təkcə şəhər məkanı kimi deyil, milli mədəniyyətin bir parçası kimi dəyərləndirilməsi də həmin baxışın davamıdır.

Heydər Əliyevin formalaşdırdığı "yaşıl inkişaf" xətti müstəqillik dövründə ölkənin şəhərsalma və ekoloji siyasətində mühüm istiqamətlərdən biridir. Son illərin rəsmi məlumatlarında Bakıda və regionlarda yeni parkların salınması, mövcud yaşıllıq sahələrinin yenidən qurulması, bulvarın daha da genişləndirilməsi, hibrid yaşıl dəhlizlərin və ictimai rekreasiya məkanlarının təşkili bu tarixi xəttin yeni mərhələyə keçdiyini göstərir. Hazırda Bakının "yaşıl şəhər" kimi təqdim olunması, ekoloji tarazlığın bərpasına yönəldilən layihələr, əslində, təməli Heydər Əliyev tərəfindən qoyulan strateji istiqamətin müasir inkişaf modelinə çevrilməsinin nəticəsidir. Ulu Öndər bu fəaliyyəti ilə Azərbaycanın ekoloji mədəniyyətini, şəhərsalma fəlsəfəsini və təbiətə münasibətini müəyyənləşdirən dövlətçilik məktəbi yaratmışdır.

Bakı şəhərinin yaşıllıq sistemində xüsusi yer tutan obyektlərdən biri də Ulu Öndərin hər zaman diqqət mərkəzində olmuş Mərkəzi Nəbatat Bağıdır. 1930-cu illərdə yaradılan bu bağ elmi-tədqiqat məqsədləri ilə yanaşı, şəhərin ekoloji sabitliyinə xidmət edən mühüm yaşıl infrastruktur elementi kimi formalaşmışdır. Mərkəzi Nəbatat Bağı faktiki olaraq "iri bir yaşıl ada", "Bakının yaşıllıq xəzinəsi" funksiyasını yerinə yetirir. Burada müxtəlif iqlim zonalarına aid bitkilər toplanmış, introduksiya edilmiş və iqlimləşdirilmişdir ki, bu da həm biomüxtəlifliyin qorunması, həm də yeni dekorativ və davamlı bitki növlərinin şəhər yaşıllaşdırılmasında tətbiqi baxımından mühüm əhəmiyyət daşıyır. Son illər dövlət başçısının məqsədyönlü dəstəyi ilə Nəbatat Bağında aparılan yenidənqurma və modernləşdirmə işləri bağın rekreasiya potensialını artırmış, Bakı şəhərinin ekoloji karkasında bu unikal yaşıl məkanın mövqeyini gücləndirmişdir.

Bakıda şəhərsalmada yaşıllıq infrastrukturunun genişləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər sırasında həmçinin Qış parkının salınması, uzun illər plansız və qəzalı tikililərlə yüklənmiş "Sovetski" ərazisinin yenidən qurularaq geniş park məkanına çevrilməsi xüsusilə diqqətəlayiqdir. Son illərdə paytaxtda bir sıra digər yaşıllıq layihələri də reallaşdırılmışdır. Bunlardan Dədə Qorqud parkı, Zabitlər parkı, Nərimanov rayonu ərazisində və "Ağ şəhər" kompleksi çərçivəsində salınan yeni parklar, "yaşıl dəhlizlər", həmçinin Heydər Əliyev Mərkəzinin ətrafındakı geniş yaşıllıq zonası xüsusi qeyd olunmalıdır.

## Şəhərsalma forumu və yeni urban gündəm

Prezident İlham Əliyev tərəfindən 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ölkədə urbanizasiya prosesinin yeni mərhələyə keçidini ifadə edən strateji qərar kimi dəyərləndirilə bilər. Bu qərar şəhərsalmada institusional yanaşmaların gücləndirilməsini, müasir prinsiplərin tətbiqini və memarlıq fəaliyyətində innovativ həllərin təşviqini məqsəd kimi qarşıya qoyur.

Məhz bu baxımdan Bakının 17-22 may 2026-cı il tarixlərdə on minlərlə nümayəndənin, dövlət və hökumət başçıları, memar, urbanist, ekoloq və digər ekspertlərin, geniş ictimaiyyətin iştirak edəcəyi möhtəşəm bir tədbirə - BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) tərəfindən keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına (WUF13) evsahibliyi etməsi xüsusi əhəmiyyətə malikdir. Öz sahəsində ən nüfuzlu qlobal platformalardan biri olan bu tədbirin əsas mövzusu "Dünyanı mənzillə təmin etmək: təhlükəsiz və dayanıqlı şəhərlər və icmalar" kimi müəyyən edilmişdir ki, bu da qlobal miqyasda normal həyat şəraitinin əlçatanlığı, qeyri-formal məskunlaşma və urban bərabərsizliyi problemlərinin aktuallığını əks etdirir.

Forum çərçivəsində müzakirə olunacaq dayanıqlı və inklüziv şəhər planlaşdırılması və yaşıllaşdırılması, ekosistem əsaslı yanaşmalar, iqlim dəyişmələrinə adaptasiya, şəhər dayanıqlılığı, "ağıllı şəhər" texnologiyalarının tətbiqi və rəqəmsal transformasiya kimi prioritet istiqamətlər müasir şəhərsalma elminin əsas çağırışlarını əhatə edir. Bakı şəhəri forum vasitəsilə qlobal təcrübənin, innovativ yanaşmaların müzakirə olunduğu, beynəlxalq əməkdaşlığın gücləndirildiyi platformaya çevrilməklə yanaşı, son illərdə ölkədə həyata keçirilən kompleks abadlıq və yaşıllaşdırma layihələri, nəqliyyat infrastrukturunun modernləşdirilməsi və ictimai məkanların genişləndirilməsi urban transformasiyasının praktiki nümunələri kimi təqdim olunacaq.

## Bakı üçün strateji seçim

Beynəlxalq sənədlər, statistik göstəricilər və qlobal təcrübə təsdiq edir ki, şəhərlərin gələcək inkişafı birbaşa onların ekoloji sabitliyindən asılıdır. Bakı bu kontekstdə həm ciddi çağırışlar, həm də perspektivli imkanlar qarşısındadır. COP29-un təklif etdiyi çərçivələr, dövlət strategiyaları və vətəndaş cəmiyyəti təşəbbüsləri Bakının və digər şəhərlərimizin transformasiyası üçün möhkəm institusional baza yaradır.

Mövcud nailiyyətlərlə yanaşı, Bakı şəhərinin ekoloji sistemində bir sıra struktur problemləri hələ də qalmaqdadır. Bunlara nəqliyyat vasitələrinin sayının və tıxacların artması ilə əlaqədar atmosfer havasının çirklilik dərəcəsinin yüksəlməsi, yaşıllıq sahələrinin qeyri-bərabər paylanması və bəzi ərazilərdə onların çoxmərtəbəli tikililər və sərt örtüklərlə əvəz olunması, kollektor-kanalizasiya sistemindəki çatışmazlıqlar və s. daxildir. Eyni zamanda su resurslarının, xüsusilə yağış sularının qeyri-səmərəli idarə edilməsi (halbuki bu sular düzgün yanaşma ilə alternativ təmiz su mənbəyinə çevrilə bilər), drenaj sistemlərinin yetərli dayanıqlılığa malik olmaması, biomüxtəlifliyin azalması və yaşayış mühitlərinin fraqmentasiyası, eləcə də torpaq deqradasiyası və şoranlaşma kimi problemlər də aktual olaraq qalır.

Qeyd edilən problemlərin səmərəli həlli üçün yaşıllaşdırmada istifadə olunan bitkilərin introduksiyası elmi əsaslarla həyata keçirilməli, yerli və adaptiv növlərə üstünlük verilməlidir. Allergik və digər patoloji təsir potensialı olan bitkilərin istifadəsi məhdudlaşdırılmalı, bitki yetişdirilməsi, müasir qulluq və inteqrir mühafizə texnologiyalarının tətbiqi genişləndirilməlidir. Landşaft dizaynında "istilik adası" effektini azaldan material və örtüklərin seçimi, kölgələndirmə sistemlərinin və su elementlərinin inteqrasiyası əsas prinsiplərdən olmalıdır.

Ətraf mühitə düşən yükün azaldılması məqsədilə elektrik nəqliyyatından istifadənin genişləndirilməsi, velosiped və piyada infrastrukturunun inkişafı istiqamətində işlər daha fəal şəkildə həyata keçirilməlidir. Eyni zamanda son dövrlərdə müşahidə olunan intensiv yağıntılar göstərir ki, su resurslarının elmi əsaslı idarə olunması şəhər təsərrüfatının prioritet məsələlərindən olmalıdır. Bu baxımdan yağış sularının toplanması və təkrar istifadəsi texnologiyalarının tətbiqi, keçirici örtüklərdən istifadə və drenaj sistemlərinin dayanıqlı şəkildə modernləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Şəhər miqyasında daimi fəaliyyət göstərən ekoloji monitorinq sistemlərinin qurulması da vacib istiqamətlərdəndir. Bunun üçün sensor şəbəkələrinin yaradılması, şəhər idarəçiliyində rəqəmsallaşdırma, "big data" və GIS əsaslı texnologiyaların tətbiqi qərarqəbuletmə prosesinin elmi əsaslara söykənməsini təmin edə bilər. Qeyd olunanlarla yanaşı, vətəndaş cəmiyyəti institutlarının bu proseslərə cəlb olunması, bütün səviyyələrdə ekoloji maarifləndirmənin gücləndirilməsi, şəhər bağçılığı və icma əsaslı yaşıllaşdırma təşəbbüslərinin dəstəklənməsi dayanıqlı və inklüziv urban inkişafın mühüm tərkib hissəsi kimi çıxış edir.

*Bakı qarşıdakı onillikdə öz inkişafında yeni mərhələyə qədəm qoyacaq. Qlobal platformalar və milli səviyyədə həyata keçirilən ekoloji siyasət şəhərin dayanıqlı, inklüziv və iqlimədavamlı modelə transformasiyası üçün əlverişli zəmin yaradır. Elmi əsaslara söykənən, inteqrativ və uzunmüddətli yanaşma tətbiq edildiyi halda Bakı yalnız regionda deyil, daha geniş coğrafiyada "yaşıl şəhər" modelinin uğurlu nümunələrindən birinə çevrilə bilər.*

***İradə HÜSEYNOVA,***
***AMEA-nın vitse-prezidenti, akademik***

# Ulu Öndər Heydər Əliyev Bişkekdə anılıb

**Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü münasibətilə Azərbaycanın Qırğızıstandakı səfirliyi Bişkek şəhərində yerləşən Heydər Əliyev adına 20 nömrəli gimnaziyada tədbir təşkil edib.**

Səfirlikdən AZƏRTAC-a bildirilib ki, tədbirdən əvvəl məktəbin foyesində ucaldılmış Heydər Əliyevin büstü önünə gül dəstələri düzülüb.

Sonra səfir və səfirliyin əməkdaşları məktəbin 5-ci və 7-ci siniflərində "Heydər Əliyev" və "Lider kimdir?" mövzularında təşkil olunmuş açıq dərslərdə iştirak ediblər.

Daha sonra gimnaziyanın şagirdlərinin iştirakı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının ildönümünə həsr olunmuş musiqili-bədii konsert keçirilib.

Məktəbin direktoru Kanıkey Alımkılova çıxış edərək bildirib ki, Ulu Öndər Heydər Əliyevin doğum günü bu məktəb üçün xüsusi əhəmiyyət daşıyır. Məktəbin müəllim və şagirdləri bu günə xüsusi hazırlaşır, Ümummilli Lider Heydər Əliyevə və Azərbaycan-Qırğızıstan dostluğuna həsr olunmuş dərs saatları, viktorinalar, rəsm sərgiləri təşkil olunur, şagirdlər şeirlər, mahnılar və milli rəqslər hazırlayırlar. O qeyd edib ki, bütün bunlar şagirdlərin vətənpərvərlik ruhunda tərbiyə olunmasına müsbət təsir göstərir və məktəbin şagirdləri Ulu Öndər Heydər Əliyevin xarakter və xüsusiyyətlərini öyrənərək özlərini ona bənzətməyə çalışırlar.

Sonra səfir Lətif Qəndilov çıxış edərək Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin həyat yolu barədə şagirdlərə geniş məlumat verib. O, Ulu Öndər Heydər Əliyevin liderlik xüsusiyyətləri, vətən sevgisi, uşaqlara və gənclərə münasibəti barədə danışıb.

Tədbir məktəblilərin ifasında rəqs, mahnı və hər iki dildə səsləndirilən şeirlərlə davam edib.

# Parisdə Ümummilli Liderin anadan olmasının 103-cü ildönümü qeyd edilib

**Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü Parisdə ehtiramla anılıb.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanın Fransadakı səfirliyinin təşkilatçılığı ilə keçirilən anım tədbirində səfir Leyla Abdullayeva, ölkəmizin UNESCO yanında daimi nümayəndəsi Elman Abdullayev və Azərbaycan Silahlı Qüvvələrinin Fransadakı attaşesi polkovnik Cavid Abdullayev çıxış edərək, Ulu Öndərin xalqımızı zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmasından, qətiyyətli mübarizə apararaq onu müstəqilliyə qovuşdurmasından danışıblar.

Bildirilib ki, Ulu Öndərin strategiyası sayəsində bu gün Azərbaycan bütün regionda sabitliyin qarantına çevrilib. Azərbaycanın UNESCO, eləcə də digər nüfuzlu beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq əlaqələri qurmasında, bir çox beynəlxalq təşkilata üzv olmasında Ümummilli Liderin əvəzsiz rolu olub.

Vurğulanıb ki, davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir və Ulu Öndərin əsasını qoyduğu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Qeyd olunub ki, Ümummilli Liderin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə 44 günlük Vətən müharibəsi və 2023-cü ildə keçirilən lokal antiterror tədbirləri nəticəsində şanlı Zəfər qazanmaqla öz suverenliyini və ərazi bütövlüyünü bərpa edib.

Ulu Öndər Heydər Əliyevin müdrik siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin uzaqgörən siyasəti sayəsində Azərbaycan hazırda özünün ən qüdrətli dövrünü yaşayır. Qalib və nüfuzlu dövlət kimi öz sözünü deyən Azərbaycan beynəlxalq aləmdə yeni zirvələrə doğru mətin addımlarla irəliləyir.

Azərbaycan xalqı qarşısında misilsiz xidmətlər göstərən, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyevin xalqımız tərəfindən əziz xatirəsinin daim uca tutulduğu və minnətdarlıqla anıldığı vurğulanıb.

Sonra Ulu Öndərin həyat və yaradıcılığından bəhs edən film nümayiş olunub.

1923 *Azərbaycanın özü qədər əbədi* 2026



# Heydər Əliyevin irsi milli sərvətimizdir

**Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünü qeyd edirik. Dahi şəxsiyyətin şah əsəri olan müstəqil, güclü Azərbaycan onun siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə zəfərlərə imza ataraq regionda yaratdığı yeni reallıqlarla dünya ictimaiyyətinin diqqət mərkəzindədir.**

Bu gün harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı tarixi Zəfərimizin, ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpasının yaratdığı yeni reallıqlardan sonsuz qürur hissi keçirir. Fəxarət hissi ilə deyə bilərik ki, Ümummilli Lider Heydər Əliyevin ruhu şaddır. Çünki bugünkü Azərbaycan dahi şəxsiyyətin görmək istədiyi Azərbaycandır. Xalqımızın 30 il davam edən torpaq həsrətinə son qoyulmuşdur. Artıq keçmiş məcburi köçkünlər mərhələ-mərhələ doğma yurd-yuvalarına qayıdırlar. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin böyük qürur hissi ilə qeyd etdiyi kimi, biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik!

Azad Qarabağ və azad Şərqi Zəngəzur hazırda Azərbaycanın təkmil dirçəliş modelini, şəhərsalmanın müasir təcrübəsini dünyaya təqdim edir. Qalib Azərbaycan dünya hərb tarixində ilkə imza ataraq müharibədən dərhal sonra azad edilmiş ərazilərimizdə genişmiqyaslı bərpa-quruculuq işlərinə başladı. Tarixi Zəfərimizdən ötən beş ildən artıq dövrdə görülən işlərin miqyası hazırda sakinlərinə qovuşmuş azad şəhər, kənd və qəsəbələrin timsalında özünün aydın ifadəsini tapır. İndi Füzuli, Laçın, Cəbrayıl, Kəlbəcər, Ağdam, Şuşa, Xocalı, Xankəndi, Xocavənd şəhərlərinin sakinləri sevincli günlərini yaşayırlar. "Böyük qayıdış" proqramı uğurla icra edilir. 80 000-dən artıq insan öz həyatını yenidən qurmaq, doğma yurdlarına qovuşmaq, təhsil almaq və işləmək məqsədilə Qarabağ və Şərqi Zəngəzur bölgələrinə qayıtmışdır. Hədəf "Böyük qayıdış" proqramının birinci mərhələsinin başa çatacağı cari ilin sonunadək 140 min keçmiş məcburi köçkünün azad edilmiş torpaqlara qayıdışını təmin etməkdir.

Bu yazıya uğurlarımızın zirvəsində dayanan tarixi Zəfərimizlə, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası ilə başlamağımız səbəbsiz deyil. O səbəbdən ki, 44 günlük Vətən müharibəsində qazandığımız tarixi Zəfərin təməlində düşünülmüş siyasət və Lider amili dayanır. Hər bir ölkənin inkişafında bu iki amilin rolu inkaredilməzdir. 1991-1993-cü illərin reallıqları bunun əyani surətdə təsdiqidir. Azərbaycan həmin dövrün iqtidarının yarıtmaz siyasəti, idarəçilik qabiliyyətinin yoxluğu ucbatından müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. Belə bir son dərəcə çətin vəziyyətdə dövlətini, xalqını canından artıq sevən Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanın xoşbəxt gələcəyinin təməli qoyuldu. Bugünkü uğurların təməli məhz 1993-2003-cü illərdə qoyulub. Xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxaran və ardıcıl mübarizə apararaq onu uzun illər həsrətində olduğu müstəqilliyinə qovuşduran qüdrətli şəxsiyyət Heydər Əliyevin hakimiyyətinin hər iki dövrü Vətənə, dövlətə, xalqa xidmət nümunəsidir. Ulu Öndər Heydər Əliyev bütün mənalı həyatı boyu azərbaycanlı olması ilə fəxr edərək hər kəsə Vətəni sevməyi öyrətdi. Onun artıq aforizmə çevrilmiş "Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" çağırışı bu gün harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlının həyat amalıdır. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz dahi şəxsiyyət Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Bu gün Ümummilli Liderin layiqli davamçısı müdrik Prezident, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə davamlı yüksəliş yolunda inamla irəliləyən müasir müstəqil Azərbaycan Ulu Öndər Heydər Əliyevin həyat amalının təntənəsidir.

Dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan dövləti, xalqı qarşısındakı xidmətlərinin miqyası ölçüyəgəlməzdir. Onun fəaliyyətinin hər sahəsi, istiqaməti bir tədqiqat mövzusudur. Azərbaycanın dünyaya günəş kimi doğmasını qarşıya əsas hədəf kimi qoyan Ümummilli Lider Heydər Əliyev respublikamıza rəhbərliyinin birinci dövründə özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. 1969-cu il iyulun 14-də Ulu Öndər Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildikdən sonra tariximizin gedişi və həyatımızın ahəngi köklü surətdə dəyişdi, azadlıq və müstəqillik duyğuları milli düşüncəmizdə üstünlük təşkil etməyə başladı. Dahi Liderin respublikamıza rəhbərliyinin birinci dövrü, yəni 1969-1982-ci illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, xalqımızın özünüdərkini və soykökünə qayıdışını təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir. Ümummilli Lider xalqımızın əsrlər boyu formalaşan milli dəyərləri, ictimai-siyasi şüuru və dövlətçilik təfəkkürü üzərində güclü dövlət modeli yaratmışdır. Onun zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur.

Ötən əsrin 90-cı illərində Azərbaycan Ermənistanın hərbi təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşdı. Taleyimizin həll olunduğu belə bir ağır zamanda xalqın təkidli çağırışına səs verərək yenidən hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirdi, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtardı, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını aldı, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu Azərbaycan dövlətinin dayanıqlı inkişaf yolunu müəyyən etdi. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Ümummilli Lider Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur. O, Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin dünyada tanıdılmasında və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynadı.

Ümummilli Liderimizin hakimiyyətinin hər iki dövründə gənc nəslin milli-mənəvi dəyərlərimizə hörmət və sədaqət, vətənpərvərlik ruhunda formalaşması, ictimai-siyasi həyatda fəal iştirakının təmin edilməsi əsas hədəflər sırasında idi. Dahi şəxsiyyət Azərbaycanın gələcəyinin indiki və gələcək nəsillərə nəyi və necə öyrətməyimizdən asılı olduğunu önə çəkərək bu çağırışı da edirdi ki, gənclərimiz tariximizi, dilimizi, milli-mənəvi dəyərlərimizi, ədəbiyyatımızı yaxşı bilməli, inkişaf etdirməli və təbliğ etməlidirlər. Dahi rəhbər gənclərin təhsilini xüsusilə diqqətdə saxlayırdı. Onun hələ hakimiyyətinin birinci dövründə Azərbaycanın müstəqil gələcəyini düşünərək atdığı mühüm addımlardan biri gənclərin keçmiş ittifaqın ən nüfuzlu ali məktəblərində təhsil almağa göndərilməsi oldu. Bu həm gənclərin elmin sirlərinə dərindən yiyələnmələrinə, həm də Azərbaycanın keçmiş SSRİ məkanında təbliğinə xidmət edirdi. Ümummilli Lider bildirirdi ki, bizim məqsədimiz gənc nəslə təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, ən böyük məqsədimiz Azərbaycan vətəndaşını, müstəqil Azərbaycan cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır. Hər bir insan gərək dövlətinə, ənənələrinə, xalqına sadiq vətəndaş olsun. Ulu Öndər həmçinin bu çağırışı da edirdi ki, cəmiyyət təhsilsiz inkişaf edə bilməz. Keçmiş SSRİ dövründə Ulu Öndər Heydər Əliyev milli kimliyin qorunmasına, ana dilində təhsilin inkişafına böyük sərmayə yatırırdı. Onun təşəbbüsü ilə dünya klassiklərinin və elmi ədəbiyyatın Azərbaycan dilinə tərcüməsi, Azərbaycan dilində günün tələblərinə uyğun bədii və elmi əsərlərin nəşri, Konstitusiyada Azərbaycan dilinin dövlət dili statusu alması azərbaycançılıq ideologiyasının inkişafına və təbliğinə xidmət edən mühüm addımlar oldu. Ulu Öndər milli dilimizin xilaskarı kimi tarixdə silinməz imzasını qoydu.

Ümummilli Lider Heydər Əliyev gəncləri Azərbaycan cəmiyyətinin inkişafında mühüm rol oynayan əsas qüvvə kimi görür və buna görə də onlarla bağlı bir çox mühüm islahat həyata keçirirdi. Dahi şəxsiyyətin təşəbbüsü ilə gənclər forumlarının keçirilməsi onların ictimai-siyasi fəallıqlarının artırılmasında, milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə olunmalarında əhəmiyyətli rol oynadı. Gənclərə həmişə böyük ümidlə baxan, onlara qayğı göstərən Ulu Öndər Heydər Əliyevin fərmanı ilə 1997-ci ildən başlayaraq hər ilin 2 fevral tarixi ölkəmizdə Azərbaycan Gəncləri Günü kimi qeyd olunur.

Bu gün Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik ruhuna, milli düşüncəyə malik, ölkənin ictimai-siyasi həyatında rolu artan gənclər ordusu formalaşıb. "Gənclər milli ruhda, vətənpərvərlik ruhunda, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdırlar. Bax, belə gənclər ölkəmizi gələcəyə inamla aparacaq. Hesab edirəm ki, bugünkü gənclərin mütləq əksəriyyəti bu meyarlara cavab verir - bilikli, savadlı, Vətənə bağlı, vətənpərvər və dünyaya açıq. Elə olmalıdır ki, Azərbaycanın dövlət müstəqilliyi gücləndirilsin" sözləri ilə gənclərə böyük inamını ifadə edən Prezident İlham Əliyev bildirir ki, ən çıxılmaz vəziyyətdə belə gənclər qətiyyətli olmalıdırlar. Hazırda Prezident İlham Əliyevin müdrik tövsiyələrini əməli fəaliyyətləri ilə yerinə yetirən gənclərimiz zəngin mədəni irsimizin qorunub saxlanması və təbliğində mühüm addımlar atırlar. Onlar elmi nailiyyətləri, aparılan islahatlarda fəallıqları, özəl sahələrdə qazandıqları uğurları ilə güclü intellektual potensiala malik olduqlarını Vətənə xidmətlərində bildirir, dünyada mövcud olan ən müasir texnologiyalar əsasında yeniliklərə imza atmaqda fərqlənirlər. Bu mühüm məqamı da xüsusi qeyd etməliyik ki, 2020-ci ilin 44 günlük Vətən müharibəsində Zəfər tarixini yazan gənclərimiz Ulu Öndər Heydər Əliyevin idarəçilik məktəbindən bəhrələnən, onun layiqli davamçısı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yetişdirdiyi gənclərdir. O gənclər ki illərdir torpaqlarımızı düşmən tapdağından azad etmək, Xankəndidə, Şuşada, Xocalıda, ümumilikdə işğal altında olan bütün torpaqlarımızda Azərbaycan bayrağını ucaltmaq üçün Müzəffər Ali Baş Komandandan hücum əmrini gözləyirdilər. Dövlət başçısı İlham Əliyevin əmrinə əsasən başlanan Vətən müharibəsinə qoşulan gənclərin sayı-hesabı yox idi. Silahlı Qüvvələrimizin müxtəlif təyinatlı hissələrində xidmət edən əsgər və zabitlərimizlə birgə düşməni məğlub edən könüllü gənclərimiz ana Vətənin çağırışına sədaqətli oğul kimi səs verərək Mübarizlərin, Poladların davamçıları oldular. Şəhidlik zirvəsinə ucalaraq sübut etdilər ki, torpaq əgər uğrunda ölən varsa, Vətəndir.

Bu bir danılmaz həqiqətdir ki, Ulu Öndər Heydər Əliyevin həyat yolu hər birimiz üçün vətənpərvərlik məktəbidir. "Xalqımız böyük xalqdır. Böyük tarixə, böyük mədəniyyətə malikdir. Bu mədəniyyətimizi, onun qədimliyini, dünya miqyasında böyük şöhrətə malik olduğunu hər kəsə nə qədər dərindən anlada bilsək, bir o qədər də xalqımızda vətənpərvərlik, vətəndaşlıq hissini, azərbaycançılığı yüksəldərik" söyləyən Ümummilli Lider Azərbaycanı hər zaman zirvələrdə görmək istəyirdi və buna nail oldu. Bu gün dünya ictimaiyyəti zəngin tarixə malik olan Azərbaycan xalqının timsalında yenilməzliyin, məğrurluğun nümunəsini görür. Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq yüzilliklər boyu Azərbaycan xalqının ən böyük arzusu olmuşdur. Tarixin müxtəlif mərhələlərində kənar müdaxilələrə, üzləşdiyi məhrumiyyətlərə baxmayaraq, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxladı, öz ideallarına həmişə sadiq qaldı və XX əsrin sonlarında dövlət müstəqilliyini bərpa etdi.

Azərbaycan müxtəlif mədəniyyətləri, dinləri bir araya gətirən, onlar arasında körpü rolunu oynayan ölkədir. Bu gün Azərbaycanın tolerantlığı, multikultural dəyərlərin inkişafına verdiyi töhfələr beynəlxalq səviyyədə təqdir edilir. Son 22 ildən artıq dövrdə Heydər Əliyev siyasətini bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyev çıxışlarında bu reallığı xüsusi qeyd edir ki, azərbaycançılıq ideologiyası, azərbaycançılıq prinsipləri Azərbaycanda çoxdan bərqərar olub. Ulu Öndər Heydər Əliyevin bizə qoyduğu dəyərli miraslardan biri də məhz azərbaycançılıq məfkurəsidir. Biz - onun davamçıları isə bu müsbət meyilləri öz tərəfimizdən daha da gücləndiririk. Azərbaycanda yaşayan bütün xalqlar vahid, mehriban ailə kimi yaşayır. Bizim birliyimizi pozmaq istəyənlər nə qədər cəhd göstərsələr də, buna nail ola bilməyiblər və heç vaxt nail ola bilməyəcəklər.

Bu gün xarici ölkələrdə yaşayan soydaşlarımızla mövcud əlaqələri gücləndirmək, onları ideoloji-siyasi məsələlərdə dəstəkləmək və ümummilli məqsəd üçün səfərbər etmək Azərbaycanın xarici siyasətində ən önəmli prioritet istiqamətlərdəndir. Ümummilli Liderin təşəbbüsü ilə 2001-ci ildə Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi diaspor quruculuğu prosesində mühüm mərhələnin başlanğıcı oldu. Son 5 ildən artıq dövrün mühüm reallıqlarından biri məhz 30 ildən sonra dünya azərbaycanlılarının Şuşada bir araya gələrək VII Zəfər Qurultayını keçirmələri oldu. Azad Şuşadan birliyimizi, həmrəyliyimizi dünyaya bəyan etməkdən böyük xoşbəxtlik ola bilməzdi və dünya azərbaycanlıları bu müqəddəs arzularına çatdılar. Qarabağın incisi, Azərbaycanın mədəniyyət beşiyi azad Şuşadan bütün dünyaya sonsuz qürur hissi və fəxrlə bəyan edildi ki, bu torpaqların sahibi bizik və burada əbədi olacağıq. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində qazandığımız tarixi Zəfər, 2023-cü ilin sentyabrında həyata keçirilən birgünlük lokal antiterror tədbirləri nəticəsində suverenliyimizin tam bərpası, Azərbaycan bayrağının Şuşada, Xankəndidə, bütövlükdə azad Qarabağda və azad Şərqi Zəngəzurda dalğalanması birliyimizin, həmrəyliyimizin nə qədər önəmli amil olduğunu bir daha təsdiqlədi.

Bu gün qalib Azərbaycan yeni dövrün hədəflərinin reallaşdırılması yolunda inamla addımlayır. Yeni dövrün reallıqları fonunda 2024-cü ilin fevralında keçirilən prezident seçkilərində inamlı qələbə qazanan cənab İlham Əliyev andiçmə mərasimində hədəfləri açıqlayarkən bu çağırışı xüsusi vurğuladı ki, biz elə bir gənc nəsil yetişdirməliyik ki, onlar da daim bizim kimi milli ənənələrə, milli-mənəvi dəyərlərə sadiq olsunlar, onların beyinləri saf olsun. Kimsə onların beyinlərini zəhərləmək istəyəndə uğura nail olmasın və burada, əlbəttə ki, ilk növbədə ailə tərbiyəsi ön plana çıxır. Xoşbəxtlikdən Azərbaycan ailəsi sağlam ailədir, ənənələr, milli dəyərlər üzərində qurulan ailədir. Ailə tərbiyəsi hər bir gənc üçün, hər bir uşaq üçün əsas tərbiyədir. İkinci yerdə məktəb tərbiyəsidir və belə müzəffər gənclərimizin yetişdirilməsində Azərbaycan məktəbinin çox böyük rolu vardır. Məktəblərdə uşaqlara aşılanan dəyərlər, müstəqilliklə bağlı, milli ləyaqətlə bağlı, əsrlər boyu bizə qarşı edilən ədalətsizliklə, - təkcə son 30 il ərzində yox, - torpaqlarımızın müxtəlif dövrlərdə əlimizdən alınması ilə bağlı və bizim qəhrəmanlıq tariximizlə bağlı uşaqlara verilən tərbiyə və biliklər çox böyük önəm daşıyır. Bütövlükdə milli-mənəvi dəyərlərə gəldikdə, bu, bizim cəmiyyətimizin əsasıdır və bu, sarsılmaz varlıqdır, sarsılmaz dəyərdir və bunu sarsılmaz etmək bizim əlimizdədir. Çünki burada hər hansı bir kənar qüvvə öz çirkin niyyətlərinə çatsa, o zaman bizim ciddi problemlərimiz olacaq. "Ona görə gənclərimizin milli ruhda tərbiyə edilməsi, ənənəvi dəyərlər əsasında tərbiyə edilməsi, dırnaqarası mütərəqqi və yad dəyərlərin tamamilə cəmiyyətimizdən silinməsi - bu vəzifə bizim hamımızın qarşısında durur, hər bir ailə qarşısında durur və dövlət qarşısında durur. Burada, əlbəttə ki, dövlət siyasəti də aparılır və aparılacaq. Eyni zamanda dediyim kimi, bütün cəmiyyət burada həmrəy olmalıdır və biz bu həmrəyliyi görürük. Bu seçkilərdə göstərilən həmrəylik cəmiyyətimizi bir qaya kimi möhkəmləndirir və belə olan halda heç bir kənar qüvvə bizə qarşı heç bir məkrli plan həyata keçirə bilməz" deyən dövlət başçımız bu məsələyə xüsusi diqqət yetirir.

Göründüyü kimi, azərbaycançılıq ideologiyasının daha da möhkəmlənməsi, öz əhatə dairəsini genişləndirməsi, milli məfkurə kimi hər bir soydaşımızın baxışlarında özünə yer tutması bütün dövrlər üçün öz aktuallığını qoruyan əsas hədəflərdəndir. Azərbaycançılıq ideologiyasının təbliğində dahi şəxsiyyətin adını daşıyan Heydər Əliyev Fondunun xidmətləri misilsizdir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətində azərbaycançılıq ideologiyasının təbliğinə yönələn layihələr xüsusi yer tutur. Bu layihələr bütün dünyada mədəni sərvətlərimizin zənginliyini nümayiş etdirir, mədəniyyət diplomatiyasının gücü ilə ölkəmizin beynəlxalq nüfuzuna xidmət edir. Həyata keçirilən qlobal təşəbbüslər sayəsində Azərbaycan bu gün bütün dünyada mədəniyyətlərarası dialoqun mərkəzi, multikulturalizm məkanı kimi tanınır. Heydər Əliyev Fondu hazırkı dövrün əsas çağırışı olan "Böyük qayıdış" proqramının uğurlu icrasına töhfələri ilə də diqqətdədir. Belə ki, fond Qarabağ ərazisində ermənilər tərəfindən dağıdılan, Azərbaycan xalqının milli sərvəti olan dini abidələrin, məscidlərin bərpası üzrə layihəni uğurla həyata keçirir. Tarixi Zəfərimizdən sonra Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Şuşada, Cıdır düzündə "Xarıbülbül" Musiqi Festivalı ənənəsinin bərpası, "Qarabağın mədəni irsi" adlı nəşrlər toplusunun hazırlanması və sair kimi mühüm addımlar Azərbaycan xalqının mənəvi, tarixi, mədəni irsinin təşviqinə və qorunmasına dəyərli töhfələrdir. Fondun təşəbbüsü və təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin dövlətimiz, xalqımız qarşısındakı xidmətlərini özündə əks etdirən çoxsaylı kitablar dərc olunub və olunmaqdadır. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildən fəaliyyətə başlayan "Xocalıya ədalət!" beynəlxalq təbliğat-təşviqat kampaniyası XX əsrin ən dəhşətli faciəsinin soyqırımı kimi tanıdılmasında, həqiqətlərimizin dünya ictimaiyyətinə çatdırılmasında əhəmiyyətli rol oynayır.

*Təbii ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısındakı misilsiz xidmətlərini, azərbaycançılıq məfkurəsinin təşəkkül tapması və ümummilli ideologiyaya çevrilməsi istiqamətində titanik fəaliyyətlərini bir yazıda tam əhatə etmək mümkün deyil. Müasir müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir. Sonda Ümummilli Lider Heydər Əliyevin qeyd etdiyi bu fikri bir daha xatırlatmağı özümüzə borc bilirik: "Nə qədər ki Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!"*

***Aynur SOFİYEVA,***
***YAP İdarə Heyətinin üzvü,***
***Ailə, Qadın və Uşaq Problemləri üzrə***
***Dövlət Komitəsinin sədr müavini***

1923 Azərbaycanın özü qədər əbədi 2026



# Müstəqil Azərbaycan böyük Heydər Əliyev ideyalarının təntənəsidir

**Ulu Öndər Heydər Əliyev öz dərin zəkası ilə zamanı qabaqlamış, iradəsi ilə taleyin axınını dəyişmiş bir dünya lideridir. Ümummilli Liderin simasında biz yalnız qüdrətli dövlət xadimini yox, eyni zamanda öz xalqının ruhuna dərindən bələd olan, onun ağrılarını özününkü bilən və gələcəyini zərgər dəqiqliyi ilə inşa edən dahi bir strateqi görürük. Heydər Əliyev dühası ən çətin məqamlarda ümidsizliyə qapılan kütləni vahid millətə çevirməyi bacaran, milli mənlik şüurunu yenidən oyadan, onu formalaşdıran bir məşəldir desək, yanılmarıq.**

Ümummilli Liderin hər addımı, hər sözü, kəlamı müstəqilliyimizin əbədi olması üçün atılmış fundamental təməllərdir. O baxımdan Ulu Öndər Heydər Əliyevin anadan olmasının bu günlərdə qeyd etdiyimiz 103-cü ildönümü, sadəcə, xatirə günü deyil, həm də onun xalqımıza qoyub getdiyi ən böyük mirasın - müstəqilliyimizin qələbə təntənəsidir. 103 il öncə başlayan bu şərəfli ömür yolu bu gün azad Şuşada, dirçələn Qarabağda, doğma Naxçıvanda və müasir Bakının simasında, bir sözlə, ölkəmizin hər guşəsində əbədiyaşarlıq qazanıb. Heydər Əliyev yolu tükənməz bir enerji və inkişaf mənbəyidir. Ulu Öndər elə bir dövlət binası qurub, inşa edib ki, bu gün həmin bina Zəfər tacı ilə bəzənmiş, ərazi bütövlüyünü bərpa etmiş qüdrətli bir Azərbaycanın simvoluna çevrilib.

Ötən hər il Ulu Öndərin zəkasının, irsinin nə dərəcədə uzaqgörən olduğunu bir daha təsdiqləyir. İlk dəfə deyil ki, qeyd edirik, Ümummilli Lider Heydər Əliyevin Sovetlər İttifaqı dönəmindəki fəaliyyəti Azərbaycanın gələcək müstəqilliyinə aparan mərhələ idi. Ötən əsrin 60-cı illərində Azərbaycan SSRİ-nin aqrar respublikalarından biri idi. 1969-cu ildə Heydər Əliyevin ölkəmizə siyasi rəhbərliyə başlamasından qısa müddət sonra Azərbaycanın iqtisadi xəritəsi tamamilə dəyişdi, ölkəmiz sənaye respublikasına çevrildi.

Ümummilli Liderin uzaqgörən addımlarından biri də azərbaycanlı gənclərin SSRİ-nin nüfuzlu ali məktəblərinə göndərilməsi idi. Hər il minlərlə azərbaycanlı gənc Moskva, Leninqrad və Kiyev şəhərlərinə ən nadir ixtisaslar üzrə təhsil almağa göndərilirdi. 1971-ci ildə Bakıda Cəmşid Naxçıvanski adına hərbi məktəbi yaratmaqla Heydər Əliyev azərbaycanlı zabit nəslinin yetişdirilməsinə rəhbərlik etdi. Ulu Öndərin bu istiqamətdə uzaqgörən addımları müstəqillik qazanılacağı təqdirdə ölkəmizi idarə edə biləcək milli kadr və mütəxəssis ordusunun yaradılmasına xidmət edirdi.

Sovet ideologiyasının hakim olduğu bir zamanda milli kimliyi qorumaq məsələsi də böyük cəsarət tələb edirdi. Ümummilli Lider Heydər Əliyevin ən böyük tarixi qələbələrindən biri də məhz Azərbaycan dilinin dövlət dili kimi o dövrdə Konstitusiyada təsbit edilməsinə nail olması idi. Bu, ittifaq respublikaları arasında nadir hadisə idi. Ulu Öndər sovet sisteminin daxilində Azərbaycan faktorunu diqqət mərkəzinə qoymağı bacaran yeganə lider idi. O, ittifaq büdcəsindən Azərbaycana ən böyük dotasiyaların ayrılmasını təmin edir, respublikanı ittifaqın donoruna çevirirdi. İqtisadi güc, milli kadrlar, dövlət dili və hərbi baza 1991-ci ildə müstəqilliyi bərpa olunan Azərbaycanın üzərində dayandığı fundamental sütunlar oldu. Bugünkü qüdrətli Azərbaycanın da memarlıq layihəsi məhz həmin illərdə cızıldı. Ulu Öndərin həyatı və siyasi fəaliyyəti hər bir azərbaycanlı üçün milli qürur mənbəyi, dövlətçilik məktəbi və vətənpərvərlik nümunəsidir.

1990-cı illərin əvvəllərində Azərbaycan tarixin ən ağır sınaqları ilə üz-üzə qalmışdı. Moskvaya satılmış xəyanətkar rəhbərlər və heç bir idarəçilik bacarığı olmayan siyasi qüvvələr səriştəsizlikləri ilə ölkəmizi dağılıb məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdular. Hakimiyyət çəkişmələri, xaos və Ermənistanın işğalçılıq siyasəti dövlətimizi yox olmaq, dağılmaq təhlükəsinə sürükləyirdi. Belə taleyüklü məqamda qədirbilən xalqımızın gözü öz böyük oğlunu, Vətənin ümid çırağını axtarırdı. 1990-cı il yanvarın 21-də həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlib cəsarətli bəyanat verən siyasi xadim Heydər Əliyev xalqın qurtuluş mübarizəsinin önünə keçdi.

Böyük Heydər Əliyev 1990-cı ilin iyulunda Bakıya qayıtdıqdan sonra mövcud siyasi rəhbərliyin qısqanclığı ilə qarşılaşdı və doğulub boya-başa çatdığı doğma Naxçıvana üz tutdu, orada bütün Azərbaycanın qurtuluş mübarizəsini başlatdı. Bu dövrdə Naxçıvan olduqca acınacaqlı, çıxılmaz vəziyyətə düşmüşdü. Mürəkkəb tarixi şəraitdə uzaqgörən lider Heydər Əliyev misilsiz siyasi dühası və dövlət müdrikliyi sayəsində ermənilərin Naxçıvanı işğal planını boşa çıxardı. Blokada şəraitində olan muxtar respublikanı həm işğaldan qorudu, həm də bu qədim diyarda ilk dəfə üçrəngli bayrağımızı dövlət rəmzi kimi ucaltdı.

1993-cü ilin iyununda xalqın israrlı tələbi, dəvəti ilə yenidən hakimiyyətə qayıdan dahi rəhbər ölkəmizi vətəndaş müharibəsinin astanasından geri qaytardı, getdikcə alovlanmaqda olan separatçı meyillərin qarşısını aldı və Azərbaycanda uzunömürlü sabitliyin əsasını qoydu. Bu fəlakət anında Azərbaycan xalqının, Vətənin yeganə ümid yeri, qurtuluşu məhz böyük Heydər Əliyev idi. Ulu Öndərin xalqın təkidi ilə yenidən hakimiyyətə gəlməsi sayəsində xarici və daxili düşmənlərin oxu daşa dəydi, bədxahların arzuları gözlərində qaldı. Müdrik dövlət xadimi bir neçə siyasi gedişdən sonra vətəndaş müharibəsi təhlükəsini tamamilə aradan qaldırdı. Beləliklə, dövlətimizin, xalqımızın tarixi müqəddəratının idarəçilik sükanı xalqımızın təkidi ilə dahi liderin əlinə keçdi.

Ulu Öndərin 15 iyun 1993-cü ildə Milli Məclisin Sədri seçilməsi ilə başlayan Qurtuluş mərhələsində Azərbaycanda qardaş qırğınının qarşısı alındı, qanunsuz silahlı qruplaşmalar ləğv edildi və dövlətin hüquqi bazası formalaşmağa başladı. Ulu Öndər Heydər Əliyevin böyüklüyü həm də ondan ibarət idi ki, o, hərbi uğursuzluqların kökündə duran siyasi pərakəndəliyi aradan qaldırmadan qələbənin qeyri-mümkün olduğunu bilirdi. 1994-cü ildə Ermənistanla atəşkəs rejiminin əldə olunması Azərbaycana böyük islahatlara başlamaq üçün strateji zaman qazandırdı.

Ümummilli Lider çox yaxşı bilirdi ki, ölkəni böhrandan çıxarmaq üçün köklü iqtisadi islahatlara və beynəlxalq əməkdaşlığa ehtiyac var. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" Azərbaycanın neft strategiyasının şah əsəri oldu. Bu müqavilə ilə Azərbaycan qlobal iqtisadiyyatın tamhüquqlu üzvünə çevrildi, ölkəyə nəhəng investisiya axını başlandı. Dünyanın aparıcı dövlətləri Azərbaycanın iqtisadi və siyasi sabitliyində maraqlı tərəf oldular. Böyük Heydər Əliyevin təşəbbüsü ilə bərpa edilən qədim İpək yolu layihəsi Azərbaycanı Şərqlə Qərb arasında mühüm tranzit qovşağına çevirərək müstəqilliyimizin iqtisadi təhlükəsizliyini təmin etdi.

2003-cü ildən etibarən Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyev Heydər Əliyev kursunu yeni dövrün tələblərinə uyğun olaraq inkişaf etdirməyə başladı. Dövlətimizin başçısının müəyyənləşdirdiyi uzaqgörən siyasi kurs nəticəsində ilk onillikdə ölkə iqtisadiyyatının misli görünməmiş artımı təmin edildi. Azərbaycan neft və qaz ixracatçısından regionun enerji mərkəzinə və nəqliyyat qovşağına çevrildi. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, "Cənub qaz dəhlizi" kimi nəhəng layihələr ölkəni qlobal iqtisadiyyatın ayrılmaz hissəsi halına gətirdi.

Prezident İlham Əliyev iqtisadi güc və diplomatik üstünlüyün hərbi qüdrətlə tamamlanmalı olduğunu çox gözəl bilirdi. Ona görə də ölkənin hərbi büdcəsi artırıldı, ən müasir silahlar alındı və daxili müdafiə sənayesi quruldu. Ən əsası isə Prezident İlham Əliyevin səyi ilə cəmiyyətimizdə vətənpərvərlik ruhu daha da yüksəldildi və yeni vətənpərvər nəsil yetişdirildi.

Ulu Öndər Heydər Əliyevin uzaqgörənliyinin möhtəşəm yekunu 2020-ci ildə reallaşdı. 44 günlük Vətən müharibəsi Azərbaycanın hərbi və diplomatik qələbəsi ilə nəticələndi. Xalqımızın milli qeyrət simvoluna çevrilmiş Şuşanın azad edilməsindən sonra Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin xalqa müraciəti tarixə düşdü: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır!" Ulu Öndərin uzaqgörən siyasəti və Müzəffər Ali Baş Komandanın qətiyyəti birləşərək Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi.

Prezident İlham Əliyevin rəhbərliyi dövründə qazanılan uğurlar yalnız hərbi və enerji sahələri ilə məhdudlaşmır, bura dövlət idarəçiliyinin müasirləşdirilməsi, beynəlxalq nüfuzun artırılması və milli intibahın bütün sahələri daxildir. Diplomatik müstəvidə Azərbaycanın çoxsaylı uğurları, bir neçə mühüm beynəlxalq tədbirə evsahibliyi etməsi ölkə rəhbərinin xarici siyasətinin zirvə nöqtələrindən hesab olunur. Əldə edilən nailiyyətlər müstəqil Azərbaycanın qlobal miqyasda etibarlı tərəfdaş kimi qəbul edilməsinin və cənab İlham Əliyevin şəxsi nüfuzunun parlaq sübutudur.

Dövlətimizin başçısı İlham Əliyevin humanitar diplomatiya kursu sayəsində Bakı dünyanın mədəniyyətlərarası dialoq mərkəzinə çevrilib. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu və Bakı Beynəlxalq Humanitar Forumu kimi tədbirlər vasitəsilə Azərbaycan sivilizasiyalar arasında körpü rolunu möhkəmləndirib. Eyni zamanda I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları və "Formula-1" kimi möhtəşəm beynəlxalq idman tədbirlərinin yüksək səviyyədə təşkili ölkənin müasir infrastruktur imkanlarını və təhlükəsizlik səviyyəsini bütün dünyaya nümayiş etdirir. Daxili idarəçilikdə şəffaflığın təmin edilməsi istiqamətində atılan inqilabi addımlar da Prezident İlham Əliyevin mühüm nailiyyətləri sırasındadır.

Ümummilli Lider Heydər Əliyev irsi təkcə siyasi strategiyalar toplusu deyil, həm də dərin humanizm prinsiplərinə söykənən bir məktəbdir. Bu məktəbin ən ali dəyərlərini yaşatmaq, Ulu Öndərin xalqa xidmət fəlsəfəsini real əməllərlə davam etdirmək missiyasını Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva öz üzərinə götürüb. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu yarandığı gündən etibarən Ümummilli Liderin zəngin irsinin öyrənilməsi, təbliği və bu ideyaların gələcək nəsillərə ötürülməsi istiqamətində misilsiz layihələrə imza atıb. Ulu Öndərin ideyalarının siyasi, insani, mədəni və xeyriyyəçilik aspektlərini canlandırıb.

Birmənalı vurğulamaq lazımdır ki, Heydər Əliyev Fondu dövlətin həyata keçirdiyi sosial siyasətə ən böyük mənəvi və praktiki dəstəyi verən qurumdur. Fondun fəaliyyəti cəmiyyətin ən həssas təbəqələrini - uşaq evlərini, kimsəsizləri, xəstəlikdən əziyyət çəkən insanları, xüsusilə şəhid və qazi ailələrini əhatə edir. "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək" kimi proqramlar çərçivəsində ölkənin ən ucqar kəndlərində belə müasir təhsil ocaqlarının tikilməsi gənc nəslin böyük Heydər Əliyev ideallarına sadiq, bilikli və vətənpərvər yetişməsinə xidmət edir. Səhiyyə sahəsində həyata keçirilən çoxsaylı layihələr Mehriban xanım Əliyevanın Azərbaycan xalqına bağlılığının və genofondumuzun qorunmasının icrasıdır.

Ulu Öndər Azərbaycan mədəniyyətini millətin vizit kartı hesab edirdi. Mehriban xanım Əliyeva bu baxış bucağını beynəlxalq müstəviyə daşıdı. Heydər Əliyev Fondunun təşəbbüsü ilə muğam sənətinin, xalçaçılığın, aşıq sənətinin UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi tarixi nailiyyətdir. Fondun xaricdə həyata keçirdiyi layihələr, dini və tarixi abidələrin bərpası Azərbaycanın tolerantlıq və multikulturalizm mərkəzi kimi imicini möhkəmləndirib. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən bu işlər Azərbaycanın dünyada sülhsevər, mədəni və sivil dövlət kimi imicini daha da möhkəmləndirib. Bu, əslində, Ulu Öndər Heydər Əliyevin "Azərbaycan dünyaya günəş kimi doğacaq" kəlamının mədəni müstəvidə reallaşmasıdır.

Vətən müharibəsindən sonra Heydər Əliyev Fondunun fəaliyyəti yeni və daha şərəfli bir mərhələyə qədəm qoydu. İşğaldan azad edilmiş torpaqlarda, xüsusilə də mədəniyyət paytaxtımız Şuşada tarixi-dini abidələrin bərpası xanım Mehriban Əliyevanın birbaşa nəzarəti altındadır. Vaqif Poeziya Günlərinin, "Xarıbülbül" festivalının yenidən bərpası və rəngarəngliyi ilə dünyaya səs salması Ulu Öndərin ruhunu şad edən ən böyük hadisələrdən biridir. Fondun Şuşadakı məscidləri, muzeyləri və mədəniyyət ocaqlarını bərpa etməsi Azərbaycanın mənəvi qələbəsinin təntənəsidir. Heydər Əliyev Fondu xalqımızın inam yerinə çevrilmiş mənəvi körpüdür. Ulu Öndərin əziz xatirəsi onun adını daşıyan fondun, şəxsən Mehriban xanım Əliyevanın xeyirxah əməllərində, hər bir Azərbaycan vətəndaşının üzündəki təbəssümdə və yenidən dirçələn Qarabağımızn hər bir daşında əbədi olaraq yaşayır və yaşayacaq!

*Bu gün Azərbaycan xalqı ağı qaradan seçməyi bacarır və çox yaxşı görür ki, dövlətimizin sükanı etibarlı, möhkəm və əmin əllərdədir. Qalib Lider, Prezident İlham Əliyevin qətiyyətli siyasəti ilə ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın humanizm və mədəni quruculuq dolu misilsiz fəaliyyəti bir-birini tamamlayır. Bu gün Ulu Öndər Heydər Əliyevin əbədiyaşar ideyaları, Prezident İlham Əliyevin güclü dövlətçilik iradəsi və Mehriban xanım Əliyevanın mənəvi enerjisi müstəqil Azərbaycanı daha parlaq, işıqlı gələcəyə daşıyır. Əsası Ulu Öndər tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən zirvəyə daşınan müstəqillik yolu əbədi və dönməzdir. Xalqımızın dünyaya bəxş etdiyi və xalqımıza müstəqillik qədər dünyalar bəxş etmiş Ümummilli Lider Heydər Əliyev elə dünənimiz, bu günümüz və gələcəyimiz olan Azərbaycanımızın özüdür.*

***Bəxtiyar ƏSGƏROV,***
***Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyinin rəhbəri, filologiya üzrə fəlsəfə doktoru***

# Ulu Öndər Heydər Əliyevin şəhərsalma strategiyası və Bakının WUF13-ə uzanan inkişaf yolu

**Azərbaycanın müasir şəhərsalma modeli qısa müddətdə formalaşmış təsadüfi bir yanaşma deyil. Bu model dərin tarixi köklərə, sistemli idarəçilik ənənələrinə və uzunmüddətli strateji baxışa əsaslanır. Bu konseptual yanaşmanın əsas müəllifi isə Ulu Öndər Heydər Əliyev olub. Onun rəhbərliyi dövründə formalaşan şəhərsalma siyasəti yalnız mövcud dövrün tələblərinə cavab verməklə kifayətlənmyib, həm də gələcək onilliklər üçün davamlı və dayanıqlı inkişaf istiqamətlərini müəyyən edib. Bu baxımdan Azərbaycanın urban inkişaf modeli təkcə regional deyil, həm də beynəlxalq səviyyədə maraq doğuran sistemli bir yanaşma kimi çıxış edir.**

Qarşıdakı günlərdə Bakı şəhərinin WUF13 kimi nüfuzlu beynəlxalq platformaya evsahibliyi etməsi məhz həmin uzaqgörən strategiyanın uğurlu nəticəsidir. Bu, eyni zamanda Azərbaycanın şəhərsalma sahəsində qazandığı təcrübənin və tətbiq etdiyi innovativ modellərin beynəlxalq səviyyədə tanındığını göstərir.

## Sovet dövründə şəhərsalmanın intibah mərhələsi

1969-1982-ci illər Azərbaycan tarixində yalnız iqtisadi inkişaf deyil, həm də memarlıq və şəhərsalma baxımından yüksəliş dövrü kimi yadda qalıb. Bu mərhələdə Bakı postsovet məkanında seçilən və planlı inkişaf modeli ilə fərqlənən şəhərlərdən birinə çevrilib. Ümummilli Lider Heydər Əliyev şəhərsalmanı, sadəcə, tikinti prosesi kimi deyil, milli kimliyin, mədəniyyətin və estetik zövqün kompleks ifadəsi kimi dəyərləndirirdi.

Bu dövrdə paytaxtın Baş planı hazırlanaraq şəhərin sistemli və mərhələli inkişafı təmin edildi. Yeni yaşayış massivləri - Günəşli, Əhmədli və Yeni Yasamal kimi ərazilər məhz bu strateji planlamanın tərkib hissəsi kimi layihələndirildi və urbanizasiya prosesinin sürətlənməsi nəzərə alınaraq genişmiqyaslı tikinti işləri həyata keçirildi. Eyni zamanda sənaye zonaları ilə yaşayış əraziləri arasında balansın qorunması, nəqliyyat axınlarının optimallaşdırılması və sosial infrastrukturun inkişafı prioritet istiqamətlər kimi müəyyənləşdirildi.

Dənizkənarı zonaların abadlaşdırılması, yaşıllıq sahələrinin artırılması və ictimai məkanların yaradılması şəhər mühitində həyat keyfiyyətini əhəmiyyətli dərəcədə yüksəltdi. Bu yanaşma Bakının yalnız sənaye şəhəri deyil, eyni zamanda yaşamaq üçün komfortlu urban məkan kimi formalaşmasına şərait yaratdı.

Memarlıq baxımından bu dövr Bakının simasını dəyişən mühüm tikililərlə yadda qaldı. Gülüstan Sarayı, Heydər Əliyev Sarayı (keçmiş Respublika Sarayı) və Bakı Dövlət Sirki kimi obyektlər şəhərin mədəni həyatına yeni dinamika gətirdi. Bu tikililər yalnız funksional obyektlər deyil, həm də estetik baxımdan şəhərin vizual kimliyini formalaşdıran və milli memarlıq məktəbinin inkişafını stimullaşdıran mühüm nümunələrdir.

Bakı Metropoliteni intensiv inkişaf mərhələsinə qədəm qoydu. Yeni stansiyalar istifadəyə verildi və onların dizaynında milli ornamentlərə xüsusi yer ayrıldı. Xüsusilə "Nizami" metrostansiyası milli-mədəni motivlərin müasir memarlıqla sintezinin parlaq nümunəsi kimi seçilir və bu yanaşmanın davamlı xarakter daşıdığını nümayiş etdirir.

Şəhər mühitində milli yaddaşın qorunması da diqqət mərkəzində idi. Nəriman Nərimanov, İmadəddin Nəsimi və Hüseyn Cavid kimi görkəmli şəxsiyyətlərin abidələrinin ucaldılması yalnız estetik deyil, həm də ideoloji və mədəni baxımdan əhəmiyyətli idi. Bu, şəhər məkanının tarixlə canlı əlaqəsini təmin edirdi.

## Müstəqillik dövründə şəhərsalmanın yeni mərhələsi

1990-cı illərin əvvəllərində baş verən siyasi və iqtisadi çətinliklər şəhərsalma prosesinə də ciddi mənfi təsir göstərmişdi. Lakin Ulu Öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə bu sahədə keyfiyyətcə yeni mərhələnin əsası qoyuldu və şəhərsalma siyasəti sistemli şəkildə bərpa edildi.

"Əsrin müqaviləsi" ölkəyə irihəcmli xarici investisiyaların cəlb olunmasına geniş imkanlar yaratdı. Bu investisiyalar yalnız iqtisadi inkişafı deyil, eyni zamanda şəhər mühitinin modernləşdirilməsini də sürətləndirdi. Yeni biznes mərkəzləri, beynəlxalq standartlara uyğun hotellər və diplomatik komplekslər Bakının qlobal şəhər kimi mövqeyini gücləndirdi.

Bu dövrdə şəhərsalma siyasətində mühüm dönüş nöqtələrindən biri də tarixi irsin qorunması ilə müasir inkişafın uzlaşdırılması oldu. İçərişəhərin UNESCO Ümumdünya İrs Siyahısına daxil edilməsi yolunda atılan addımlar, Şirvanşahlar Saray Kompleksinin bərpası və digər tarixi abidələrin yenidən qurulması bu siyasətin uğurlu nəticələrindəndir.

Eyni zamanda Bibiheybət məscidinin Ulu Öndərin tapşırığı ilə yenidən inşa edilməsi dini-mədəni dəyərlərin bərpası və milli kimliyin gücləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyırdı.

## Şəhərsalma strategiyasının əsas prinsipləri

Ümummilli Lider Heydər Əliyevin şəhərsalma siyasəti bir neçə fundamental prinsip üzərində qurulmuşdu və bu prinsiplər bu gün də aktuallığını qoruyur:

- Milli üslubun qorunması - memarlıqda yerli ornamentlərə, milli motivlərə və ənənəvi elementlərə üstünlük verilməsi şəhərin özünəməxsus simasının qorunmasına xidmət edib.
- Sistemli yanaşma - şəhərsalma yalnız ayrı-ayrı obyektlərin tikintisi deyil, bütöv urban sistemin formalaşdırılması kimi nəzərdən keçirilib. Nəqliyyat, mühəndis infrastrukturu, ekologiya və sosial obyektlər vahid konsepsiya əsasında planlaşdırılıb.
- Strateji baxış - uzunmüddətli inkişaf perspektivləri nəzərə alınaraq şəhərin zonalaşdırılması və funksional bölgüsü həyata keçirilib. Bu yanaşma sonrakı mərhələlərdə müasir memarlıq layihələrinin şəhər mühitünə harmonik şəkildə inteqrasiyasına imkan yaradıb.

## WUF13: Bakının beynəlxalq urbanistika mərkəzinə çevrilməsi

Bakı şəhərinin WUF13 kimi qlobal əhəmiyyətli tədbirə evsahibliyi etməsi təsadüfi deyil. Bu forum şəhərsalma, dayanıqlı inkişaf və urbanizasiya sahəsində dünyanın ən nüfuzlu platformalarından biri olmaqla yanaşı, qabaqcıl təcrübələrin mübadiləsi üçün mühüm beynəlxalq platformadır.

Bakının bu foruma evsahibliyi etməsi onun artıq regional deyil, qlobal urbanistika mərkəzlərindən birinə çevrildiyini göstərir. Müasir nəqliyyat infrastrukturu, ictimai məkanların inkişafı, rəqəmsal texnologiyaların tətbiqi və memarlıq müxtəlifliyi şəhərin beynəlxalq səviyyədə rəqabət qabiliyyətini əhəmiyyətli dərəcədə artırır.

## Müasir mərhələ: innovasiya və postmünaqişə urbanizasiya modeli

Müasir mərhələdə Azərbaycanın şəhərsalma siyasəti Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş strateji xəttin ardıcıl davamı kimi Prezident İlham Əliyev tərəfindən yeni məzmun və innovativ yanaşmalarla zənginləşdirilir. Bu davamlılıq ölkənin urban inkişaf modelinə sabitlik və ardıcıllıq qazandırır.

Son illərdə həyata keçirilən layihələrdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları, rəqəmsal idarəetmə sistemləri, "yaşıl enerji" həlləri və dayanıqlı nəqliyyat modelləri geniş tətbiq olunur. Bu isə Azərbaycanın şəhərsalma siyasətini müasir qlobal trendlərlə uzlaşdırır.

Postmünaqişə ərazilərində aparılan bərpa və yenidənqurma işləri isə bu modelin ən innovativ istiqamətlərindən biridir. Qarabağ və Şərqi Zəngəzur bölgələrində həyata keçirilən layihələr yalnız infrastrukturun bərpası deyil, eyni zamanda tamamilə yeni urbanizasiya modelinin qurulması deməkdir.

Ağalı kəndi bu baxımdan "ağıllı kənd" konsepsiyasının uğurlu tətbiq nümunəsidir. Burada innovativ texnologiyalar, alternativ enerji mənbələri və ekoloji yanaşmalar bir arada tətbiq olunur.

Füzuli, Zəngilan, Laçın və Şuşa şəhərlərində həyata keçirilən layihələr isə müasir urbanizasiya prinsiplərinin kompleks tətbiqini nümayiş etdirir. Xüsusilə Şuşa şəhərinin bərpası tarixi irsin qorunması ilə müasir inkişafın uğurlu sintezini əks etdirir. Bu isə Ulu Öndər Heydər Əliyev məktəbinin prinsiplərinin davamlılığını bir daha təsdiqləyir.

Beləliklə, müasir mərhələdə həyata keçirilən şəhərsalma siyasəti Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyən edilmiş inkişaf kursunun müasir tələblərə uyğun şəkildə davam etdirilməsi kimi xarakterizə olunur.

WUF13 Bakının keçdiyi uzun və ardıcıl inkişaf yolunun məntiqi nəticəsidir. Bu yolun təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub, bu gün isə müasir yanaşmalarla daha da zənginləşdirilir.

*Müasir Bakı yalnız Azərbaycanın paytaxtı deyil, həm də qlobal urbanizasiya proseslərində fəal iştirak edən, innovativ yanaşmaları ilə seçilən və öz inkişaf modelini dünyaya təqdim edən nümunəvi şəhərlərdən biridir. Qarabağda həyata keçirilən layihələr isə bu modelin ən dinamik və perspektivli istiqamətini təşkil edir.*

***Kamilə ƏLİYEVA,***
***Bakı Dövlət Universitetinin kafedra müdiri, biologiya elmləri doktoru, professor***

# Roberta Metsolanın açıqlaması
## Avropa Parlamentinin qərəzli simasını nümayiş etdirir



Avropa Parlamentinin Azərbaycana qarşı qərəzli davranışı göstərir ki, bu qurum ölkəmizə münasibətdə obyektiv və ədalətli mövqe nümayiş etdirməkdən uzaqdır. Prezident İlham Əliyev də bəyan edib ki, Avropa Parlamenti sülh prosesinə dəstək vermək əvəzinə, ona qarşı sabotajla məşğul olur. Bu bəyanatdan sonra Avropa Parlamenti sədri Roberta Metsolanın cəfəng açıqlaması bu reallığı bir daha təsdiqlədi.

Milli Məclisin deputatı Könül Nurullayeva qəzetimizə açıqlamasında deyib ki, AP-nin Azərbaycanla bağlı qətnamələri həmişə siyasi qərəz və böhtan üzərində qurulub. Bu yanaşma da göstərir ki, Avropa Parlamenti regiondakı proseslərə obyektiv hüquqi prinsiplərdən deyil, destruktiv maraqlar prizmasından yanaşır. "Xüsusilə Azərbaycanın ərazi bütövlüyü məsələsində illərlə nümayiş etdirilən susqunluq, sonrakı mərhələlərdə Bakıya qarşı böhtan dolu qətnamələrin qəbul edilməsi Avropa Parlamentinin əsl simasını ortaya qoyur. Bu xüsusda Metsolanın açıqlaması qərəzli siyasətin davam etdirilməsi niyyətini təsdiqləyir. Əgər bir qurum tənqidlərdən nəticə çıxarmaq, regionun həssas siyasi reallıqlarını nəzərə almaq əvəzinə, əvvəlki pozucu fəaliyyətə sadiqliyini bəyan edirsə, bu, artıq qərəzin göstəricisidir" - deyə o əlavə edib.

Deputat qeyd edib ki, Azərbaycan xarici siyasətdə müstəqil və prinsipial mövqe nümayiş etdirir. Rəsmi Bakı açıq şəkildə bildirir ki, münasibətlər yalnız qarşılıqlı hörmət və suverenliyə ehtiram əsasında inkişaf edə bilər. Bu baxımdan Avropa Parlamentinin davamlı şəkildə siyasi təzyiq alətinə çevrilən qətnamələri tərəfdaşlıq ruhuna ziddir. Digər tərəfdən, enerji təhlükəsizliyi, nəqliyyat layihələri və regional sabitlik məsələlərində Azərbaycanın Avropa üçün strateji əhəmiyyəti artmaqdadır. Belə bir şəraitdə münasibətlərin emosional və qərəzli siyasi ritorika üzərində qurulması Avropanın maraqlarına xidmət etmir.

K.Nurullayeva bildirib ki, Avropa Parlamenti obyektiv tərəfdaş olmaq istəmir və Azərbaycana qarşı qərəzli siyasətini davam etdirmək niyyətindədir: "R.Metsolanın açıqlaması bunu bir daha sübut edir. Azərbaycan isə öz milli maraqlarını qətiyyətlə müdafiə edən, xarici təzyiqlər qarşısında geri çəkilməyən dövlətdir. Heç bir qüvvə Azərbaycanla diktə dili ilə danışa bilməz".

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# Fransanın ermənipərəst ritorikası sülh prosesi ilə ziddiyyət təşkil edir

İrəvanda keçirilmiş "Avropa Siyasi Birliyi"nin sammitində Fransa Prezidenti Emmanuel Makronun Ermənistanın xarici siyasəti ilə bağlı səsləndirdiyi fikirlər zamanlama baxımından nəticəyə, məqsədə hesablanmış ifadədir. Məlum məsələdir ki, yaxın zamanda Ermənistanda seçki prosesi baş tutacaq və Nikol Paşinyan Qərbin dəstəyi ilə hakimiyyətə gələn fiqur olduğundan Qərb liderləri ona dəstək ifadə edirlər.



Milli Məclisin deputatı Azər Badamov qəzetimizə açıqlamasında bildirib ki, uzun illər ərzində Ermənistanın tutmuş olduğu yanlış yol onu bir dövlət kimi dalana dirəyib. Bu, həm də onu göstərir ki, Ermənistan regionda məqsədli və şüurlu şəkildə yaradılan bir dövlətdir və İrəvan heç vaxt müstəqil xarici siyasət kursu yürütməyib, böyük güclərin diktəsini və iradəsini həyata keçirib. Bu gün əməkdaşlıq üçün Ermənistan saxta tarixdən, yanlış yoldan çəkinməli və nəinki regional aktorlara qarşı ərazi iddialarına son qoymalı, həm də münasibətləri korlayacaq belə bir addım atmamalıdır".

Nikol Paşinyanın Ermənistanı Rusiya orbitindən uzaqlaşdırmaq yolunu tutduğunu qeyd edən deputat bildirib ki, Baş nazir bunun qısa zamanda və birdən-birə baş tutacaq bir məsələ olmadığına əmindir. Ona görə də qarşıdan gələn seçkiləri nəzərə alaraq hədəflənə addım-addım çatmağı planlayır. Ermənistan iqtisadiyyatının Rusiya ilə sıx bağlılığı, habelə Rusiyanın Ermənistanda hərbi bazasının mövcudluğu da buna əsasdır. "Makronun Ermənistana dəstək nümayişinə gəlincə isə bu, hər zaman müşahidə etdiyimiz ritorikadır. Fransa erməni diasporunun pulu hesabına hər zaman ermənidən çox ermənilik edib. Bunu Vətən müharibəsi dövründə daha aydın müşahidə etdik. Makronun vasitəçilik rolu ilə bağlı dedikləri də hazırkı vəziyyətə adekvat deyil. Azərbaycanla Ermənistan arasında proseslərin inkişafı nəinki uzaq Qərbdən, hətta yaxın Cənubdan və Şimaldan belə hər hansı vasitəçiyə ehtiyac yaratmır. Ermənistanla digər hər hansı region ölkəsi arasında da vasitəçiliyə ehtiyac varsa, Nikol Paşinyan bunu zəruri bilirsə, təbii ki, Makrona müraciət olunması, vasitəçi axtarışı yolunun tutulması normal qəbul edilə bilər. Amma Azərbaycanla danışıqlarda heç bir vasitəçiyə ehtiyac yoxdur", - deyə o əlavə edib.

A.Badamov vurğulayıb ki, seçki yaxınlaşdıqca Rusiya ilə Qərb arasındakı rəqabət Ermənistan üzərindən daha da qızışır. Bu rəqabət özünü ideoloji sahədə də göstərir. Rusiya Federasiyası Təhlükəsizlik Şurası sədrinin müavini Dmitriy Medvedevin ingilis, ya rus dili istifadəsi ilə bağlı fikirləri də bunu açıqca göstərir. Belarusla Ermənistan arasında yaşanan gərginlik də bura daxildir.

Deputat bildirib ki, bütün bunlara əlavə olaraq Fransanın Avropa və xarici işlər naziri Jan Noel Baronun Fransa Senatında Azərbaycan əleyhinə səsləndirdiyi iddialar da son dərəcə yanlışdır: "Azərbaycanda "Dağlıq Qarabağ" deyə inzibati ərazi vahidi mövcud deyil. Son zamanlar baş verən proseslər göstərir ki, müəyyən dairələr ədalət müstəvisini iki-li standartların meydanına çevirməyə çalışırlar. Bu da son dərəcə yanlış yol və sülhə zərbə vurmaq cəhdidir".

*Ə.QARDAŞXANOVA, "Azərbaycan"*

# Hayların halına ağlayan gərək
## Revanşistlər erməni xalqını yenidən keçmişə sürükləmək istəyirlər

Növbəti parlament seçkiləri yaxınlaşdıqca Ermənistanda vəziyyət gərgin xarakter alır. Seçkilərdə qalib gəlmək üçün revanşist qüvvələr yalançı vədlər verməklə xalqı öz tərəflərinə çəkmək istəyirlər. İrəvandakı son hadisələr göstərir ki, onların vədlərinə aldanıb arxalarınca gedən qüvvələr az da olsa, hələ var. Bu qüvvələrin əksəriyyəti "dənizdən-dənizə böyük Ermənistan" xəyalları ilə yaşayanlardır.



Revanşistlərin önündə gedən Ermənistanın keçmiş prezidentləri Robert Koçaryan və Serj Sarkisyandır. Cütlük adlandırılan bu revanşistlər "Qarabağ klanı" pərdəsi altında yenidən hakimiyyətə qayıtmaq və işğalçılıq ideyalarını canlandırmaq məqsədilə fəaliyyətlərini genişləndirməyə, seçicilərin səs çoxluğunu qazanmağa çalışırlar. Amma müşahidəçilərin rəylərinə görə, onların seçkilərdə qalib gəlmək şansları xeyli aşağıdır. Çünki əhalinin əksəriyyət hissəsi Ermənistana dinclik, əmin-amanlıq gətirməyə çalışan Paşinyanın partiyasına səs verməyə hazırlaşır. Bu səbəbdən Nikol Paşinyanla sabiq prezidentlər arasında qarşıdurma yeni fazaya daxil olub.

Ermənistandakı siyasi vəziyyətin gərginləşməsi Avropa İttifaqının da diqqətindən yayınmır. Avropa İttifaqının diplomatiya rəhbəri Kaya Kallas "Facebook" sosial şəbəkəsində yazıb: "Ermənistan mürəkkəb seçki qabağı vəziyyətlə üzləşib və bu vəziyyət hibrid təhdidlərlə xarakterizə olunur".

Ermənistanda siyasi gərginliyi artıran səbəblərdən biri də son günlər cəmiyyəti hiddətləndirən rüşvət məsələsidir. Verilən məlumatlara görə, rusiyalı iş adamı Samvel Karapetyanın rəhbərlik etdiyi "Güclü Ermənistan" partiyasının adından seçkiqabağı rüşvətin verilməsi və alınması ilə bağlı cinayət işi çərçivəsində aprelin 29-da saxlanılan beş nəfərdən üçü barəsində həbs qətimkan tədbiri seçilib. Ermənistanın Antikorrupsiya Komitəsi aprelin 29-da "Güclü Ermənistan" partiyasının adından fəaliyyət göstərən beş nəfəri gizli şəkildə rüşvət vermədə şübhəli bilərək saxlayıb. Seçki öncəsi rüşvətin verilməsi və alınması ilə bağlı cinayət işi çərçivəsində Samvel Karapetyanın "Güclü Ermənistan" partiyasının 14 üzvü saxlanılıb. Təbiidir ki, bu faktlar seçkilərin demokratik keçirilməsinin üzərinə kölgə salır.

Ermənistanda daxili siyasi vəziyyəti gərginləşdirən digər səbəb cəmiyyətdə revanşist qüvvələrin çıxışlarının artmasıdır. Öz millətinin düşməni olan, erməni xalqını uçuruma sürükləyən revanşist qüvvələrin başında dayanan və qan qoxulu ideyalar yayan Robert Koçaryan-Serj Sarkisyan cütlüyü hansı yolla olursa-olsun, hakimiyyətə gəlməyə can atırlar. Ermənistandakı radikal müxalifət və revanşist qruplar xüsusən Azərbaycanla sülh müqaviləsinin imzalanması məsələsini süni surətdə qabardaraq və bunu xalqa başqa yöndən izah edərək gərginliyi artırmağa çalışırlar. Revanşistlər çirkin məqsədlərinə çatmaq üçün müxtəlif xarakterli təxribatlar törədir, İrəvanda kütləvi aksiyalar keçirirlər. Revanşist qüvvələr bu addımları ilə erməni xalqını gələcəyə yox, keçmişə sürükləyirlər.

Ermənistanın baş naziri Nikol Paşinyan parlamentdəki çıxışında xalqa çağırış edib. Bildirib ki, biz Ermənistanı geosiyasi tələdən çıxartdıq: "Onu elə yerə apardıq ki, Ermənistan üçün bütün istiqamətlərdə perspektivlər açılıb və Ermənistan xalqı öz suveren iradəsi ilə hansı inkişaf vizyonunu məmnuniyyətlə biləcəyinə qərar verə bilər. Ermənistan xalqı seçkilərdə sülhü müdafiə etməlidir. Onların sülhə səs verəcəyinə bir an belə şübhə etmirəm. Və bu, bütün şəhidlərin xatirəsinə və onların bütün keçmişinə ən böyük ehtiramdır".

Təbiidir ki, erməni xalqı müharibə tərəfdarı olan revanşistləri, rüşvət yolu ilə hakimiyyətə gəlmək istəyənləri deyil, N.Paşinyanın çıxışında dediklərini dəstəkləyən partiyaya səs verib sülh və əmin-amanlığı üstün tutacaq, revanşistlərin hakimiyyətə gələn yollarını seçimləri ilə kəsəcək.

*Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"*

# Fransa yanlış siyasətindən əl çəkmir
## Bu dövlətin siyasi dairələri dərk etməlidirlər ki, təxribatçı cəhdləri Bakının sülh gündəliyini dəyişmək gücündə deyil

Regionumuzda münaqişə səhifəsinin qapanması və yeni geosiyasi reallıqların yaranması bəzi kənar qüvvələrin həqiqi niyyətini ortaya çıxardı. Uzun müddət Cənubi Qafqazla bağlı öz çirkin ambisiyalarını pərdələməyə çalışan dövlətlərin əsl məqsədləri ifşa olundu.



Daim qərəzli davranışı ilə ön planda olan belə dövlətlərdən biri də Fransadır. Ermənistana daim "təhlükəsizlik" vəd edən, "sizinləyəm" mesajları ötürən Paris, əslində, İrəvanı ağır məğlubiyyətə sürükləyən təhlükəli ssenarinin müəllifi oldu. Əvvəllər özünü "vasitəçi" kimi sırımağa çalışan, sonrakı dönəmdə açıq-aşkar Ermənistanın vəkili roluna çıxış edən Fransa bölgədə gərginliyin əsas katalizatoru olduğunu isbatladı.

Xüsusilə Emanuel Makronun prezidentliyi dövründə Fransanın xarici siyasətində Azərbaycana qarşı qərəzli mövqe açıq formaya keçdi. Fransa diplomatiyasının tarixinə nəzər saldıqda, dövlət maraqlarının emosiyalardan üstün tutan və rasional qərarlar verən rəhbərlərin olduğunu görmək mümkündür. Ən azından əvvəlki prezidentlər dönəmində Paris müəyyən diplomatik etika çərçivəsində neytrallıq imitasiyası yarada bilirdi. Makronun dövründə isə bu pərdə tamamilə götürüldü. Bu gün siyasət təkcə Azərbaycanla münasibətləri gərginləşdirmədi, həm də Fransanın bütövlükdə Cənubi Qafqazda, ümumiyyətlə, beynəlxalq aləmdə etibarını itirməsinə səbəb oldu. Özünü "tərəfsiz" kimi təqdim edən bir dövlətin bu dərəcədə qərəzli və düşmən mövqe sərgiləməsi Fransanın qlobal oyunçu missiyasını da kölgə altına aldı.

Bakı və İrəvan arasında sülh prosesinin reallığa çevrilməsinə baxmayaraq, Fransa yenə öz ampluasındadır. Məsələ ondadır ki, Fransanın anti-Azərbaycan yanaşması təkcə dövlət başçısı səviyyəsində yox, diplomatik korpusun fəaliyyətində də özünü qabarıq bürüzə verir. Hökumətin xarici siyasət idarəsinin rəhbəri Jan Noel Baronun bu günlərdə ölkə Senatında səsləndirdiyi iddialar rəsmi Parisin bölgədəki reallıqları hələ də qəbul etmək istəmədiyini nümayiş etdirir. Baronun Azərbaycanın suveren ərazisi olan Qarabağla bağlı qondarma terminlərdən istifadə etməsi və "mədəni irsin qorunması" bəhanəsi ilə Bakıya qarşı ittihamlar irəli sürməsi Fransanın bitib-tükənməz ambisiyalarını növbəti dəfə ifşa edir.

Azərbaycan XİN Fransa xarici işlər nazirinin Senatdakı qərəzli çıxışını cavabsız qoymayıb və qətiyyətlə pisləyib. Nazirliyin sözçüsü Ayxan Hacızadə Fransanın Qarabağla bağlı terminoloji təxribatlarını qəbulolunmaz adlandırıb. Açıqlamada qeyd olunub ki, Fransanın real faktları təhrif etməsi bölgədə sülh quruculuğu prosesinə zərbə vurur. Vurğulanıb ki, işğal dövründə Azərbaycan ərazilərində yüzlərlə məscid və digər tarixi-mədəni irs nümunələrinin dağıdılmasını görməzdən gələn Fransa nazirinin "mədəniyyət təəssübkeşi" kimi çıxış etməsi riyakarlığın pik nöqtəsidir. Azərbaycanın suveren ərazilərində yerləşən tarixi və dini abidələrimiz milli-mədəni irsimizdir və hamısı qorunur. Fransanın UNESCO tərəfindən Qarabağ bölgəsinə qiymətləndirmə missiyasının reallaşması məsələsinə dair çağırışları da həqiqətin açıq-aşkar təhrifidir. Azərbaycan dəfələrlə qiymətləndirmə missiyalarının reallaşdırılmasına çağırışlar etsə də, elə Fransa kimi ölkələrin əngəlləri nəticəsində mümkün olmayıb.

Baş verənlər onu da təsdiqləyir ki, onilliklər boyu ATƏT-in keçmiş Minsk qrupunun həmsədrlərindən biri olan Fransa heç vaxt obyektiv, tərəfsiz vasitəçi olmayıb. Tamamilə qapanmış və beynəlxalq hüquq müstəvisində artıq mövcud olmayan bir məsələnin Paris tərəfindən dövriyyədə saxlanılması Fransanın sülhün yox, gərginliyin tərəfdarı olduğunu bürüzə verir. Bu ölkə Ermənistanı öz geosiyasi ambisiyaları üçün alətə çevirməkdən əl çəkmir. Fransanın bu cür davranışı Cənubi Qafqazda dayanıqlı sülhün bərqərar olmasına qarşı sistemli maneə kimi qiymətləndirilir. İrəvana birtərəfli dəstək, təhrikçi ritorika Ermənistandakı revanşist qüvvələrdə illüziya yaradır. Hərbi-texniki əməkdaşlıq adı altında atılan addımlar Ermənistanı sülh masasından uzaqlaşdıraraq, regionda yeni münaqişə ocağını alovlandırmağa təşviq edir.

Bütün bunlara baxmayaraq, Fransa və onun təsiri altındakı revanşist dairələr bir həqiqəti anlamalıdırlar. Diplomatik manipulyasiyalara, hərbi təxribatlara və beynəlxalq platformalardakı qərəzli cəhdlərə rəğmən Azərbaycanın yaratdığı yeni reallıqlar dəyişməzdir. Bakı artıq şərtləri müəyyənləşdirən güclü tərəfdir. Süllh regionun geri dönməz gerçəkliyinə çevrilib. Ona görə də Ermənistan üçün yeganə çıxış yolu kənar güclərin oyuncağına çevrilmək yox, Azərbaycanın təklif etdiyi birbaşa dialoq və səmimi sülh gündəliyinə uyğun addımlamaqdır.

*İsmayıl QOCAYEV, "Azərbaycan"*

# Fransanın "dəstəy"i Ermənistana uğur vəd edə bilməz

Fransa Prezidenti Emmanuel Makronun "Avropa Siyasi Birliyi"nin sammitində bəzi məqamları vurğulaması Azərbaycanın nə dərəcədə haqlı olduğunu bir daha təsdiqlədi. Xüsusən Makronun İrəvanı "Rusiyanın peyki" adlandırması bu barədə Azərbaycanın səsləndirdiyi fikirlərin Fransa tərəfindən reallıq kimi qəbul olunduğunu nümayiş etdirdi.

Halbuki münaqişə dönəmində Fransa Ermənistanı "demokratik və müstəqil ölkə" kimi təqdim etmək üçün dəridən-qabıqdan çıxırdı. Ermənistanın müstəqil xarici siyasət yürütmək iqtidarında olmadığı, siyasi qərarlarının İrəvanda yox, kənar dairələrdə qəbul olunduğu təsbitləri inkar edilirdi. Lakin Makron məhz İrəvanda Ermənistanın Moskvadan asılı olduğunu bildirməsi Azərbaycan liderinin diplomatik uzaqgörənliyinin növbəti sübutudur.



Azərbaycanda Ermənistanın forpost statusu ilə bağlı səslənən fikirlər konkret faktlara əsaslanıb. Ermənistan sərhədlərinin başqa ölkə tərəfindən qorunması, iqtisadi asılılıq, hərbi baza və digər məqamlar İrəvanın vassallığını təsdiqləyib. Bununla yanaşı, Makronun etiraf etdiyi kimi, müharibə dövründə Fransanın İrəvana dəstəyi, kəşfiyyat məlumatları ötürməsi, diplomatik təzyiqləri barədə də kifayət qədər faktlar olub. Fransa dəfələrlə Azərbaycan əleyhinə qətnamə layihələri hazırlayaraq BMT-nin Təhlükəsizlik Şurasından keçirməyə çalışıb. Lakin Azərbaycan Prezidentinin qətiyyətli xarici siyasəti, uzaqgörən addımları və Qoşulmama Hərəkatı çərçivəsində qurduğu sıx əlaqələr bu cəhdləri iflasa uğradıb.

Makronun çıxışı aydın şəkildə göstərir ki, Fransa 2020-ci ildə Azərbaycanın qələbəsini həzm edə bilməyib. Onun ermənilərə yönəlik "Rusiya sizi tərk etdi" ifadəsi İrəvana ünvanlanmış "yeni xilaskar" mesajıdır. Görünür, Ermənistanın hərbi-siyasi sisteminin çöküşünü Fransa özü üçün geosiyasi fürsətə çevirmək istəyir. Erməni cəmiyyətinin incikliyini körükləyərək, Fransanı "yeganə və sadiq müttəfiq" kimi təqdim edir.

Fransa dövlət başçısının "erməni əsirlər" məsələsində İrəvana dəstək vədi, "mənə arxalana bilərsiniz" sözləri bitmiş münaqişənin külünü eşələmək cəhdidir. Ola bilər, Fransa bu mövzunu gündəmdə saxlamaqla Azərbaycanın beynəlxalq imicinə zərbə vurmağı, Bakını hansısa güzəştlərə məcbur etməyi hədəfləyir. Lakin bu taktika indiyə qədər heç bir nəticə verməyib. Reallıqda Fransa 2020-ci ildə də, sonrakı dövrdə də Ermənistan üçün həlledici heç nə edə bilməyib. Makronun "biz yanınızdaydıq" ifadəsi Azərbaycanın döyüş meydanında və beynəlxalq diplomatik müstəvidə təkcə Ermənistana deyil, onun arxasındakı güclərə də qalib gəldiyinin bəyanıdır. O baxımdan bu cür bəyanatlar, sadəcə, Azərbaycan-Fransa münasibətlərinin daha da korlanmasına səbəb olur.

Ermənistan və Fransa rəhbərliyinin imzaladıqları hərbi-texniki sahədə əməkdaşlıq sənədləri də regionun təhlükəsizlik arxitekturasını sarsıtmağa yönəlmiş addımlardır. Fransanın bölgədə hərbi mövcudluğunu artırmağa çalışması "sülh tərəfdarıyam" deyən bir dövlət başçısının müqavilənin imzalanması ərəfəsində atdığı ən təzadlı addımdır.

Makronun İrəvan küçələrində qaçışması, rəqs etməsi, mahnı oxuması isə siyasi populizm və şou nümunəsidir. Dövlət başçısına yaraşmayan qeyri-ciddi hərəkətlərlə özünü erməni toplumuna sevdirməyə çalışan Makron bununla həm də öz ölkəsindəki erməni lobbisindən xal qazanmaq niyyəti güdür.

Nəticə etibarilə Bakının səsləndirdiyi fikirlərin bu gün Ermənistanın ən yaxın müttəfiqləri tərəfindən etirafı regiondakı geosiyasi mənzərənin köklü şəkildə dəyişməsinin təzahürüdür. Məhz Azərbaycan öz gücü, hərbi-diplomatik qələbələri ilə bu həqiqətləri Ermənistana, onun havadarlarına diktə edib və regionda yeni reallıqlar yaradıb. Fransanın İrəvana heç bir "dəstəy"i Ermənistana uğur vəd edə bilməz.

*İ.QOCAYEV, "Azərbaycan"*

# Zəfərin əbədi ünvanı

## Şuşa artıq azadlığının qürurunu yaşayır

Şuşa azaddır və bu azadlıq təqvimlərimizdən illərin qara ləkəsini də birdəfəlik silib atıb. Düz otuz dörd il əvvəl 8 may tarixi xalqımızın yaddaşına xəyanət və itki günü kimi həkk olunmuşdu. Lakin bu gün biz Şuşanın işğalını deyil, onun azadlığının altıncı ilinə addımlayan dirçəlişini, yenidən doğuluşunu qürurla qeyd edirik. Şuşa artıq həsrət ünvanı deyil, Azərbaycanın bükülməz qəddinin, sarsılmaz iradəsinin və milli ləyaqətinin simvoludur.




### İşğalla heç vaxt barışmadıq

Şuşanın 1992-ci ildəki süqutu hərbi məğlubiyyətdən daha çox o dövrdə ölkədə hökm sürən siyasi özbaşınalığın, xaosun və hakimiyyət uğrunda gedən çirkin oyunların nəticəsi idi. Təbii istehkam olan, hər daşı bir qala rolunu oynayan bu müqəddəs şəhər daxili çəkişmələr və antimilli qüvvələrin satqınlığı səbəbindən yiyəsiz buraxılmışdı. O dövrdə Bakıda kreslo davası edənlər Qarabağın taleyini öz ambisiyalarına qurban vermişdilər.

Prezident İlham Əliyev 10 may 2024-cü ildə Şuşada doğma sakinlərlə görüşərkən həmin dövrün acı mənzərəsini belə təsvir edib: "Təsadüfi insanlar hakimiyyətə gəldi. Küçələrdən heç bir təhsil almamış, heç bir dövlət işində təcrübəsi olmayan, heç bir biliyə malik olmayan müdafiə nazirləri, dövlət katibləri, parlament sədrləri, prezident vəzifələrinə yiyələndilər və bunun acı nəticəsini Azərbaycan xalqı çəkdi... AXC-Müsavat cütlüyünün tör-töküntüləri... ...Məhz onların hakimiyyətə can atmaları dövründə və ovaxtkı hakimiyyətin satqın, qorxaq olması səbəbindən Şuşa işğal altına düşdü. Şuşanı müdafiə etmək üçün çox da böyük qüvvə lazım deyildi... ...Şuşanı, sonra Laçını, ondan sonra Kəlbəcəri qurban verdilər".

Bu xəyanət təkcə bir şəhərin itirilməsi ilə nəticələnmədi, bütöv bir xalqın qəlbinin yaralanmasına səbəb oldu, onların taleyində 28 illik böyük bir nisgilin təməlini qoydu. O vaxt Bakıda hakimiyyət davası döyənlər sıldırım qayalar üzərindəki alınmaz qala olan Şuşanı düşmən qarşısında müdafiəsiz qoyaraq tarixin qara səhifələrinə adlarını həkk etdirdilər. Ölkəmizin rəhbərinin vurğuladığı kimi, dövlət işində təcrübəsi olmayan, təsadüfi insanların rəhbərliyə gəlməsinin bədəlini şuşalılar onilliklərlə davam edən məcburi köçkünlük həyatı ilə ödəməli oldular.

Düz bir qərinə boyunca Şuşasız keçən hər günümüz qan yaddaşımıza vurulan dağ oldu. Lakin Azərbaycan xalqı bu işğalla heç vaxt barışmadı, Şuşanı azad edəcəyi andını bir an belə unutmadı.

### Biz qayıtdıq, Şuşa!

2020-ci ilin 8 noyabrı Azərbaycanın tarixindəki o qara ləkəni birdəfəlik sildi. Müzəffər Ali Baş Komandanın "Şuşasız bizim işimiz yarımçıq qalar" strateji hədəfi ilə hərəkət edən qəhrəman Azərbaycan əsgəri dünya hərb tarixinə düşəcək rəşadət göstərdi.

Qarabağın ürəyi uğrunda ölüm-dirim savaşına çıxan qəhrəmanlarımız minalı ərazilərə, işğalçı Ermənistanın onilliklər ərzində qurub möhkəmləndirdiyi sədlərə, dərin dərələrə, keçilməz sıldırımlara, havanın şaxtalı, qarlı olmasına, düşmənin yağış kimi yağdırdığı güllələrə, mərmilərə rəğmən Şuşaya uzanan ölüm təhlükəli yolu bir həmlədə keçdilər. Qisas hissi ilə silahlanmış igid döyüşçülərimiz qədim şəhərimizin bina olunduğu sıldırımları aşaraq yağıların nəfəslərini kəsdilər. Şuşanı düşməndən təmizləyərək əzəli sahiblərinə qaytardılar.

Bu böyük Zəfəri Şəhidlər xiyabanından xalqımıza müjdələyən, dünyaya çatdıran Müzəffər Ali Baş Komandan İlham Əliyev o an hiss etdiyi təsvirəgəlməz qüruru bu sözlərlə dilə gətirdi: "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm. İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq!"

Uzaqgörən siyasət həyata keçirərək Azərbaycanın ərazi bütövlüyünü təmin edən Prezident İlham Əliyevin Şuşanın azadlıq günündə Ulu Öndərin məzarını ziyarət etməsinin öz rəmzi mənası var idi: "Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!"

### 8 may qaranlığı 8 Noyabr Zəfər günəşi ilə aydınlanıb

Bu gün Şuşa artıq xarabalıqlar şəhəri deyil, nəhəng quruculuq meydanı, modern şəhərsalmanın ünvanıdır. "Xarıbülbül" festivalının sədaları, Vaqif poeziyasının ruhu yenidən Cıdır düzünə qayıdıb. Şuşanın məscidlərindən ucalan azan səsləri xalqımızın şükranlıq duaları ilə birləşərək Tanrı dərgahına ucalır.

Qısa zaman ərzində qoynunda musiqi festivalları, poeziya günləri, beynəlxalq toplantılar düzənlənən mədəniyyət paytaxtımız Şuşanın 270 illik təntənəli yubileyi keçirilib, 2022-ci il Azərbaycanda "Şuşa ili" kimi qeyd olunub. Dünya azərbaycanlıları Zəfər qurultaylarını Şuşada keçiriblər.

2021-ci il iyunun 15-də - Qurtuluş Günündə Şuşada Azərbaycan və Türkiyə prezidentləri tərəfindən imzalanan Şuşa Bəyannaməsi ilə qədim şəhər həm də türk dünyasının birlik rəmzinə çevrildi.

Prezident İlham Əliyevin Şuşada vurğuladığı kimi, bu dirçəliş xalqın iradəsinin təcəssümüdür: "Mən 2020-ci il noyabrın 8-də xalqa müraciətimdə demişdim ki, biz Şuşanı dirçəldəcəyik. Bax, bu gün biz dirçəldilən Şuşanı görürük. Təkcə bu gözəl binalar deyil, Şuşada çox genişmiqyaslı quruculuq işləri gedir. Bütün evlər gözəl memarlıq üslubunda - Şuşanın ənənəvi üslubunda inşa edilmişdir".

Şuşa indi öz əzəli sahiblərini - 28 il vətən həsrəti ilə yaşayan, lakin inamını itirməyən şuşalıları qarşılayır. Zəfər yolu ilə başlayan bu böyük qayıdış karvanları Şuşaya yeni həyat, yeni nəfəs gətirir. Artıq Şuşanın küçələrində uşaq gülüşləri eşidilir, məktəb zəngləri çalınır, yeni mənzillərin işıqları yanır. Bu, Azərbaycan xalqının milli ruhunun Qarabağa qayıdışının təcəssümüdür.

Ötən müddətdə Şuşada həyata keçirilən sürətli quruculuq və bərpa işləri sayəsində 377 ailə, 1411 nəfər doğma şəhərinə qovuşub.

Tariximizin 8 may qaranlığı 8 Noyabr Zəfər günəşi ilə əbədi aydınlanıb. Şuşanın azadlığı bizim həm şərəfimiz, həm də gələcək nəsillərə qoyduğumuz ən böyük mirasdır.

Şuşa bizimdir, Qarabağ Azərbaycandır!

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

**Dünənin tarixi bu gün salnamədir**

# Halal ömür

Fərəməz Kərim oğlu Paşayev 1910-cu ildə Zəngəzur qəzasının (hazırda Zəngilan rayonunun) Məlikli kəndində anadan olmuşdu. 1927-ci ildə Zəngilan kənd məktəbini bitirmiş və Gəncə Orta Pedaqoji Məktəbinə daxil olmuşdu. 1931-ci ildə müəllim kimi fəaliyyətə başlamışdı.

Zəngilan kənd natamam orta məktəbində kimya-biologiya müəllimi işləyən F.Paşayev qısa zamanda pedaqoji qabiliyyəti və tələbkarlığı ilə seçilərək əvvəl məktəbin direktor müavini, sonra direktoru təyin edilmişdi. Müəllimliyə olan sevgisi onu pedaqoji təhsilini davam etdirməyə sövq etmişdi. 1934-1936-cı illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda təhsil alan Fərəməz müəllim şagirdlərinə həm elm öyrədirdi, həm də onlara həyat dərsi keçirdi.

Dünya isə çalxalanırdı. Keçmiş SSRİ-nin rəhbərləri bu çalxantıların ötəri olduğunu düşünürdülər. Belə bir vaxtda - 1939-cu ildə Fərəməz müəllim hərbi xidmətə çağırılır. Rostov vilayətinin Morozov şəhərində xidmətə başlayır. Zəngilan üçün, Məlikli üçün, məliklilər üçün darıxsa da, hərbi xidmətdə fərqlənirdi. Komandirlərinin əmr və göstərişlərini məsuliyyətlə yerinə yetirirdi. Bu zaman müharibə başladı.

Fərəməz Paşayevin ilk döyüşü 1941-ci ilin iyul ayında oldu - Ukraynanın Pakrovka kəndində. Bu kənddən başlayan döyüş yolu Dnepr uğrunda döyüşlərə qədər uzandı. Moskva ətrafında, "Ağ kilsə" adıyla tanınan yerdə gedən döyüşlərdə F.Paşayev ayağından yaralandı. Müalicə olunduqdan sonra yenidən cəbhəyə qayıtdı. Yenə yaralandı. Yenə müalicə, sonra yenə döyüşlər…

Fərəməz Paşayev cəsur döyüşçü idi. Döyüşlərdə göstəriş olmadan şəraitə uyğun taktiki manevrlər etmə bacarığı komandirinin diqqətindən yayınmayıbmış. 1942-ci ilin mart ayında ona kiçik leytenant hərbi rütbəsi verildi. 1943-cü ilin dekabrında isə baş leytenant rütbəsi verilməklə bölük komandiri təyin olundu.

Bölüyə Ukraynanın böyük kəndlərindən birini faşistlərdən azad etmək tapşırılmışdı. Kəndə düşmənin qüvvələrini müəyyənləşdirmək üçün ilk sınaq hücumu təşkil olundu. Bir qədər atışıb geri çəkiləcəkdilər, düşmən arxayınlaşan kimi isə qəfil hücum edəcəkdilər. Bölüyə təxmini döyüş planı verilmişdi. Bu planı baş leytenant Fərəməz Paşayev dəqiqləşdirmişdi. Hücum bu dəqiqləşdirmə əsasında aparılacaqdı. İlk hücumda Fərəməz də iştirak etdi. Döyüşçülər onun bir qədər arxadan atışmasını istəsələr də, o, razılaşmadı... Savaş gedikcə qızışırdı. O səbəbdən döyüşdən nəzərdə tutulduğu vaxtda geri çəkilə bilmədilər. Fərəməz ayağından və sinəsindən yaralandı. Onu döyüş ərazisindən çıxarıb təxliyə etdilər.

Hərbi hospitalda müalicə olundu. Amma Belarusda sağ ayağını itirdiyi üçün döyüşlərə qayıda bilmədi. Onu müharibə əlili kimi tərxis etdilər, "Birinci və ikinci dərəcəli Vətən müharibəsi" ordenləri, "İgidliyə görə" və "Almaniya üzərində qələbəyə görə" medalları ilə təltif olundu.



Müharibə isə davam edirdi. Fərəməz döyüşçü idi. Müharibə başa çatmamış Zəngilana qayıtmaqdan xəcalət çəkirdi. "Nəfəsi gedib-gələn zabit döyüşlərdən kənar qalmamalıdır. Yaralanmış olsa da, barmağı tətik sıxa bilirsə, döyüşməlidir. Müharibə bitməmiş şəhid analarının, balalarının üzünə necə baxmaq olar?", - Fərəməz belə deyirdi, belə düşünürdü.

1944-cü ilin may ayı idi. Zəngilan Rayon Partiya Komitəsinin siyasi maarif kabinetinin müdiri təyin edilən Fərəməz Paşayev hərbçi məsuliyyəti ilə işləyirdi. Ona elə gəlirdi ki, müharibə dövründə bütün sahələrdə qələbə naminə belə işləmək lazımdır.

1945-ci ildə onu Azərbaycan KP MK yanında Respublika Təbliğatçılar Məktəbinə göndərdilər. Həmin il oktyabrın 1-dən 1946-cı ilin sentyabrın 1-dək oxudu, öyrəndi. Təhsilini başa vurub Zəngilana qayıtdı, 1948-ci ilə kimi köhnə vəzifəsində işini davam etdirdi. 1948-ci ildə pedaqoji fəaliyyətə göndərildi, Zəngilan kənd orta məktəbinin direktoru təyin olundu. Pedaqoji fəaliyyətində qazandığı uğurlara görə Əməkdar müəllim fəxri adına layiq görüldü. 1987-ci iləcən həmin məktəbdən ayrılmadı.

Bir dəfə söhbət zamanı dostlarından biri ondan soruşub ki, müxtəlif vəzifələrdə işləyibsən, yenidən əvvəlki illərə qayıda bilsəydin hansı vəzifənin cəfakeşi olardın? Fərəməz müəllim suala belə cavab verib:

- Gəncədən qayıdıb işlədiyim müəllimliyin. Onda həm cavan idim, həm də düşüncələrimdə bircə peşə vardı - müəllimlik.

1988-1989-cu illərdə azərbaycanlıların Ermənistandan deportasiyası, Emənistanın ərazi iddiası Fərəməz müəllimin də ürəyini sıxırdı, heysiyyətini titrədirdi, ermənilərin getdikcə genişlənən açıq düşmənçiliyinin sıxıntılarına dözə bilmirdi. Camaatla söhbətləşəndə bu narahatlığını bildirirdi. Söhbətin sonunda isə "Barmağınız tətikdə titrəməsin, ürəyinizə təpər, gözlərinizə nur versin Tanrımız. Vətəni sevə-sevə qoruyun, qoruya-qoruya sevin", - deyirdi.

Oğlu Tariyelin övladları olan Elçin və Elxan qardaşları Birinci, nəticəsi Fərəməz Paşayev isə İkinci Qarabağ müharibələrində göstərdikləri şücaətləri ilə babalarının nəsihətinə və qəhrəmanlıq yoluna sadiq olduqlarını təsdiqlədilər.

1989-cu il sentyabrın 27-də haqq dünyasına qovuşan vətənpərvər ziyalımız hələ uzun illər yaddaşlardan silinməyəcək. Çünki Fərəməz müəllim halal ömür yaşamışdı.

***Bayram MƏMMƏDOV,***
***Əməkdar müəllim***

# Faşizm üzərində Qələbənin 81-ci ildönümü Polşada qeyd olunub

Faşizm üzərində Qələbənin 81-ci ildönümü münasibətilə Azərbaycanın Polşadakı səfirliyinin təşkilatçılığı ilə Varşava şəhərinin müsəlman-tatar qəbiristanlığında, azərbaycanlı zabit Vəli bəy Yadigarın məzarı qarşısında tədbir keçirilib.



AZƏRTAC xəbər verir ki, mərasimdə səfir Nərgiz Qurbanova, səfirliyin əməkdaşları, Polşada akkreditə edilmiş Türk Dövlətləri Təşkilatına daxil olan ölkələrin səfirləri və dini icmanın təmsilçiləri iştirak ediblər.

Tədbirin əvvəlində Vəli bəy Yadigarın məzarı üzərinə əklil qoyulub, onun və müharibədə həlak olmuş bütün soydaşlarımızın ruhuna dualar oxunub.

Mərasimdə çıxış edən səfir Nərgiz Qurbanova qeyd edib ki, Azərbaycan müharibə illərində həm ön, həm də arxa cəbhədə mühüm rol oynayıb. 681 mindən artıq azərbaycanlı müharibədə iştirak edib, onların yarıdan çoxu həlak olub və ya itkin düşüb. Respublikanın hər beşinci sakininin cəbhəyə yollandığı diqqətə çatdırılıb və vurğulanıb ki, Azərbaycan ərazisində formalaşdırılmış milli diviziyalar Qafqazdan Berlinədək şərəfli döyüş yolu keçib. Azərbaycan əsgərləri göstərdikləri igidliyə görə yüksək dövlət mükafatları, yüzdən çox azərbaycanlı isə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb.

Nərgiz Qurbanova həmçinin Azərbaycanın müharibə dövründə enerji təminatında oynadığı mühüm rolu xüsusi qeyd edərək, akademik Yusif Məmmədəliyevin rəhbərliyi ilə həyata keçirilən elmi nailiyyətləri vurğulayıb, Azərbaycan xalqının arxa cəbhədə göstərdiyi fədakarlıqdan bəhs edib.

Tədbirdə səfir Polşa ilə tarixi əlaqələrə də toxunub və görkəmli azərbaycanlı zabit Vəli bəy Yadigarın fəaliyyətini xüsusi qeyd edib. Onun həm Azərbaycan Xalq Cümhuriyyəti ordusunda, həm də Polşa Silahlı Qüvvələrində xidmət etdiyi, İkinci Dünya müharibəsi illərində Polşa müqavimət hərəkatında iştirak etdiyi və 1944-cü il Varşava üsyanının təşkilində mühüm rol oynadığı vurğulanıb.

Çıxışının sonunda səfir diqqətə çatdırıb ki, bu kimi tədbirlər tarixi yaddaşın qorunması və gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın qələbəyə verdiyi töhfə və Vəli bəy Yadigar kimi şəxsiyyətlərin fəaliyyəti azadlıq və sülh uğrunda mübarizənin ümumbəşəri dəyərlərə əsaslandığını bir daha təsdiqləyir.

Daha sonra tədbirdə Varşava Universitetinin Asiya və Afrika mədəniyyətləri fakültəsi nəzdində fəaliyyət göstərən Azərbaycan Araşdırmaları Mərkəzinin rəhbəri Şəhla Kazımova çıxış edərək, Azərbaycanın nasizm üzərində qələbəyə verdiyi mühüm töhfəni vurğulayıb, həm cəbhədə döyüşənlərin, həm də bütövlükdə cəmiyyətin fədakarlığını qeyd edib. O, xüsusilə Azərbaycanəsilli zabitlərin Polşa tarixindəki roluna diqqət çəkərək, Vəli bəy Yadigar və Cahangir Kazım bəy kimi şəxsiyyətləri xatırladıb, eyni zamanda müharibə illərində fəal iştirak edən qadınların xidmətlərini xüsusi qeyd edib.

Tədbirin sonunda iştirakçılarına çay süfrəsi açılıb və xalqımızın adət-ənənəsinə uyğun olaraq təamlar təqdim olunub.

# Azərbaycanla əlaqələrin inkişafı Avropa üçün strateji zərurətdir

## Aİ rəsmilərinin ardıcıl səfərləri də bunu təsdiqləyir

Avropa İttifaqının xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Kaya Kallasın Azərbaycana səfəri ölkəmizlə Avropa İttifaqı arasında münasibətlərin yeni mərhələyə qədəm qoyduğunu göstərən mühüm siyasi hadisə kimi qiymətləndirilə bilər. Son dövrlərdə Aİ rəsmilərinin Azərbaycana intensivləşən səfərləri də təsadüfi deyil və bu, ölkəmizin regional və beynəlxalq müstəvidə artan strateji əhəmiyyətinin göstəricisidir.

Milli Məclisin deputatı Sevinc Hüseynova qəzetimizə açıqlamasında deyib ki, xüsusilə Vətən müharibəsindən sonra bu münasibətlər artıq emosional ritorikadan və epizodik siyasi yanaşmalardan uzaqlaşaraq, davamlı qarşılıqlı maraqların və rasional seçimlərin müəyyən etdiyi praqmatik tərəfdaşlıq modelinə çevrilməkdədir. Avropa Parlamenti və AŞPA kimi bəzi siyasi platformalarda zaman-zaman müşahidə olunan qərəzli ritorikaya baxmayaraq, Avropa İttifaqı ilə Azərbaycan dövləti arasında institusional dialoqun fasiləsiz davam etməsi bu münasibətlərin artıq sistem xarakteri aldığını göstərir. "Bu, eyni zamanda onu sübut edir ki, Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı ayrı-ayrı siyasi mövqelərin təsirindən daha çox, uzunmüddətli geosiyasi maraqlar və strateji zərurətlər üzərində qurulur. Kaya Kallasın regiona səfəri və Ermənistanla təmaslardan dərhal sonra Bakıya gəlməsi də məhz bu kontekstdə xüsusi diqqət çəkir. Prezident İlham Əliyevlə keçirilən görüşdə səsləndirilən fikirlər və daha əvvəl Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın Bakıya səfəri zamanı qəbul olunmuş birgə bəyanat bu münasibətlərin artıq strateji xarakter daşıdığını təsdiqləyir. Bu səfər həm də onu göstərir ki, Avropa İttifaqı regionda formalaşan yeni geosiyasi reallıqları nəzərə almağa və Azərbaycanı Cənubi Qafqazın əsas siyasi və iqtisadi aktoru kimi qəbul etməyə məcburdur. Çünki hazırkı mərhələdə regionda təhlükəsizlik, enerji təminatı, nəqliyyat marşrutları və kommunikasiya layihələri ilə bağlı istənilən ciddi təşəbbüs Azərbaycanın iştirakı olmadan real nəticə verə bilməz", - deyə o əlavə edib.



Deputat qeyd edib ki, Azərbaycan bu gün Cənubi Qafqazda sabitliyin, təhlükəsizliyin və etibarlı tərəfdaşlığın əsas təminatçılarından biri kimi çıxış edir. Xüsusilə enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiya marşrutları, "yaşıl enerji" layihələri və Orta dəhlizin inkişafı fonunda Avropanın Azərbaycana marağı daha da artıb. Mövcud geosiyasi reallıqlar göstərir ki, Avropa İttifaqı regionda uzunmüddətli və etibarlı əməkdaşlıq üçün Azərbaycana xüsusi önəm verir. S.Hüseynova vurğulayıb ki, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən balanslaşdırılmış, praqmatik və milli maraqlara əsaslanan xarici siyasət nəticəsində Azərbaycan həm Şərq, həm də Qərb üçün etibarlı tərəfdaş statusunu möhkəmləndirib. Bu gün ölkəmiz yalnız enerji ixrac edən dövlət deyil, eyni zamanda mühüm siyasi dialoq və əməkdaşlıq platforması kimi qəbul olunur: "Aİ rəsmilərinin ardıcıl səfərləri bir daha göstərir ki, Azərbaycanla münasibətlərin inkişafı Avropa üçün strateji zərurətə çevrilib. Bu səfərlər həm siyasi dialoqun genişlənməsi, həm iqtisadi əlaqələrin dərinləşməsi, həm də regionda sülh və təhlükəsizlik məsələlərində Azərbaycanın rolunun daha yaxından qiymətləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycanın beynəlxalq nüfuzu və geosiyasi çəkisi davamlı şəkildə artır və ölkəmiz regionun gələcəyini müəyyən edən əsas aktorlardan biri kimi mövqeyini daha da gücləndirir".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# "İrəvan Zirvəsində Azərbaycan-Ermənistan sülh prosesinə dəstək Cənubi Qafqazda yeni mərhələnin göstəricisidir"

"İrəvanda keçirilən "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısı Avropa İttifaqına (Aİ) üzvlük prosesinin durğunluq yaşadığı bir dövrdə Türkiyə üçün alternativ, lakin tamamlayıcı diplomatik kanalın formalaşdığını nümayiş etdirir. Zirvə toplantısı təhlükəsizlik, enerji və kommunikasiya kimi strateji sahələrdə koordinasiyanı təmin etmək məqsədilə Aİ-nin 27 üzvünü, namizəd dövlətləri və birliyə daxil olmayan digər Avropa ölkələrini bir araya gətirən mühüm platformadır. Türkiyənin bu tədbirdə prezident deyil, vitse-prezident səviyyəsində təmsil olunması strateji seçimdir. Ankara üzvlük prosesindəki siyasi durğunluq fonunda münasibətləri məhdud və nəzarətli çərçivədə saxlamağa üstünlük verir. Beləliklə, Türkiyənin bu sammitdəki iştirakı onun seçici əməkdaşlıq və çevik diplomatiya kursunun bariz nümunəsidir".

Bu sözləri AZƏRTAC-a açıqlamasında türk ekspert Zeynep Gizem Özpınar deyib.

Onun sözlərinə görə, Zirvə toplantısında Azərbaycan və Ermənistan arasındakı sülh prosesinə ifadə olunan dəstək, eləcə də tərəflərin öz sadiqliklərini yenidən təsdiqləmələri Cənubi Qafqazın artıq aktiv münaqişə zonasından çıxaraq, danışıqlar və postmünaqişə dövrünün bərpa mərhələsinə qədəm qoyduğunu nümayiş etdirir. Bu kontekstdə Azərbaycan Prezidentinin ikili standartlar mövzusunu xüsusi vurğu etməsi regional aktorların Avropanın ritorikasına cavab olaraq daha tənqidi, müstəqil və milli maraqlara söykənən diskurs formalaşdırdığını sübut edir.

"Ümumilikdə bu inkişaf meyilləri Türkiyə-Avropa İttifaqı münasibətlərinin mahiyyət etibarilə transformasiyaya uğradığını göstərir. Texniki müstəvidə Aİ-nin irəliləyiş hesabatları və üzvlük meyarları hələ də hüquqi qüvvəsini qorusa da, praktikada münasibətlər getdikcə daha çox geosiyasi və funksional əsaslara söykənir. Avropanın enerji təhlükəsizliyi, nəqliyyat dəhlizləri və regional sabitlik kontekstində Türkiyəyə ehtiyacının artdığı bir dövrdə, Ankara Avropa Siyasi Birliyi kimi platformalar vasitəsilə Avropa ilə təmaslarını kəsmədən, lakin asılılıqdan uzaq bir mövqe nümayiş etdirir. Bu baxımdan, İrəvan Zirvəsini Türkiyə xarici siyasətinin getdikcə daha aydın şəkildə təzahür edən çoxşaxəli, praqmatik və balanslaşdırılmış strateji kursunun məntiqi davamı kimi qiymətləndirmək olar", - deyə ekspert izah edib.

# Xarici ekspertlər Avropanın enerji təchizatında Azərbaycanın artan rolunu etiraf və təqdir edirlər

**Azərbaycan qazına tələbatın artması fikrini Prezident İlham Əliyev son ay ərzində ölkəmizdə səfərdə olan dövlət rəhbərləri və nümayəndə heyətləri ilə görüşlərində bir daha vurğulamışdır. Bu, ilk növbədə özünü Azərbaycandan qaz idxal edən ölkələrin sayının artmasında göstərir. Elə cari ilin əvvəlində daha iki Avropa ölkəsinin bu sıraya qoşulması da deyilənləri təsdiq edir.**

Beləliklə, hazırda Azərbaycandan 16 ölkə - Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, İtaliya, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya, Slovakiya, Ukrayna, Suriya, Almaniya və Avstriya qaz alır. Prezident İlham Əliyev aprelin 27-də Qəbələdə Çex Respublikasının Baş naziri Andrey Babişin səfəri zamanı mətbuata bəyanatla çıxış edərkən demişdir: "Təbii ki, əməkdaşlığımızın böyük hissəsi energetika sektoruna aiddir. Burada da uzun illər ərzində Çexiya və Azərbaycan çox etibarlı tərəfdaşlardır. Azərbaycan nefti Çexiyaya ixrac edilir və Çexiyanın enerji balansında önəmli yer tutur. Azərbaycan dünya bazarlarına öz enerji resurslarını ixrac edən etibarlı ölkələr sırasındadır. Bunu o cümlədən Avropa İttifaqı da qeyd edir və Azərbaycanı etibarlı tərəfdaş kimi qiymətləndirir. Bu gün Azərbaycan qazı 16 ölkəyə ixrac edilir və onlardan 10 ölkə Avropa İttifaqının üzvüdür. O cümlədən Azərbaycan Çexiyaya qonşu olan ölkələrə təbii qaz ixrac edir. Təbii ki, bu gün biz bu barədə də danışdıq və bu sahədə gələcək əməkdaşlıq haqqında qərara gəldik. Biz buna daha geniş prizmadan yanaşırıq. Bu, sadəcə olaraq, ticarət əməliyyatları, enerji resurslarının ixracı əməliyyatları olmayacaq. Biz buna daha genişmiqyaslı, uzunmüddətli əməkdaşlıq kimi yanaşırıq".

Mayın 4-də dövlətimizin başçısı İtaliya Respublikası Nazirlər Şurasının Sədri Ciorcia Meloninin ölkəmizə səfəri çərçivəsində mətbuata bəyanatında da həmin mövzuya toxunmuşdur: "Təbii ki, əlaqələrimizin əsas istiqamətlərindən biri energetika sahəsində tərəfdaşlıqdır. Burada da biz uzun illər ərzində etibarlı tərəfdaşlar kimi birbirimizi dəstəkləyirik. Azərbaycan İtaliyanın neft təchizatında ikinci yerdədir, qaz təchizatında da ikinci yerdədir. Bizim üçün İtaliya bazarı həm neft, həm qaz üzrə birinci dərəcəli əhəmiyyət daşıyır. Keçən il Azərbaycan 25 milyard kubmetr təbii qaz ixrac edib, onun 9,5 milyardı İtaliya bazarına ixrac olunmuşdur. Bu gün söhbətlər və danışıqlar əsnasında biz bu həcmi artırmaq üçün müzakirələr aparmışıq. Bunun üçün təbii ki, "Cənub qaz dəhlizi"nin tərkib hissəsi olan TAP layihəsinin genişləndirilməsi lazımdır. Artıq müəyyən dərəcədə genişləndirilib, amma bu proses davam etdirilməlidir".

Mayın 5-də Prezident İlham Əliyev Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə Avropa İttifaqının Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri, eyni zamanda ölkəmizin enerji təhlükəsizliyinin təmin olunması baxımından həmişə Avropa İttifaqının etibarlı tərəfdaşı olduğunu vurğuladı. Bu xüsusda dövlətimizin başçısı qeyd etdi ki, bu yaxınlarda Azərbaycan qazı Aİ-nin daha iki üzv ölkəsinə - Almaniyaya və Avstriyaya çatıb.

Azərbaycan qazının ixracına aid bu və digər sözlər istər yerli, istərsə də xarici ekspertlərin diqqət mərkəzindədir. Məsələn, alman politoloqu və beynəlxalq münasibətlər üzrə ekspert Klemens Fişer ölkəsi ilə Azərbaycan arasında enerji əməkdaşlığının qlobal enerji problemləri və dayanıqlı enerji mənbələrinə keçid fonunda xüsusi əhəmiyyət kəsb etdiyini deyib. Bildirib ki, Azərbaycan Avropa ölkələrinə neft və təbii qaz da daxil olmaqla enerji resurslarının əsas təchizatçıları sırasındadır. "Cənub qaz dəhlizi" vasitəsilə təchizatlar Avropanın enerji mənbələrinin şaxələndirilməsində mühüm rol oynayır.



O vurğulayıb ki, ənənəvi enerji ilə yanaşı, bərpaolunan enerji mənbələri və "yaşıl hidrogen" istehsalı da daxil olmaqla "yaşıl keçid" sahəsində əməkdaşlıq fəal şəkildə inkişaf edir. Onun qiymətləndirməsinə görə, Berlin Bakını bu istiqamətlərdə perspektivli tərəfdaş kimi görür, texnologiyalar mübadiləsi və investisiyalar isə uzunmüddətli və qarşılıqlı faydalı əməkdaşlıq üçün əsas ola bilər.

İtaliyalı ekspert Salvatore Santajelonun fikrincə, Baş nazir Ciorcia Meloninin Prezident İlham Əliyevlə apardığı danışıqlar formal olaraq siyasi və ticarət əlaqələrinin gücləndirilməsinə yönəlsə də, daha dərin motiv də göz qabağındadır. Bu, İtaliyanın Azərbaycanın zəngin təbii qaz və neft ehtiyatlarının sabit tədarükünü təmin etmək istəyindən irəli gəlir. Qlobal qeyri-sabitlik nəzərə alınmaqla, enerji iqtisadi kontekstdən çıxır, həm də təhlükəsizlik və həyatda qalmaq məsələsinə çevrilir. Santajelo qeyd edir ki, bu, Meloninin Yaxın Şərqdə müharibə başlayandan bəri üçüncü əhəmiyyətli xarici səfəri olub. O, martın 25-də Əlcəzairə səfər edib, aprelin 3-də isə gözlənilmədən Körfəz ölkələrinə yollanıb və bu çərçivədə Səudiyyə Ərəbistanı, BƏƏ, Qətər liderləri ilə görüşüb. Ekspertin fikrincə, bu, aydın bir strategiyanı ortaya qoyur: İtaliya sözün əsl mənasında enerji xəritəsini "yenidən çəkir", etibarlı tərəfdaşlar və yeni marşrutlar axtarır.

Digər italiyalı politoloq, Avropa araşdırmaları proqramının direktoru Stefano Braqiroli deyir ki, müasir çağırışlar Avropanı energetika və logistika sahələrində yeni, daha dayanıqlı əməkdaşlıq modelləri axtarmağa sövq edir.O qeyd edir ki, "Global Gateway" təşəbbüsü çərçivəsində Aİ təkcə enerji mənbələrini deyil, həm də nəqliyyat marşrutlarını diversifikasiya etməyə çalışır və bu kontekstdə Azərbaycan, sadəcə, resurs təchizatçısı deyil, sabit və etibarlı tərəfdaşlığı təmin etməyə qadir strateji tərəfdaş kimi çıxış edir: "Belə əməkdaşlıq Avropaya təkcə enerji təhlükəsizliyini gücləndirməyə deyil, həm də formalaşmaqda olan çoxqütblü sistemdə öz rolunu daha inamla qurmağa imkan verir".

Türk ekspert Mehmet Emir Aksoy da vurğulayır ki, son dövrlərdə Avropada artan enerji tələbatı və təchizat təhlükəsizliyi ilə bağlı müzakirələr "Cənub qaz dəhlizi"nin strateji əhəmiyyətini yenidən gündəmə gətirib. Onun sözlərinə görə, bu kontekstdə Azərbaycanın ortaya qoyduğu yanaşma yalnız iqtisadi deyil, eyni zamanda geosiyasi baxımdan da mühüm məna daşıyır: "Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən səsləndirilən "ortaq investisiya və uzunmüddətli zəmanət" vurğusu enerji əməkdaşlığının mahiyyətini dəyişməyə qadirdir. Azərbaycanın yanaşması klassik təchizatçı-istehlakçı münasibətlərini aşan yeni model təqdim edir. Bu günə qədər Avropa enerji siyasətini əsasən bazar şərtləri və qısamüddətli razılaşmalar üzərində qurub. Lakin qlobal proseslər göstərir ki, enerji təhlükəsizliyi yalnız kommersiya məsələsi deyil. Rəsmi Bakı tərəfindən irəli sürülən strateji çərçivə risklərinin bölüşdürülməsi və qarşılıqlı məsuliyyətlərin dəqiqləşdirilməsini nəzərdə tutur".

Ekspert onu da bildirir ki, TAP (Trans-Adriatik Qaz Boru Kəməri) layihəsinin genişləndirilməsi və Azərbaycan qazının Avropa bazarına daha böyük həcmdə çatdırılması Türkiyənin rolunu daha da artırır: "Türkiyə bu prosesdə yalnız tranzit ölkə deyil, enerji axınlarını yönləndirən və regional səviyyədə tarazlıq yaradan əsas aktorlardan biridir. Enerji xətlərinin Anadolu üzərindən keçməsi Ankaraya həm iqtisadi, həm də geosiyasi üstünlüklər qazandırır. Türkiyənin enerji mərkəzinə çevrilmək məqsədi bu proseslərlə daha real məzmun qazanır. Artan ötürmə qabiliyyəti, mənbələrin şaxələndirilməsi və genişlənən infrastruktur Türkiyəni regionun enerji xəritəsində əvəzolunmaz mövqeyə çıxarır. Bu həm Türkiyə, həm də Avropa üçün enerji təhlükəsizliyi baxımından mühüm əhəmiyyət kəsb edir".

Göründüyü kimi, Azərbaycan qazına Avropada artan tələbat fonunda enerji əməkdaşlığının yeni mərhələyə keçməsi məsələsi daha da aktuallaşıb. Prezident İlham Əliyev tərəfindən səsləndirilən mövqe isə bu prosesə yeni reallıq gətirir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Azərbaycan-İİB: etibarlı və davamlı maliyyə tərəfdaşlığı

**Sirr deyil ki, beynəlxalq maliyyə institutları ölkələrin sosial-iqtisadi inkişafında mühüm rol oynayır. Bu mənada İslam İnkişaf Bankı Qrupu (İİB) üzv dövlətlər arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi, infrastruktur layihələrinin maliyyələşdirilməsi və davamlı inkişafın təşviqi istiqamətində fəaliyyət göstərən nüfuzlu beynəlxalq qurumlardandır. Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra beynəlxalq iqtisadi sistemə qoşulmağı əsas istiqamətlərdən biri kimi seçərək, İİB Qrupu ilə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri yaradıb. Bu əməkdaşlığın Azərbaycanın islam dünyası ilə iqtisadi və siyasi münasibətlərinin möhkəmlənməsində əhəmiyyəti böyükdür.**

Yoxsulluğun azaldılması, davamlı iqtisadi artımın təşviq edilməsi və regional inteqrasiyanın dəstəklənməsi məqsədilə yaranan, nizamnamə kapitalı 100 milyard islam dinarı olan İİB 1975-ci ildən fəaliyyət göstərir. Baş qərargahı Səudiyyə Ərəbistanı Krallığının Ciddə şəhərində yerləşir. Hazırda dünyanın 57 ölkəsi bankın üzvüdür. Azərbaycan ilə İİB arasında əməkdaşlıq uzun illərə söykənir. Ölkəmiz bu banka 1992-ci ildə üzv olub. O zamandan etibarən müxtəlif sosial-iqtisadi layihələrin maliyyələşdirilməsində bu bank mühüm rol oynayır. Bankın dəstəyi ilə indiyə kimi Azərbaycanda kənd təsərrüfatı, enerji, infrastruktur və su təsərrüfatı kimi sahələrdə çoxsaylı layihələr həyata keçirilib. İİB Qrupu tərəfindən maliyyələşdirilən layihələr ölkəmizin iqtisadi inkişafında, regionların sosial rifahının yüksəldilməsində və neftdənkənar sahənin gücləndirilməsində müsbət nəticələr doğurub.

Qurumun bu günlər Azərbaycanda səfərdə olan prezidenti Məhəmməd Əl-Casir bildirib ki, ümumilikdə İİB Qrupu indiyədək Azərbaycanda layihələrin maliyyələşdirilməsinə təqribən 1,8 milyard dollar ayırıb: "Tərəfdaşlıq Azərbaycanın 1992-ci ildə bankın səhmdarı olduğu vaxtdan bəri üç onillikdən çox bir dövrü əhatə edir. O vaxtdan İİB Qrupu kənd təsərrüfatı, energetika, su ehtiyatları, nəqliyyat və maliyyə xidmətləri də daxil olmaqla iqtisadiyyatın əsas sektorlarında 84 layihə üzrə təxminən 1,8 milyard dollar maliyyələşmə ayırıb". Qurum rəhbərinin dediyinə görə, layihələrin əksəriyyəti artıq başa çatıb: "Bununla belə hazırda 11 layihə icra mərhələsindədir və onların ümumi dəyəri 635,9 milyon dollar təşkil edir. Başa çatmış layihələrin bir çoxu müstəqil qiymətləndirmədən keçib və nəzərəçarpacaq, uzunmüddətli nəticələr nümayiş etdirib. Cari layihələrin də, xüsusilə kənd təsərrüfatı torpaqlarını su ilə təmin edən suvarma kanallarının inkişafı, ev təsərrüfatlarının təmiz suya çıxışının genişləndirilməsi, sanitariya sistemlərinin modernləşdirilməsi və ticarətin maliyyələşdirilməsi vasitəsilə biznesə dəstək hesabına əhəmiyyətli təsir göstərəcəyi gözlənilir".

Yeri gəlmişkən, mayın 6-da Prezident İlham Əliyev İİB sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Söhbət zamanı bankın ölkəmizdə iqtisadiyyatın müxtəlif istiqamətlərində, həmçinin enerji, o cümlədən "yaşıl enerji", kənd təsərrüfatı, su və irriqasiya sistemləri, infrastruktur və sosial sahələrdə bir sıra layihələr həyata keçirdiyi qeyd edilib. Bu xüsusda vurğulanıb ki, 20-yə yaxın dövlət və özəl layihənin icrası üçün bank tərəfindən 1,2 milyard dollardan çox vəsait ayrılıb.

Görüşdə bankın bu il iyunun 16-dan 19-dək Bakıda keçiriləcək illik toplantısına hazırlıq məsələləri də müzakirə olunub. Qeyd edək ki, Azərbaycan İİB Qrupunun illik toplantısına ikinci dəfə evsahibliyi edəcək. 2010-cu ildə ölkəmiz ilk dəfə İİB Qrupunun 35-ci illik toplantısının keçirildiyi məkan kimi seçilib. Bu nüfuzlu tədbirə növbəti dəfə evsahibliyi etmək Azərbaycanın çoxtərəfli əməkdaşlığa, üzv ölkələrini birləşdirən ortaq dəyərlərə və məqsədlərə sadiqliyini bir daha təsdiqləyir. Tədbir Azərbaycanın islam maliyyə institutları ilə tərəfdaşlığının güclənməsinə və dayanıqlı iqtisadi inkişafa təkan verəcək. İİB Qrupunun 51-ci illik toplantısı inkişaf məsələləri üzrə dialoq üçün aparıcı qlobal platformalardan biri olacaq. Tədbirdə maliyyə, iqtisadiyyat və planlaşdırma nazirləri, mərkəzi bank rəhbərləri, beynəlxalq maliyyə institutlarının yüksək vəzifəli nümayəndələri, özəl sektor rəhbərləri və beynəlxalq təşkilatların təmsilçiləri daxil olmaqla 2000-dən çox nümayəndənin iştirakı gözlənilir. Toplantının rəsmi mövzusu "Dayanıqlı rifah naminə regional inteqrasiya" elan olunub.

Toplantının gündəliyində yer alan əsas məsələlər və onun strateji əhəmiyyəti ilə bağlı baxışlar İİB Qrupunun rəsmi bəyanatında daha geniş şəkildə öz əksini tapıb: "Birbaşa xarici investisiyalar və rəsmi inkişaf yardımı üzərində artan təzyiqlər fonunda "Dayanıqlı rifah naminə regional inteqrasiya" mövzusu İİB Qrupunun 2026-2035-ci illəri əhatə edən onillik strateji çərçivə proqramına uyğundur və regional əməkdaşlığın dayanıqlı uzunmüddətli artımın əsas hərəkətverici qüvvəsi kimi rolunu vurğulayır. İqtisadi, sosial və infrastruktur əlaqələrini gücləndirməklə, illik toplantı iştirakçıları üzv ölkələrdə xarici şoklara daha dayanıqlı inkişaf modeli və inklüziv rifahın formalaşdırılması yollarını müzakirə edəcəklər".

Ümumilikdə İİB Qrupunun illik toplantıları beynəlxalq iqtisadi əməkdaşlığın möhkəmləndirilməsində və üzv ölkələrin dayanıqlı inkişaf hədəflərinə çatmasında mühüm rol oynayan strateji bir platformadır. Toplantıların əsas məqsədi İslam dünyasında davamlı inkişafın təmin olunması, yoxsulluğun azaldılması, infrastruktur layihələrinin maliyyələşdirilməsi və üzv dövlətlər arasında iqtisadi inteqrasiyanın gücləndirilməsidir. Bu çərçivədə bankın ötən bir il ərzində həyata keçirdiyi fəaliyyətlər təhlil olunur, yeni layihə istiqamətləri müəyyənləşərək, gələcək əməkdaşlıq imkanları müzakirəyə çıxarılır.

Reallaşdırılan işlər, tədbirlər və əldə olunan nəticələr göstərir ki, əməkdaşlıq yalnız cari layihələrin icrası ilə məhdudlaşmır, eyni zamanda daha geniş strateji məqsədlərə xidmət edir. İllər keçdikcə daha da genişlənən bu tərəfdaşlıq Azərbaycanın beynəlxalq iqtisadi sistemdə mövqeyinin möhkəmlənməsinə, regionların sosial-iqtisadi inkişafına və yeni strateji layihələrin reallaşmasına şərait yaradır. Bu mənada İİB ilə əməkdaşlıq gələcək inkişaf perspektivləri baxımından da böyük əhəmiyyət kəsb edir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

# Bakıda aqrar və qida sənayesinin ən böyük sərgiləri yekunlaşır











**Bu gün "Bakı-Ekspo" Mərkəzində sayca 19-cu Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisi ("Caspian Agro") və 31-ci Azərbaycan Beynəlxalq Qida Sənayesi Sərgisi ("InterFood Azerbaijan") öz işini yekunlaşdırır.**

Keçirilən tədbirlər kənd təsərrüfatı və qida sənayesi sahəsində fəaliyyət göstərən yerli və xarici şirkətləri dörd gün ərzində bir araya gətirdi.

Sərgilərdə aqrar sahədə innovativ texnologiyalar, kənd təsərrüfatı texnikaları, suvarma sistemləri, qida məhsulları və emal avadanlıqları nümayiş olunub. Tədbir çərçivəsində biznes görüşləri, təqdimatlar və əməkdaşlıq müzakirələri də keçirilib.

Qeyd edək ki, "Caspian Agro" və "InterFood Azerbaijan" sərgiləri regionun aqrar və qida sənayesi üzrə ən böyük ixtisaslaşmış platformalarından biri hesab olunur. Tədbirlər kənd təsərrüfatının inkişafı, yeni texnologiyaların tətbiqi və beynəlxalq əməkdaşlığın genişlənməsi baxımından mühüm əhəmiyyət daşıyır.

***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***





# Vətən deyəndə...





● Torpağa məhəbbət, yurda sədaqət

# Vətən sevgisi - insan ləyaqətinin göstəricisidir

**Vətən sevgisi, yurda məhəbbət, torpağa sədaqət, qəhrəmanlıq, mübarizlik ədəbiyyatın gündəmindən düşməyən, oxucuların həmişə maraq dairəsində olan mövzulardandır. Qələmi özünə silah bilən yaradıcı insanlar hələ ilk əsərlərindən qoynunda dünyaya göz açdıqları yurdu sevə-sevə tərənnüm etmişlər. Bu mövzuda qəlbimizi oxşayan, ürəyimizi coşduran əsərlər yazmışlar.**



Vətənin vəsfinə həsr olunmuş dəyərli əsərlər illərlə, əsrlərlə insanların mübarizə yollarına işıq salmış, daim onlara güc vermiş, öz ardınca çəkib yurdun müdafiəsinə, cəng meydanlarına, döyüşə aparmışdır. Vətən sevgisi mövzusuna köklənmiş şair və yazıçılar fikirlərini ifadə etmək və əsərləri ilə yaddaşlarda dərin iz salmaq üçün həmişə sözün gücünə, qüdrətinə söykənmişlər. Vətənimizi, doğma ocaqlarımızı, qəhrəmanlığı və vətənpərvərliyi sevə-sevə vəsf etmişlər.

İnamla demək olar ki, Vətən sevgisi, yurda sonsuz məhəbbət bütün yazarların əsərlərindən qırmızı xətlə keçir. Elə bir yazıçı, elə bir şair tapmaq mümkün deyil ki, Vətən mövzusunda bir əsər, bir şeir parçası yazmamış olsun. Elə bir rəssam tapmaq olmaz ki, Vətənə sevgisini rənglərin dili ilə ifadə etməsin. Dünyanın harasında yaşamasından asılı olmayaraq, şair və yazıçıların Vətən mövzusunda yazdıqları, söylədikləri dəyərli fikirlər eldən-elə, dildən-dilə dolaşır, ürəkləri fəth edir, könülləri ovsunlayır. Üstündən zaman keçdikcə bu yazarların əsərlərindəki fikirlər aforizmə çevrilərək ruhumuza hopur, qanımızı coşdurur. Şah İsmayıl Xətainin bir fikri var, onu oxuyanda ürəyimiz qürurla dolur. Böyük şair və sərkərdə yazmışdır: "Vətənin bir sıxma torpağını bir ovuc qızıldan, dilimizin kiçicik bir sözünü bir ölçü cəvahirdən üstün bildim".

Maraqlı əsərləri və hikmətli sözləri ilə xalqın sevgisini qazanan sənətkarlar çox xoşbəxtdirlər. Çünki onların söylədikləri fikirlər dəyərini itirmədən bütün zamanlara meydan oxuyaraq daim ürəklərdə və könüllərdə yaşayır.

Vətən haqqında yazılanları oxuduqca, onları ruhumuza hopdurduqca qoynunda dünyaya göz açdığımız yurda, el-obaya sevgimiz də zərrə-zərrə artır. Vaxt ötdükcə, zaman su kimi axıb getdikcə ürəyimizin, qəlbimizin bir parçası olan Vətən gözümüzdə həm doğmalaşır, həm də müqəddəsləşir. Müqəddəsləşdikcə də onu yadellilərdən göz bəbəyimiz kimi qorumaq üçün anındaca səfərbər olub silahlanırıq. Çox ibrətamiz bir kəlamda deyilir: "Vətən naminə hər şeyi riskə atmaq olar, Vətənin özündən başqa". Bu mövzuda böyük sərkərdə Napoleonun da fikri dəyərlidir: "Vətənə məhəbbət - sivil insanın ən mühüm ləyaqət göstəricisidir".

Şəxsi həyatımızda hansısa kiçik bir çətinliklə qarşılaşanda ondan tez bezib yoruluruq. Vaxtımızı çox itirmədən, özümüzü əziyyətə salmadan geri dönürük. Həmin çətin işin qulpundan bir daha yapışmaq istəmirik. Amma Vətənin müdafiəsi naminə hər bir çətinlik və məşəqqətlərə dözürük. Bunu Vətənin daim var olması naminə edirik. Çünki Vətən torpaqlarının hər addımı, hər qarışı bizim üçün doğma və əzizdir.

Vətənpərvərliyi, vətən sevgisini tərənnüm edən əsərləri mütaliə etdikcə qəlbimiz cuşa gəlir, qollarımızdakı güc, dizlərimizdəki təpər daha da artır. Ürəyimizdə, qəlbimizdə yeni duyğular, yeni hisslər yaranıb formalaşır. Bütün bunlar isə bir qığılcım kimi Vətənə olan sevgimizi daha da alovlandırır. Çünki vətən haqqında, vətən sevgisindən yazılan dəyərli əsərlər bizi yurdun müdafiəsinə səsləyir. Ürəyində yurd sevgisi olanlar vaxt itirmədən bu çağırışa səs verirlər.

Yüksək lirizm və məna tutumlu şeirləri ilə oxucuların rəğbətini qazanmış şair Məmməd Arazın "Vətən mənə oğul desə, nə dərdim, Mamır olub qayasında bitərdim" misrası qəlbimizi coşdurur, döyüş ruhumuzu tarıma çəkir. Məlumdur ki, yaşamımız boyu bizə güc verən, qələbələrə səsləyən qəlbimizə hakim kəsilən ölməz, dönməz və məğluedilməz ruhumuzdur. Ömür karvanımızı sürüb keçdiyimiz bu keşməkeşli həyat göstərir ki, insanı yaşadan və sabahlara, yeni qapılar açmağa qol-qanad verən də elə odur. Böyük mütəfəkkir G.Bon ruhun vacibliyindən söz açaraq yazırdı: "Xalq çox şeyi itirə bilər, bütün mümkün faciələrə məruz qala bilər, amma yenə də ayaq üstə qalxmağı bacarar. Əgər öz ruhunu itirsə, demək, hər şeyini itirib və o, bir də heç vaxt ayaq üstə dura bilməz". Vətənpərvərlik mövzusunda yazılmış əsərlər daim ruhumuza qida verir, onu korşalıb paslanmağa qoymur. Daim yanımızda olur, əlimizdən tutub bizə arxa durur, zəfərlərə gedən yolların istiqamətini göstərir.

Vətənpərvərlik mövzusunda yazılmış poeziya nümunələrindən söz açmaq istəyəndə öncə yadımıza Abbas Səhhətin "Vətənim" şeiri düşür. Şairin incə qəlbindən süzülən misraları necə sevməmək, necə əzbərləməmək olar? Bu şeir qəlbimizə su quru torpağa hopan kimi hopur. Bilmirik nə qədər həqiqətdir, hərdən düşünürəm ki, Abbas Səhhətin bu dahi əsəri Vətən haqqında yazılmış bütün şeirlərin himnidir, fikrimizin ən uca nöqtəsi və əlçatmaz zirvəsidir. Yəqin ki, bu şeiri əzbər bilməyən, yaddaşına yazmayan və arada öz-özünə pıçıldamayan kimsə tapılmaz. Axı ürəyimizə həzinlik, qəlbimizə və ruhumuza rahatlıq gətirən, vətənpərvərlik hisslərimizi coşduran bu misraları necə sevməyəsən:

*Könlümün sevgili məhbubi mənim,*
*Vətənimdir, vətənimdir, vətənim...*
*Anadır hər kişiyə öz vətəni,*
*Bəsləyib sinəsi üstündə onu...*
*Vətən əcdadımızın mədfənidir,*
*Vətən övladımızın məskənidir.*
*Vətəni sevməyən insan olmaz,*
*Olsa da ol şəxsdə vicdan olmaz!*

Böyük məhəbbətlə oxuduğumuz, əbədi olaraq yaddaşımızın dərin qatlarına yazdığımız şeirin bütün misraları bizim üçün bir dünyadır, min bir naxışlı bərli-bəzəkli gözəl bir aləmdir. Daim ruhumuza həzinlik gətirən bu misralarda qoynunda doğulduğumuz və yaşadığımız Vətən böyük məhəbbətlə tərənnüm olunur. Belə gözəl şeirlər öz poetikliyi, zəngin fikir yükü ilə hamımızın qəlbini oxşayır.

Şair Məmməd Aslanın yaradıcılığında vətənpərvərlik, Vətən sevgisi güllü-çiçəkli çəmənlik kimi çoxşaxəlidir, bənzərsizdir. Onun 20 Yanvar faciəsinin ağrı-acısından bəhs edən "Ağla, qərənfil, ağla" şeiri həmin günlərdə dildən-dilə düşüb ürəkləri yandırdı, qəlbləri alovlandırdı. Bu şeir yalnız insanları deyil, şəhid məzarlarının üstünə düzülmüş qərənfilləri də ağlatdı. Şairin Vətən sevgisinə həsr etdiyi şeirindən bir misra diqqətimizi daha çox çəkdi. İnanırıq ki, bu sözlər oxucuların da qəlbini riqqətə gətirəcək.

*Vətən gözdür, biz kiprik,*
*Gözümüzün keşiyini çəkirik...*

Dünyanın işığını gözümüzlə görürük. Gözsüz dünya bizə dibsiz quyular kimi qaranlıq zülmətdir. Şair Vətəni gözə bənzədir, özünü isə kipriyə. Kiprik isə bir əsgər kimi daim gözün keşiyini çəkir. Deməli, şair demişkən, biz daim gözümüzün - Vətənimizin keşiyini çəkməliyik.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

● Tarix yazan oğullar

# İgidliyi ilə nümunə oldu



**1994-cü il yanvar ayının son günləri idi. Qarabağın erməni işğalçılarından müdafiəsi uğrunda gərgin döyüşlər gedirdi. Ermənilər bütün istiqamətlərdən hücum edirdilər. Ordumuzun vətənpərvər zabit və əsgərləri isə düşmən hücumlarının qarşısını almaq, Qarabağı qorumaq üçün cəsarətlə döyüşürdülər.**

Həmin günlər Ağdərə rayonu istiqamətində də qızğın döyüşlər səngimək bilmirdi. Rayonun Şəhriyar qəsəbəsinin yaxınlığındakı böyük strateji əhəmiyyətə malik olan Gödəkburun yüksəkliyi uğrunda qanlı döyüşlər gedirdi. Döyüşçülərimizin arasında "Qartal" ləqəbli gənc zabit Aydın Manerov da var idi.

Nəyin bahasına olursa-olsun, bu əlverişli yüksəkliyi ələ keçirməyə can atan azğınlaşmış quldurlar döyüşə yeni qüvvələr cəlb edərək hücumlarını həm genişləndirir, həm də gücləndirirdilər. Döyüşçülərimiz isə bir addım belə geri çəkilmədən qəsbkarlara qarşı ciddi müqavimət göstərirdilər. Təəssüflər olsun ki, kiçik leytenant A.Manerov 29 yanvar 1994-cü ildə səngimək bilməyən bu gərgin döyüşdə şəhid oldu. Onun ölümü döyüşçü yoldaşlarını daha da hiddətləndirdi, qisas hissini daha da artırdı. Həmin gün erməni işğalçılarının hücumlarının qarşısı qətiyyətlə alındı, yüksəkliyin işğal olunması təhlükəsi sovuşdu.

Böyük kədər hissi ilə 31 yaşında Vətən torpaqlarının azadlığı uğrunda şəhid olmuş Aydın Manerovun ömür və döyüş yolunu vərəqlədik. Öyrəndik ki, o, 1965-ci ildə Bakıda dünyaya göz açıb. Orta təhsilini başa vurduqdan sonra bir müddət Neft Daşlarında çalışıb.

Əgər erməni separatçıları 1980-ci illərin sonlarında əsrlərdən bəri Qarabağda, doğma ocaqlarında yaşayan azərbaycanlıların evlərinə, kəndlərinə hücum etməsəydilər, ölüm və qan qoxulu müharibəni alovlandırmasaydılar, Aydın da qismətinə düşən ömrü yaşayacaqdı. Amma təəssüflər olsun ki, erməni işğalçıları silaha əl ataraq qədim Azərbaycan torpaqlarında qan tökdülər. Vətənin belə dar günündə Aydın hərbçi olmaq qərarına gəldi. Ailəsindən xəbərsiz könüllü olaraq yenicə yaradılan özünümüdafiə taborlarından birinə yazıldı. Əyninə hərbi forma geyinərək silaha sarıldı, qısa çəkən təlim-məşqlərdən sonra Vətənin müdafiəsinə atıldı. Xidmətə başladığı ilk günlərdən cəsarəti və hünəri ilə seçildi. Torpaqlarımız uğrunda vuruşaraq qəhrəmanlıqlar göstərdi, igidliyi ilə əsgərlərinə nümunə oldu.

Ürəyi vətən eşqi ilə döyünən gənc zabit şərəfli döyüş yolu keçdi. Düşmən üzərinə qorxu bilmədən qələbə əzmi ilə atıldı. Döyüş yolu Ağdərə, Laçın, Füzuli, Ağdam, Tərtərdən keçdi. İştirak etdiyi bütün əməliyyatlarda zabit kimi üzərinə düşən bütün tapşırıqları layiqincə yerinə yetirdi. Qəhrəmanlığı və igidliyi ilə şəxsi heyətin hörmət və rəğbətini qazandı. Laçın rayonu uğrunda gedən döyüş zamanı yaralandı. Yaraları tam sağalmamış yenidən cəbhəyə qayıtdı. Artıq o əsgər deyildi, zabit - taqım komandiri idi.

Bir vaxtlar oxuduğu Nizami rayonundakı 229 nömrəli orta məktəbdə hər il yanvar ayının 30-da şəhidin xatirəsini yad etmək üçün anım mərasimi keçirilir. Tədbirdə müəllim və şagirdlər, döyüşçü yoldaşları, doğmaları Aydın Manerovun xatirə gecəsinə yığışırlar. Onlar cəsur zabitin şərəf dolu ömür və döyüş yolundan söz açırlar. Aydını tanıyanlar onunla bağlı acılı-şirinli xatirələrini dilə gətirirlər. Şagirdlər şəhidliyi, qəhrəmanlığı, vətənpərvərliyi tərənnüm edən şeirlər söyləyir, mahnılar oxuyurlar. Belə anım mərasimləri bir daha onu göstərir ki, yurdumuzun azadlığı uğrunda canından keçmiş şəhidlər heç vaxt unudulmur, həmişə hörmətlə xatırlanır.

Gənc leytenantla çiyin-çiyinə vuruşmuş zabit E.Ağayev onun son döyüşündən söz açaraq dedi ki, Aydın bu savaşda bir komandir kimi dəqiq və düzgün göstərişləri ilə tabeliyində olan döyüşçülərin həyatını xilas etdi, onların düşmən mühasirəsinə düşməyinin qarşısını aldı. O, bütün döyüşlərdə ön sıralarda vuruşurdu, əsgərlərini qəhrəmanlığa, igidliyə və qələbəyə ruhlandırırdı. Təəssüflər olsun ki, cəsur zabit işğalçıların gülləsinə tuş gəldi. Hospitala çatdırılsa da, həyatını xilas etmək mümkün olmadı.

Aydın Manerovun həyat yoldaşı Gülarə Kərimova isə arxada qalıb tarixə çevrilmiş ötən illəri belə xatırladı:

- 1990-cı il 20 Yanvar faciəsinin şəhidlərini torpağa tapşıranda Aydınla birlikdə xiyabana getmişdik. Dəfn mərasimindən sonra dəniz kənarına gəldik. O, Xəzərin bir-birini qovan ləpələrinə baxıb dedi ki, dənizin hər günü sakit, dalğasız ötmədiyi kimi, insan ömrü də çovğunsuz, tufansız olmur. Bəzən insan gözləmədiyi elə hadisə ilə qarşılaşır ki, bu hadisə onun həyatının məcrasını tamam başqa bir səmtə dəyişir. İllərdən bəri ağrı-acılarını yaşadığımız 20 Yanvar faciəsi Aydının gələcək ömür yolunu tamamilə dəyişmişdi. Həyat yoldaşım bizi dörd divar arasında tək qoyub könüllülər taborunun tərkibində cəbhə bölgəsinə yola düşdü. Onun döyüş yolu Laçın, Ağdam, Şuşa, Tərtər, Füzuli və Ağdərədən keçdi. Aydın bir dəfə Laçında, bir dəfə isə Ağdərədə yaralanmışdı. Yaralı olsa da, o, yenə cəbhəyə qayıtmışdı. Artıq neçə vaxtdır illəri Aydınsız qarşılayıb yola salırıq. Həyat yoldaşımdan yadigar qalmış uşaqlarla nəfəs alıram, onlarda təskinlik tapıram.

Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, Vətən torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində şəxsi igidlik və şücaət göstərdiyinə görə, kiçik leytenant Manerov Aydın Mahmud oğlu (ölümündən sonra) Azərbaycan Prezidenti Heydər Əliyevin 15 yanvar 1995-ci il tarixli sərəncamı ilə "Azərbaycan Bayrağı" ordeninə layiq görülmüşdür. Cəsur zabitin bir vaxtlar yaşadığı Q.Qarayev küçəsindəki 49 nömrəli evin fasadına xatirə lövhəsi vurulmuşdur.

Aydının igidliyi, qəhrəmanlığı yazıçılarımızın, şairlərimizin, bəstəkarlarımızın da yaradıcılığında öz əksini tapmışdır. Bəstəkar Cavanşir Quliyev şair Əli Vəkilin "Aydınımız" şeirinə mahnı bəstələmişdir.

***V.MƏMMƏDQULUOĞLU,***
***"Azərbaycan"***

# Özbəkistan nümayəndə heyəti Milli Müdafiə Universitetini ziyarət edib

**Azərbaycan və Özbəkistanın Müdafiə nazirlikləri arasında hərbi əməkdaşlıq planına əsasən, Özbəkistan Silahlı Qüvvələrinin nümayəndə heyəti ölkəmizə səfər edib.**



Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, Milli Müdafiə Universitetində (MMU) keçirilən görüşdə universitetin yaranma tarixi, fəaliyyəti və tabeliyində fəaliyyət göstərən xüsusi təyinatlı təhsil müəssisələri barədə məlumat verilib, hərbi təhsil sisteminin cari vəziyyəti təhlil edilib.

Səfər çərçivəsində özbəkistanlı qonaqlar Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunda, Xarici Dil Mərkəzində, Hərb Oyunları Mərkəzində və Heydər Əliyev adına Hərbi İnstitutda olublar. Nümayəndə heyətinə tədris prosesi barədə məlumat verilib, onlar müəssisələrin ərazisi və inzibati binalarında yaradılan şəraitlə tanış olublar.

Sonda qarşılıqlı hədiyyələr təqdim edilib.

# Əlahiddə Ümumqoşun Orduda hazırlıq kursunu bitirənlərə sertifikatlar təqdim olunub

**Əlahiddə Ümumqoşun Orduda (ƏÜO) növbəti "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursu"nun uğurla başa çatması münasibətilə buraxılış mərasimi keçirilib.**

Müdafiə Nazirliyindən verilən məlumata görə, mərasimdə əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, Vətən uğrunda şəhid olan soydaşlarımızın əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Azərbaycanın Dövlət Himni səsləndirilib.

Məzunlara Müdafiə Nazirliyi rəhbərliyinin təbrikləri çatdırılıb.

Tədbirdə çıxış edənlər kursu müvəffəqiyyətlə bitirənlərə Vətənə və hərbi anda sadiq olmağı, hərbçi şərəfini hər zaman uca tutmağı tövsiyə edib, gələcək xidmətlərində uğurlar arzulayıblar.

Məzunlar kurs müddətində qazandıqları bilik və praktiki vərdişləri xidmətdə daha da təkmilləşdirəcəklərinə, qarşıya qoyulan tapşırıqları vicdanla yerinə yetirəcəklərinə və Vətən torpaqlarını layiqincə qoruyacaqlarına söz veriblər.

Sonda hərbi qulluqçulara sertifikatlar təqdim olunub, kurs birincisi tərəfindən rəmzi yaş kötüyünə emblem vurulub.



# "EFES - 2026" çoxmillətli təlimi davam edir

Türkiyədə Azərbaycan Ordusunun bir qrup hərbi qulluqçusunun iştirakı ilə keçirilən "EFES - 2026" çoxmillətli birgə müştərək təlimi uğurla davam edir.



Müdafiə Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, təlimin növbəti mərhələsinin planına uyğun olaraq Azərbaycan, Türkiyə, Albaniya, Niger, Nigeriya və Rumıniya nümayəndələri mağara, sığınacaq və tunellərdə axtarış, eləcə də dağçılıq hazırlığı üzrə məşqlər keçiblər.

Qeyd edək ki, real döyüş şəraitinə uyğunlaşdırılmış təlimdə hərbçilərimiz tapşırıqların icrası zamanı yüksək təcrübə nümayiş etdiriblər.





# Mədəniyyət





● Ədəbiyyat xadimlərimiz

## Həsrət və mübarizlikdən yoğrulmuş şair ömrü

**Xalq şairi, nasir, publisist Söhrab Əbülfəz oğlu Tahir 2016-cı il mayın 4-də ömrünün 90-cı ilində dünyasını dəyişdi. Həsrət və nisgildən, mübarizlikdən yoğrulmuş bir ömür sona yetdi. Söhrab Tahir ürəyimizdə, qəlbimizdə və yaddaşımızda həmişə mübariz, döyüşkən, iti baxışlı, şimşək gülüşlü bir insan, bir şəxsiyyət kimi qaldı.**



Ömür yolu qorxulu nağıllara bənzəyən Söhrab Tahir olduqca keşməkeşli, amma şərəfli bir ömür yaşayıb. O, 6 avqust 1926-cı ildə Cənubi Azərbaycanın Astara şəhərində dünyaya göz açıb. "Səadət" və "Şapur" adlandırılan orta məktəblərdə doqquzuncu sinfədək təhsil alıb. Əgər kasıblıq onların qapısını döyməsəydi, Söhrab yenə də məktəbə gedəcək, təhsilini davam etdirəcəkdi. Amma yoxsulluq içində yaşayan ailənin maddi imkanı aşağı olduğundan gələcəyin böyük şairi təhsilini yarımçıq qoymağa məcbur olub. Kiçik yaşlarından atası ilə birgə İranda ingilis neft şirkətində işləyib.

Keçmiş SSRİ ordusunun İrana qoşun yeritməsindən sonra Söhrab Tahir mübarizəyə atılmış, xalq hərəkatında fəal iştirak etmişdir. 1946-cı ildə təhsil almaq üçün Bakıya gələn Söhrab Azərbaycan Dövlət Tibb İnsititunun Stomatologiya və feldşerlik fakültəsində oxumağa başlamışdır. Amma ədəbiyyata olan böyük maraq və həvəs 1952-ci ildə onu Azərbaycan Dövlət Universitetinə (indiki Bakı Dövlət Universiteti) gətirmişdir. 1959-1961-ci illərdə isə Moskvada M.Qorki adına Ali Ədəbiyyat Kurslarında oxumuşdur. Müxtəlif ali məktəblərdə aldığı ali təhsil onun həm yaradıcılığına, həm də dünyagörüşünün formalaşmasına müsbət təsir göstərmişdir.

1962-1966-cı illər Söhrab Tahirin həyatında əlamətdar olmuşdur. O, həmin illər Azərbaycan Demokrat Firqəsinin Bakı Komitəsində birinci katib, "Azərbaycan" qəzeti və jurnalı redaksiyalarında şöbə müdiri, "Səhər" ədəbi-tarixi jurnalında redaktor müavini, "Azərbaycan" jurnalında redaktor işləmişdir. Daha sonra - 1986-1991-ci illərdə Azərbaycan Yazıçılar Birliyi İdarə Heyətinin, "Literaturnıy Azerbaydjan" jurnalı redaksiya heyətinin, "Yazıçı" nəşriyyatının bədii şurasının, Azərbaycan Ədəbiyyat Fondu İdarə Heyətinin üzvü, Azərbaycan Yazıçılar Birliyi şeir şurasının sədri olmuşdur. 1991-ci ildə isə Bədii Ədəbiyyatı Təbliğat Bürosu İdarə Heyətinin sədri təyin edilmişdir. Söhrab Tahir Azərbaycan Milli EA Şərqşunaslıq İnstitutunun böyük elmi işçisi, Yazıçılar Birliyi Ağsaqqallar Şurasının üzvü, Dünya Azərbaycanlıları Mədəniyyət Mərkəzinin prezidenti, Azərbaycan İçtimai-Siyasi Universitetinin müəllimi olmuşdur. Harada işləməsindən asılı olmayaraq, Söhrab müəllim vəzifələrinin öhdəsindən layiqincə gəlmişdir.

Şair Söhrab Tahir 1946-cı ildə Bakıya oxumağa gəldikdən bir müddət sonra Pişəvəri hökuməti şah rejimi tərəfindən qan içində boğulmuşdur. Bu qanlı hadisə onun Güney Azərbaycanına qayıdan yollarını bağlamışdır. Bundan sonra Söhrab Tahir uzun illər ata-baba yurdunun, doğmalarının həsrətini çəkməli olmuşdur. Ömrünün cavan çağlarından - 20 yaşından anasının, qardaşlarının və başqa yaxın qohumlarının üzünə həsrət qalmış, anasını görmək həsərti ilə yaşamışdır.

Şükürlər olsun ki, günlərin birində həsrət sona yetmişdir. Uzun illərin gözləntilərindən sonra - 1973-cü ildə Söhrab Tahirin anası Azərbaycana gəlmişdir. Amma görüşəndə anası onu tanımamışdı. Çünki yazıq ana Söhrabı sonuncu dəfə 20 yaşında görmüşdü. Həmin vaxtdan artıq 30 il keçmişdi. Anası ilə görüşəndə Söhrab Tahirin 50 yaşı var idi. İllərdən bəri oğul həsrəti çəkən ana Söhrabla görüşəndə onu oğluna yox, qardaşı İsrafilə bənzətmişdi. Amma onun oğlu olduğunu biləndə huşunu itirmişdi.

Söhrab Tahirin Güney Azərbaycan həsrətli şeirləri onun yaradıcılığından qırmızı xətlə keçir. Yazdıqlarından aydın görünən odur ki, şair daha çox ayrılıqdan, ikiyə bölünməkdən qorxur. Onun dillər əzbəri olan bu misraları həmin həsrəti və qorxunu aydın şəkildə ifadə edir:

*İkiyə bölünməkdən elə qorxmuşam,*
*Çöpü də ikiyə bölmərəm daha.*

Həyatının gənclik illərindən vətəndən uzaq düşən Söhrab Tahir həsrət yüklü, enişi yoxuşundan, yoxuşu enişindən çox olan bir ömür sürdü. Amma ömrünün ahıl çağlarında da gəncliyində olduğu kimi, mübariz, ötkəm və inadkar idi. Şair yenə də ötənləri xatırlayaraq müqəddəs amallar uğrunda vuruşmaq arzusu ilə yaşayırdı. Söhrab Tahirin mübariz ruhlu şeirləri uca dağların zirvələrini aşaraq ürəklərə, qəlblərə hopdu.

*Əziz Vətən, doğma diyar,*
*Vuruşuram sinəndəki*
*Qan yerini silənədək.*
*Vuruşuram azadlığım*
*Başım üstə gələnədək.*

Söhrab Tahirin yaradıcılığı zaman-zaman yüksək qiymətləndirilmişdir. Şair inqilabi, ədəbi və içtimai fəaliyyətinə görə Təbrizdə "21 Azər" və digər medallarla, Azərbaycan Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanı ilə təltif edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 23 may 1998-ci il tarixli sərəncamı ilə ona Xalq şairi fəxri adı verilmişdir. 2006-cı ildə isə Söhrab Tahir Azərbaycan Prezidentinin sərəncamı ilə "Şöhrət" ordeninə layiq görülmüşdür.

Xalq şairi, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü Söhrab Tahir 4 may 2016-cı ildə vəfat etmişdir.

Söhrab Tahir özündən sonra zəngin ədəbi irs qoymuşdur. Şairin yalnız Bakıda deyil, Moskvada, Berlində, Tehranda, Təbrizdə və dünyanın başqa şəhərlərində 50-dən çox kitabı işıq üzü görmüşdür. Onun "Qırılan zəncirlər", "Mən səni görmüşəm", "Azad qardaşım var", "Mənim yolum", "Döyüş lövhələri", "Ölümdən güclü, həyatdan uca", "Qonşu qızın məktubları", "Vətənlə sevgi arasında", "İki dəfə yox olmuş adam", "Əmanət", "Ata" və başqa əsərləri ədəbiyyatımızı daha da zənginləşdirmişdir.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

● Sənət dünyası

## Səhnə onun həyatı, obrazlar isə taleyidir

**Teatr tarixboyu cəmiyyətin aynası olub. Teatrda insan özünü də, zamanı da, həqiqəti də görür. Ona görə səhnəyə bağlanan insanlar adi həyat yaşamırlar. Onlar hər gün bir obrazda doğulur, başqa bir obrazda yaşayır, tamamilə başqa bir hisslərlə evlərinə dönürlər. Bəzən isə yaratdıqları obrazın təsirindən günlərlə çıxa bilmirlər. Çünki əsl aktyor rol oynamır - onu içində canlandırıb ruhunda yaşadır.**



Belə sənətçilərdən biri də gənc aktrisa İranə Kərimovadır. Onunla ilk dəfə dramaturq Əli Əmirlinin Hacı Zeynalabdin Tağıyevin ailə dramından bəhs edən "Mesenat" tamaşasında rastlaşdıq. Azərbaycan Dövlət Akademik Musiqili Teatrının səhnəsində oynanılan tamaşada canlandırdığı Sara xanım obrazı ilk andan tamaşaçının diqqətini özünə cəlb edirdi. Bu obrazın zərifliyində qadın həssaslığı, baxışlarında isə zamanın sərt sınaqları ilə möhkəmlənmiş daxili güc hiss olunurdu. İranənin Sara obrazına gətirdiyi xüsusi kolorit, səmimi ifa tərzi və psixoloji dərinlik birbaşa tamaşaçının yaddaşına həkk olunurdu. O, sadəcə, obraz yaratmırdı, sanki Sara xanımın ruhunu səhnəyə gətirmişdi. Məhz həmin ifadan sonra bu gənc aktrisanın gələcək uğurlarına şübhə yeri qalmırdı.



Bu günlər İranə Kərimova redaksiyamızın qonağı oldu. Onun söylədiyi fikirlər bir daha təsdiq etdi ki, səhnədə görünən uğurun arxasında böyük daxili zəhmət və sənətə sonsuz sevgi dayanır. Aktrisa söhbət zamanı dedi ki, bəzən yaratdığı obrazın aurasından, təsirindən günlərlə çıxa bilmir: "Obrazın xarakteri, yaşadıqları ruhuma hopur. Onun çəkdiyi ağrıları, iztirabları mən də yaşayıram. Aktrisa olaraq çalışıram ki, heç kimi təqlid etməyim, kiməsə bənzəməyim, səhnədə özüm olum. Əgər uğur qazana bilmişəmsə, düşünürəm ki, bunun səbəbi də elə budur".

Bu sözlərdə sənətkar səmimiyyəti, aktrisa məsuliyyəti, ən əsası isə sənətə olan sədaqət aydın görünürdü. İranə xanım söhbət zamanı maraqlı bir məqama da toxundu: "Mən teatrsız, səhnəsiz yaşaya bilmirəm. Teatr mənim həyatımdır. Mən səhnədə yenidən doğuluram, hər obrazda bir ömür yaşayıram. Amma adi həyatda aktyorluq etmirəm. İranə olduğumu, Ruslan kişinin qızı olduğumu unutmuram. Çalışıram ki, valideynlərim təkcə sənətimlə, yaxşı aktrisa olmağımla yox, onların ləyaqətli övladları olduğum üçün mənimlə fəxr etsinlər". Bu, təkcə aktrisanın deyil, həm də ailə dəyərlərinə bağlı bir Azərbaycan qızının xarakteri idi.

1998-ci il iyulun 26-da Bakıda dünyaya gələn İranə Kərimova hələ uşaqlıqdan incəsənətə maraq göstərib. Təhsilini Bakı Xoreoqrafiya Akademiyasında davam etdirməsi də onun sənət yolunun təsadüf olmadığını göstərir. 2017-ci ildən etibarən Azərbaycan Dövlət Akademik Musiqili Teatrında balet artisti və aktrisa kimi fəaliyyət göstərən gənc sənətçi qısa müddətdə teatrın diqqətçəkən simalarından birinə çevrilib. "Leyli və Məcnun" tamaşasında Leylinin ruhu, "Anamın kitabı"nda Gülbahar, "Bir nəfəs qədər"də Qumru, "Düyməcik"də Qaranquş, "Piter Pen və Bremen musiqiçiləri"ndə Vendi kimi müxtəlif xarakterli obrazlar onun yaradıcılıq diapozonunun genişliyindən xəbər verir. İranə kino sahəsində də uğurlu addımlar atıb. "Soyuq Günəş" filmində baş rola çəkilməsi, televiziya və sənədli filmlərdə yaratdığı obrazlar onun sənət imkanlarının daha geniş olduğunu göstərir.

Gənc aktrisanın uğurları bunlarla da bitmir. 2021-ci ildə "4.4 Qısa Tamaşalar Festivalı"nda mükafat qazanması, beynəlxalq layihələrdə ölkəmizi təmsil etməsi, Türkiyədə və Pakistanda keçirilən mədəniyyət festivallarında iştirakı onun artıq milli səhnə sərhədlərini aşmağa başladığının təsdiqidir.

Bu gün İranə Kərimova yaradıcılığının ən məhsuldar dövrünü yaşayır. Onun baxışlarında sənətə sevgi, addımlarında inam, ifasında isə gələcəyin böyük aktrisasının işartıları görünür.

Bəzən səhnəyə yeni nəfəs gətirən sənətçilər zamanla teatrın tarixini yazanlara çevrilirlər. İnanırıq ki, İranə Kərimova da həmin sənət yolçularından olacaq. Çünki istedad qapıları aça bilər, zirvəyə isə yalnız sənətə sədaqət və zəhmət aparır. İranə artıq sübut edib ki, o, sadəcə, səhnəyə çıxmır, səhnədə yaşayır, yaradır və gələcəyini qurur.

***Elşən QƏNİYEV,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

● Xalq sənəti

## Xalı-xalçalı İçərişəhər

**Qədimdən Azərbaycanda xalça, sadəcə, məişət əşyası hesab edilməyib. Ulularımız hər xalçaya böyük bir sənət əsəri kimi baxıblar, hər ilməsini düşünərək toxuyublar. Azərbaycan mədəniyyətində özünəməxsus yeri olan, qədim və zəngin tarixə malik xalçaçılıq sənəti xalqımızın yaşam tərzini, arzularını, düşüncələrini, xəyallarını əks etdirib.**






Mədəniyyət tariximizdə möhtəşəm yeri olan bu sənətə, onun dəyərli nümunələrinə, inkişafına və dünyada tanıdılmasına Azərbaycan dövləti diqqətlə yanaşır, qayğı göstərir. Ölkəmizin paytaxtında fəaliyyət göstərən Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin fondlarında müxtəlif növ çeşnidə xalçalar saxlanılır. Bakıda orijinal memarlığı ilə seçilən Xalça Muzeyi binası inşa olunub. Azərbaycan mədəniyyətinin təbliğində böyük layihələr reallaşdıran Heydər Əliyev Fondunun fəaliyyətinin bir istiqaməti də bu sahənin inkişafına yönəldilib. Görülən işlərin nəticəsində 2010-cu ildə Keniyanın Nayrobi şəhərində keçirilən UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 5-ci sessiyasında Azərbaycan xalçaçılıq sənəti bu mötəbər qurumun Ümumdünya Qeyri-Maddi Mədəni İrsin Reprezentativ siyahısına daxil edilib.

Hər il mayın 5-i ölkəmizdə Xalçaçı Günü kimi qeyd olunur. Xalçaçıların peşə bayramında müxtəlif tədbirlər təşkil edilir. Bakıda Beynəlxalq Xalça Festivalının keçirilməsi də artıq ənənəyə çevrilib. Bu il də respublikamızın paytaxtı mayın 1-3-də Beynəlxalq Xalça Festivalına evsahibliyi edib. Onu da diqqətə çatdıraq ki, Azərbaycan xalçaçılarının peşə bayramı - Xalçaçı Gününə həsr olunan Beynəlxalq Xalça Festivalı bu il həm də "Azərxalça" ASC-nin 10 illik yubileyi ilə üst-üstə düşüb.

"Azərxalça" ASC və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin təşkilatçılığı, İqtisadiyyat Nazirliyi və İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin - AZPROMO-nun dəstəyi ilə təşkil olunan festivalın əsas məqsədi Azərbaycan xalçaçılıq sənətini dünya müstəvisində tanıtmaq, onun zəngin irsini və gələcək inkişaf perspektivlərini nümayiş etdirmək, dünya xalçaçılarının təcrübə və bacarıqlarından bəhrələnmək idi. Azərbaycanın, bir sıra ölkələrin xalçaçıları, istehsalçıları, sənət adamları və mütəxəssislərin iştirak etdikləri festivalın proqramı olduqca maraqlı, zəngin və rəngarəng olub. Festivalda xalçaçılıq sənətinə dair eksklüziv sərgilər, ustad dərsləri, konsert proqramları və uşaqlar üçün xüsusi maarifləndirici tədbirlər təşkil edilib.

Festival günlərində İçərişəhərin qədim küçə və meydanları bayram ovqatına bürünmüşdü. Qədim Buxara və Multani karvansaraları, Qoşa Qala meydanı və digər məkanlar xalça sərgilərinə, ustad dərslərinə, interaktiv teatr tamaşalarına və konsert proqramlarına məkan olmuşdu. 19 ölkənin nümayəndəsinin təmsil olunduğu festivalda Azərbaycan da daxil olmaqla 14 dövlətin milli pavilyonu qurulmuşdu.

Beynəlxalq Xalça Festivalının keçirildiyi günlərdə İçərişəhər "Azərxalça" ASC-nin 500 əl işi xalçası ilə al-əlvan görünürdü. Minlərlə həm yerli, həm də xarici qonaq iki gün ərzində bu təkrarsız gözəllikdən yetərincə zövq aldı.

***Zöhrə FƏRƏCOVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

## Elçinin "Şekspir" pyesi əsasında hazırlanan tamaşa nümayiş olunub



**Mayın 5-də Bakı Bələdiyyə Teatrının Xalq yazıçısı Elçinin "Şekspir" pyesi əsasında səhnələşdirdiyi eyniadlı tamaşanın nümayişi olub.**

Görkəmli yazıçı və dramaturq Elçinin xatirəsinə həsr olunmuş tamaşanın təqdimatı Şəhriyar adına Mədəniyyət Mərkəzində keçirilib. Gecədə millət vəkilləri, dövlət qurumlarının təmsilçiləri, tanınmış mədəniyyət və incəsənət xadimləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən tamaşanın quruluşçu rejissoru Xalq artisti Mərahim Fərzəlibəyov Elçinin yaradıcılığından, Bakı Bələdiyyə Teatrı ilə olan əməkdaşlığından bəhs edib. Daha sonra tamaşanın nümayişi başlayıb.

Qeyd edilməlidir ki, "Şekspir" pyesi İngiltərə, ABŞ, Türkiyə, Rusiya, İtaliya, Ukrayna, Gürcüstan və digər xarici ölkələrdə səhnəyə qoyulub. Geniş tamaşaçı auditoriyasının marağına səbəb olan əsər eyni zamanda dünya ictimaiyyətinin Azərbaycanın zəngin ədəbi irsi ilə yaxından tanış olmasına da şərait yaradıb. Rejissor Mərahim Fərzəlibəyov "Şekspir" əsərinə tam fərqli prizmadan yanaşıb. O, tamaşaçıları "Şekspir" vasitəsilə Elçinin dərin fəlsəfi fikirləri ilə tanış edib. Səhnə əsəri ümumbəşəri dəyərlərə işıq tutaraq insanı xeyirxahlıq, sevgi və mərhəmət yoluna dəvət edir, onu mənəvi axtarışlara sövq edir.

Tamaşanın quruluşçu rəssamı Əməkdar mədəniyyət işçisi İlham Əsgərov, musiqi hissə müdiri Əməkdar mədəniyyət işçisi Nazim Əbidov, işıqçı rəssam Tərlan Ələsgərli, kostyum sexinin müdiri Leyla Əkbərova, dizayn işləri üzrə tərtibatçı Elnur Ehtiramoğludur.

"Şekspir" tamaşası izləyicilər tərəfindən yüksək maraqla qarşılanan və dərin təəssüratlar yaradan səhnə əsərlərindən biri kimi dəyərləndirilir. Səhnə əsərinin təqdimatı bu dəfə də zalda böyük coşqu və alqışlarla müşayiət olunub.

***"Azərbaycan"***

# İrpendə Valentina Antonenko ilə vida mərasimi olub

## *Səfir:* "Valentina Antonenko Azərbaycanın böyük dostu idi"

Akademik Zərifə Əliyeva adına 12 saylı İrpen Humanitar "Linqvist" liseyinin direktoru Valentina Antonenko ilə vida mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, İrpen şəhərinin mərkəzi meydanında təşkil olunan vida mərasimində Azərbaycanın Ukraynadakı səfirliyinin, SOCAR-ın bu ölkədəki nümayəndəliyinin kollektivi, diaspor fəallarımız, İrpen şəhər meriyasının rəhbərliyi, məktəbin kollektivi, şəhərin ictimai-siyasi fəalları iştirak ediblər.

Anım tədbirində çıxış edən ölkəmizin Ukraynadakı səfiri Seymur Mərdəliyev bildirib ki, Valentina Antonenko Azərbaycanın böyük dostu idi.



"Onun Azərbaycan və Ukrayna arasında təhsil sahəsində əməkdaşlığın inkişafında xidmətləri olub. Məhz onun bu xidmətlərinə görə Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə 2022-ci il yanvarın 12-də ölkəmizin "Dostluq" ordeni ilə təltif olunub. Valentina Antonenkonun əziz xatirəsi tək ukraynalıların deyil, azərbaycanlıların da qəlbində daim yaşayacaq", - deyə səfir əlavə edib.

Daha sonra çıxış edən İrpen şəhər merinin birinci müavini Oleksandr Paşinski, liseyin direktor müavini Nina Qnedyuk və digərləri Valentina Antonenkonun xidmətlərindən, Azərbaycan və Ukrayna arasında əməkdaşlığın inkişafına verdiyi töhfələrdən danışıblar.

Sonda anım tədbirinin iştirakçıları Valentina Antonenko ilə vidalaşıb, mərhumun ailəsinə başsağlığı veriblər.

Qeyd edək ki, Valentina Antonenko 78 yaşında vəfat edib. O, bir müddət öncə səhhətində yaranan problemlə əlaqədar xəstəxanaya yerləşdirilmişdi.


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


**BEYNƏLXALQ HƏYAT**

# Avropa Komissiyası 2050-ci ilə qədər yoxsulluğu aradan qaldırmağı hədəfləyir

"Biz 25 il ərzində Avropa İttifaqında yoxsulluğu aradan qaldırmaq istəyirik". Bu perspektivlə bağlı planları Avropa Komissiyasının (AK) vitse-prezidenti Roksana Minzatu "Euronews" telekanalına verdiyi müsahibədə açıqlayıb.



"Lakin yoxsulluğa qarşı mübarizə strategiyasının xüsusi büdcəsi yoxdur və bu strategiya əsasən qanunvericilikdən daha çox tövsiyələrə əsaslanır" - deyən Roksana Minzatu bu şərhləri AK-nın üzv dövlətləri üçün tövsiyələr, ən yaxşı təcrübə qaydaları vasitəsilə 2050-ci ilə qədər ifrat yoxsulluğu və sosial təcridin aradan qaldırılmasını hədəfləyən yoxsulluğa qarşı ilk mübarizə strategiyasının təqdimatından sonra verib.

Strategiya həyəcanverici statistika fonunda hazırlanıb: hazırda Aİ-nin 27 ölkəsində təxminən 92,7 milyon insan və ya ittifaqda yaşayan hər beş nəfərdən biri yoxsulluq, yaxud sosial təcrid riski altındadır.

Minzatu təşəbbüsün iddialı məqsədlərini etiraf edərək deyib ki, Aİ hələ də ən azı 15 milyon insanı yoxsulluqdan xilas etmək kimi 2030-cu il hədəfinə çatmaqdan uzaqdır. "Biz yalnız 3,7 milyon avropalıya kömək edə bilmişik", - deyə o bildirib. Yaxın Şərqdəki münaqişənin yaratdığı enerji böhranının ev təsərrüfatlarına əlavə iqtisadi yük yaradacağını, xərclərə və gündəlik yaşayışa əhəmiyyətli dərəcədə təsir göstərəcəyəni nəzərə alan R.Minzatu hesab edir ki, yoxsulluq riski altında olan 93 milyon insanın sayı bir neçə ay, hətta daha qısa müddət ərzində arta bilər.

Aİ-nin yoxsulluğa qarşı strategiyası əlverişsiz ailələrdəki uşaqlara kömək etməkdən tutmuş sosial və əlverişli mənzillərin genişləndirilməsinə qədər bir neçə aspekti əhatə edir. Lakin plana onun həyata keçirilməsi üçün xüsusi büdcə daxil deyil. Avropa Komissiyası hesab edir ki, Aİ artıq yoxsulluqla mübarizə üçün əhəmiyyətli resurslar (o cümlədən Avropa Sosial Fondundan 50,2 milyard, üstəgəl sosial inklüzivlik və maddi məhrumiyyətlərin həlli üçün maliyyələşdirmə və növbəti çoxillik büdcədə sosial siyasət üçün 100 milyard avro) ayırır.

Aİ-nin ev təsərrüfatlarına yardım proqramının gücləndirilməsi, işsizlərin iş tapmasının dəstəklənməsi və yaşlı vətəndaşlara adekvat pensiyalar vasitəsilə dəstəyin yaxşılaşdırılması - strategiyanın əsas məqsədləridir. Məsələn, bəzi ölkələrdə Avropa Komissiyası hökumət dəstəyinə ehtiyacı olan uşaqları izləməyə və onlara pulsuz xidmətlər təklif etməyə imkan verən rəqəmsal vasitə olan "Uşaq zəmanəti xəritəsi"ni sınaqdan keçirəcək. Minzatunun dediyinə görə, "əgər təhlükəli vəziyyətdə olan bir uşağın tibbi, məsələn, stomatoloji yardıma ehtiyacı varsa, biz bundan xəbərdar olmalı və onların bu dəstəyi almasını təmin etmək üçün lazım olan hər şeyi etməliyik".

Evsizlik problemi ilə mübarizə strategiyada göstərilən digər əsas prioritetdir. "Üzv dövlətlərə tövsiyə edirik ki, insanların işdən qovulması kimi halların qarşısını almaq üçün erkən xəbərdarlıq sistemləri və borc məsələlərinə dair məsləhətlər vasitəsilə insanların evsiz qalmalarının qarşısını alsınlar", - deyən Minzatu uzunmüddətli kirayələrin qısamüddətli kirayələrdən daha cəlbedici edilməsinin vacibliyini vurğulayıb.

Lakin Caritas Europa kimi qeyri-hökumət təşkilatlarının fikrincə, strategiyada konkret qanunvericilik təkliflərinin olmaması ən iddialı məqsədlərə çatmaqda lazım olan vasitələrdən istifadə edə bilməmək riskini yaradır. Sosial ədalət təşkilatları şəbəkəsi isə Aİ-nin yoxsulluğa qarşı mübarizə planını alqışlayıb. Lakin həm mənşə, həm də yaşadıqları ölkələrdə sosial müdafiədən məhrum olan "mobil" vətəndaşları qorumaq təklifi kimi tədbirlərin olmamasına görə onu həm də tənqid edib.

# Gündüz yağış yağacaq, axşam tədricən kəsiləcək

Azərbaycanda mayın 8-nə gözlənilən hava şəraiti açıqlanıb.

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, səhər və gündüz saatlarında bəzi yerlərdə yağış yağacağı proqnozlaşdırılır. Yarımadanın ayrı-ayrı yerlərində qısamüddətli intensivləşəcəyi ehtimalı var. Cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 12-15, gündüz 17-22 dərəcə isti olacaq. Atmosfer təzyiqi 764 millimetr civə sütunu, nisbi rütubət isə gecə 65-70, gündüz 45-55 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv və güclü olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Axşam tədricən kəsiləcək. Ayrı-ayrı yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 10-14, gündüz 17-20, dağlarda gecə 7-12, gündüz 18-20 dərəcə isti olacaq.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurun bəzi yerlərində havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Axşama doğru yağıntılar tədricən kəsiləcək. Arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 7-12, gündüz 19-24 dərəcə isti olacağı proqnozlaşdırılır.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygölün bəzi yerlərində havanın arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv və güclü olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, qar yağacağı ehtimalı var. Arabir duman müşahidə ediləcək. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 3-8, gündüz 12-17 dərəcə isti olacağı bildirilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanın bəzi yerlərində havanın fasilələrlə yağıntılı olacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 3-8, gündüz 9-14, bəzi yerlərdə 18-20 dərəcə isti olacağı ehtimal edilir.

Gəncə və Naftalan şəhərlərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz rayonlarının bəzi yerlərində havanın fasilələrlə yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Axşam yağıntılar kəsiləcək. Arabir duman müşahidə ediləcək. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 8-12, gündüz 17-22 dərəcə isti olacağı ehtimalı var.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusarın bəzi yerlərində havanın arabir yağıntılı olacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Axşam yağıntılar tədricən kəsiləcək. Arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 5-9, gündüz 16-19, dağlarda gecə 0-4, gündüz 4-8 dərəcə isti olacağı gözlənilir.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçalanın bəzi yerlərində arabir yağış yağacağı bildirilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, gündüz isə bir qədər güclənəcəyi, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Axşam yağıntılar tədricən kəsiləcək. Arabir duman müşahidə ediləcək. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 10-14, gündüz 17-20 dərəcə isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadın bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Axşam yağıntılar tədricən kəsiləcək. Arabir duman olacaq. Mülayim şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 10-14, gündüz 17-22, dağlarda gecə 7-9, gündüz 14-17 dərəcə isti olacağı gözlənilir.

# Qəzza təkcə viran qalmayıb

## İlin əvvəlindən bəri bölgədə 17 min yoluxma halı qeydə alınıb

Qəzzada həkimlər xəbərdarlıq edirlər: mövcud dözülməz şərait təhlükəli infeksiyaların sürətlə yayılmasına imkan verir, çökmək üzrə olan səhiyyə isə dərman və əsas tibbi ləvazimatların ciddi çatışmazlığı ilə üz-üzə qalıb.



Qəzza zolağında ciddi xəstəliklərin baş verməsi ilə bağlı narahatlıqlar gəmiricilərin köçkün düşərgələrində sürətlə yayılması fonunda artır. Burada dağıdılmış mühit, antisanitariya və nəzarət tədbirlərinin olmaması gəmiricilərin çoxalması üçün ideal şərait yaradır.

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, 2026-cı ilin əvvəlindən bəri daxili köçkünlər arasında 17 mindən çox gəmirici və parazit infeksiyasına yoluxma halı qeydə alınıb. Qəzzanın cənubunda köçkün olan Maha Şərəf deyir ki, təhlükə artıq yalnız atəşlə məhdudlaşmır, o, birbaşa onların müvəqqəti sığınacağına da yayılır. "Aman Allahım, bu ikinci müharibədir! Burada siçovullar və hətta ilanlar var! Bütün gecə əllərimizdə çubuqlar tutaraq, çadırımıza girəcəklərindən qorxaraq yata bilmirik, biz onların əlindən dəhşətə gəlirik", - deyə qadın bildirir.

İnsan hüquqları fəalları və ekoloqlar xəbərdarlıq edirlər ki, Qəzza zolağı müharibənin birbaşa təsirlərindən çoxdan kənara çıxmışdır. İndi bölgə ekoloji fəlakətlə üzləşib, gəmiricilərin çoxalması üzündən dəhşət yaşayır.

Fələstin Xalqına Dəstək üzrə Beynəlxalq Komitənin (HƏŞD) məlumatına görə, Qəzzada 60 milyon tondan çox dağıntı qalıb və dağıdılmış ərazilər siçovulların və digər ziyanvericilərin sığınacağına çevrilib. Çirkli sulara qarışan tullantılar gəmiricilərin çadırlar və müvəqqəti sığınacaqlar ətrafında yayılmasını sürətləndirir. Məhdud həcmdə gətirilən pestisidlərin və gəmiricilərə qarşı mübarizə materiallarının kəskin çatışmazlığı səbəbindən bələdiyyələr və müvafiq xidmətlər xəstəliklərə qarşı effektiv mübarizə apara bilmirlər. Ətraf mühit müdafiəçisi Səid Əklük bölgədə ziyanvericilərə qarşı mübarizə təchizatının tamam tükəndiyini və bu vəziyyətin xəstəliklərin yayılması üçün əlverişli şərait yaratdığını bildirir. Xan Yunisdə məcburi köçkün olan Əbdül Lətif Həsuna isə çadırındakı vəziyyəti belə təsvir edir: "Onlar çadırın altına sürünür və orada deşiklər açırlar. Balaca oğlumu dişləyiblər və o, 3 gün xəstə yatıb. Biz də bundan qorxuruq. Yay gəlir və nə edəcəyimizi və ya onlarla necə mübarizə aparacağımızı bilmirik. Maddi vəziyyətimiz onsuz da ağırdır".

Qəzza sakini Moatasem Nakhaleh də deyir ki, belə vəziyyətdən ən çox əziyyət çəkənlər uşaqlardır: "Kiçikyaşlı uşaqlar qorxurlar, hər yerdə siçovullar, tarakanlar və ağcaqanadlar var. Çirklənmiş ətraf mühit səbəbindən uşaqlar arasında dəri xəstəlikləri yayılır". Əş-Şifa kompleksində təcili tibbi yardım əməkdaşı Munir Şəhrit gəmiricilərin sancdıqları xəstələrin sayının artdığını və müalicə variantlarının son dərəcə məhdud olduğunu təsdiqləyir.

Bütün bunların fonunda ailələr qidanı birbaşa çadırlarında saxlamağa məcburdurlar, çünki təhlükəsiz saxlama yerləri yoxdur. Beləcə təxminən 1,4 milyon məcburi köçkün 2025-ci ilin oktyabr ayından bəri qüvvədə olan atəşkəs müqaviləsinə baxmayaraq, çadırlarda və müvəqqəti sığınacaqlarda zülm çəkməkdədirlər.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Mayın 14-dək meteor yağışı müşahidə olunacaq

Mayın 14-dək η-Lyrid meteor yağışı müşahidə olunacaq. Meteor yağışının maksimum aktivliyinin isə mayın 9-u saat 03:00 radələrində baş verəcəyi gözlənilir.




Bakı Dövlət Universitetinin (BDU) Fizika fakültəsinin Astrofizika kafedrasından AZƏRTAC-a verilən xəbərə görə, bu zaman Yer kosmosda kometamənşəli toz və daş hissəciklərindən keçəcək və həmin hissəciklər böyük sürətlə Yer atmosferinə daxil olaraq parlaq meteor izləri yaradacaqlar.

η- Lyrid meteor yağışının radiantı Lir (Lyra) bürcündə yerləşir və meteorlar bu nöqtədən çıxırmış kimi görünür. Bu meteor yağışının mənbəyi C/1983 H1 (IRAS-Araki-Alcock) kometası ilə əlaqələndirilir. Bu kometa 1983-cü ildə infraqırmızı astronomik peyk IRAS, həmçinin müstəqil olaraq yapon astronomları Geniçi Araki və George Alkock tərəfindən aşkar edilib. Kometa uzunperiodlu kometalar sinfinə daxildir. Onun Günəş ətrafında tam bir dövrünü təxminən 970 ildən çox müddətdə tamamladığı hesab olunur. Hər dəfə Günəşə yaxınlaşdıqda kometanın səthindən qopan toz və buz hissəcikləri orbit boyunca yayılır və Yer həmin hissəciklər axınından keçdikdə η-Lyrid meteor yağışı yaranır.

η- Lyrid meteoroidləri Yer atmosferinə təxminən saniyədə 43 kilometr sürətlə daxil olur ki, bu da onları ortasürətli meteor axınları sırasına daxil edir. Atmosferə daxil olan hissəciklər sürtünmə nəticəsində qızaraq ionlaşır və gecə səmasında parlaq işıq izləri - meteorlar əmələ gətirir.

Bakıdan müşahidə zamanı η-Lyrid radiantı demək olar ki, bütün gecə üfüqdən yuxarıda olacaq və bu səbəbdən meteor yağışı gecə ərzində izlənilə biləcək. Lakin radiantın səmadakı hündürlüyü gecə ərzində artdığından ən əlverişli müşahidə vaxtı sübhə yaxın saatlar hesab olunur. Radiantın kulminasiya anı təxminən saat 05:00 ətrafında baş verəcək və bu zaman meteorların sayı maksimuma çatacaq. Bunun səbəbi Yerin öz oxu ətrafında fırlanması nəticəsində müşahidə nöqtəsinin meteor axınının istiqamətinə daha optimal yönəlməsidir.

Sübhə yaxın saatlarda radiant yüksəkdə olduğundan meteorlar daha çox sayda, lakin nisbətən qısa izlərlə görünəcək. Gecənin əvvəlində isə meteor sayı az olsa da, onlar atmosferə daha maili daxil olduqları üçün daha uzun izlər buraxacaq. η-Lyrid meteor yağışı çox güclü meteor axınlarından sayılmasa da, qaranlıq səma şəraitində müşahidəçilərə saatda bir neçə parlaq meteor izləmək imkanı yarada bilər.

# ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov və Bəxtiyar Əzizli Azərbaycan Respublikasının Prezidenti yanında İdarəçilik Akademiyasının Hüquq kafedrasının müdiri professor İsaxan Vəliyevə əzizi

**ELMİRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baba Rzayev və "Azərenerji" ASC-nin kollektivi "Silk Way Holding" MMC-nin prezidenti Zaur Axundova anası

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Moskvadan professor Oleq Zaytsev, professor Viktor Qriqoriev, professor İqor Motskeviç və Oktay Əlizadə Azərbaycan Respublikasının Prezidenti yanında İdarəçilik Akademiyasının Hüquq kafedrasının müdiri professor İsaxan Vəliyevə əzizi

**ELMİRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**

**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj **3773**
Sifariş **567**

**Qiyməti 60 qəpik**